ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI
ORTA İXTİSAS MUSİQİ MƏKTƏB-STUDİYASI

# MUSİQİ ƏDƏBİYYATI

V SİNİF (5 illik təhsil)
VII SİNİF (7 illik təhsil)

## PROQRAM-KONSPEKT

Uşaq musiqi və incəsənət məktəb şagirdləri üçün

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**ORTA İXTİSAS MUSİQİ MƏKTƏB-STUDİYASI**

# MUSİQİ ƏDƏBİYYATI

**V SİNİF (5 illik təhsil)**
**VII SİNİF(7 illik təhsil)**

# PROQRAM-KONSPEKT

## Uşaq musiqi və incəsənət məktəb şagirdləri üçün

*Nəşr Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi Şurasının qərarı ilə təsdiqlənmiş və tövsiyə olunmuşdur.*
*(protokol № 7 2021-ci il 7 iyul tarixindən)*

**Bakı – 2021**

*Konspektlər Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təsdiqlənmiş Uşaq Musiqi və İncəsənət məktəbləri üçün Proqram əsasında tərtib olunmuşdur və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi-eksperimental laboratoriyası – Orta ixtisas musiqi məktəb-studiyası tərəfindən hazırlanmışdır. Konspektlərin tərtibatında müxtəlif illərə aid dərslik və digər ədəbi mənbə materiallarından istifadə olunmuşdur.*


**Layihənin müəllifi və rəhbəri:**
BMA-nın məktəb-studiyasının direktoru,
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Tərlan SEYİDOV**

**Tərtibçi:**
Georgi Şaroyev adına onbirillik musiqi məktəbinin və
BMA-nın məktəb-studiyasının müəllimi
**Nüşabə QULİYEVA**

**Məsul redaktorlar:**
BMA-nın məktəb-studiyasının böyük elmi işçisi
**Şəfəq HACIYEVA**

BMA-nın məktəb-studiyasının müəllimi
**Nuranə ZEYNALOVA**

**Rəyçilər və məsləhətçilər:**
"Musiqi tarixi" kafedrasının müdiri,
Azərbaycan Respublikasının Əməkdar müəllimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İMANOVA**

"Tarix-nəzəriyyə" kafedrasının müdiri,
Azərbaycan Respublikasının Əməkdar müəllimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Könül NƏSİROVA**

## P R O Q R A M

### Birinci yarimil


*1 – 2-ci dərslər.* **Pyotr İliç Çaykovski (1840 – 1893). Həyat və yaradıcılığı** ........ **5**

*3 – 4-cü dərslər.* **P.İ.Çaykovskinin 1-ci simfoniyası "Qış xəyalları"** ........ **6**

*5 – 6 – 7-ci dərslər.* **P.İ.Çaykovskinin "Yevgeni Onegin" operası** ........ **10**

*8-ci dərs.* **P.İ.Çaykovskinin baletləri: "Qu gölü", "Yatmış gözəl", "Şelkunçik"** ........ **20**

*9-cu dərs.* **XIX əsrin sonu – XX əsrin əvvəllərində rus musiqi mədəniyyəti** ........ **29**

*10-cu dərs.* **Aleksandr Nikolayeviç Skryabin (1872 – 1915). Həyat və yaradıcılığı** ........ **32**

*11-ci dərs.* **Sergey Vasilyeviç Raxmaninov (1873 – 1943). Həyat və yaradıcılığı** ........ **35**

*12-ci dərs.* **İqor Fyodoroviç Stravinski (1882 – 1971). Həyat və yaradıcılığı. "Petruşka" baleti** ........ **38**

*13-cü dərs.* **Sovet musiqisinin mərhələli inkişafı. Kütləvi sovet mahnısı və kino musiqisi** ........ **42**

*14 – 15-ci dərslər.* **XX əsrin sonu – XXI əsrin əvvəllərində rus ifaçılıq sənəti** ........ **46**

*16-cı dərs.* **Reynhold Moriseviç Qlier (1875 – 1956). Həyat və yaradıcılığı** ........ **48**

*17-ci dərs.* **R.M.Qlier. Səs və orkestr üçün Konsert** ........ **50**

## İkinci yarimil

*1-ci dərs.* **Sergey Sergeyeviç Prokofyev (1891 – 1953). Həyat və yaradıcılığı** ........ **54**

*2-ci dərs.* **S.S.Prokofyevin fortepiano yaradıcılığı** ........ **56**

*3-cü dərs.* **S.S.Prokofyev. "Aleksandr Nevski" kantatası** ........ **60**

*4-cü dərs.* **S.S.Prokofyev. "Romeo və Cülyetta" baleti** ........ **63**

*5-ci dərs.* **S.S.Prokofyev. "Zoluşka" baleti** ........ **69**

*6-cı dərs.* **S.S.Prokofyev. Yeddinci simfoniya** ........ **72**

*7 – 8-ci dərslər.* **Dmitri Dmitriyeviç Şostakoviç (1906 – 1975). Həyat və yaradıcılığı** ........ **74**

*9-cu dərs.* **D.D.Şostakoviç. Yeddinci simfoniya (I hissə)** ........ **75**

*10-cu dərs.* **Dmitri Borisoviç Kabalevski (1915 – 1998). Həyat və yaradıcılığı** ........ **79**

*11-ci dərs.* **D.B.Kabalevski. Fortepiano və orkestr üçün Üçüncü konsert** ........ **81**

*12-ci dərs.* **Georgi Vasilyeviç Sviridov (1915 – 1998). Həyat və yaradıcılığı** ........ **83**

*13-cü dərs.* **G.V.Sviridov. A.S.Puşkinin "Boran" povesti əsasında musiqili şəkillər** ........ **84**

*14-cü dərs.* **Rodion Konstantinoviç Şedrin (1932). Həyat və yaradıcılığı** ........ **87**

*15 – 16-cı dərslər.* **XX əsrin sonuncu rüb bəstəkarları** ........ **90**

*17-ci dərs.* **XX əsrin dünya musiqisi** ........ **93**

# K O N S P E K T L Ə R

## Birinci yarımil

*1 – 2-ci dərslər.* **Pyotr İliç Çaykovski (1840 – 1893). Həyat və yaradıcılığı.**

Dünya şöhrətli bəstəkar, dirijor və pedaqoq P.İ.Çaykovski – XIX əsrin musiqi romantizminin parlaq nümayəndələrindən biridir.

O, demək olar ki, bütün janrlarda musiqi bəstələmiş və onların hər birində dahi sənətkar kimi çıxış etmişdir. Çaykovski Qərbi Avropa musiqi mədəniyyətinin (V.Mosart, L.Bethoven, F.Şubert, F.Mendelson, R.Şuman) və rus bəstəkarlarının (əsasən M.Qlinka) ənənələrinə söykənirdi.

Pyotr İliç Çaykovski 1840-cı il mayın 7-si Votkinsk qəsəbəsində [1] mühəndis ailəsində anadan olmuşdur. O, Peterburqdakı Hüquqşünaslıq məktəbini bitirdikdən sonra Ədliyyə Nazirliyində fəaliyyətə başlayır. Çox keçmədən o, məktəbi tərk edir və yenicə açılmış Peterburq konservatoriyasına daxil olur (1862). Burada o, konservatoriyanın əsasını qoymuş Anton Rubinşteyn (bəstəkarlıq) və Nikolay Zarembadan (musiqi nəzəriyyəsi) dərs alır.

P.Çaykovski – peşəkar musiqi təhsili almış ilk rus bəstəkarıdır.

Onun yaradıcılığı və nisbətən qısa pedaqoji fəaliyyəti Moskva şəhəri ilə bağlı idi. Moskva konservatoriyasının açılışının ilk günlərindən (1866) Nikolay Rubinşteynin dəvəti ilə Çaykovski professor vəzifəsində çalışır. Böyük həvəslə bəstəkarlıq, alətşünaslıq, harmoniya fənlərini tədris edir.

Bir müddət Çaykovski "Müasir salnamə" ("Современная летопись") və "Rus xəbərləri" ("Русские ведомости") qəzetlərinin daimi musiqi icmalçısı kimi çıxış edir, tez-tez öz məqalə və resenziyalarını həmin qəzetlərdə dərc etdirir.

60-cı illərin sonu – 70-ci illərin əvvəli – bəstəkarın yaradıcılığının inkişafının çiçəklənmə dövrüdür. Bəstəkarı bir sənətkar kimi ilk öncə insan taleyinin mövzusu, rus təbiətinin lövhələri cəlb edirdi. Bu sadalanan mövzular "Qış xəyalları" simfoniyasında (1№-li), "Romeo və Cülyetta" simfonik uvertüra-fantaziyasında, "Voyevoda"[2], "Opriçnik"[3] operalarında, "Qu gölü" baletində, Birinci fortepiano konsertində və digər əsərlərdə öz əksini tapmışdır.

P.Çaykovski yaxın dostu olan, rus mesenatı Nadejda fon Mekk tərəfindən maddi dəstək alaraq 1870-ci illərin sonundan 90-cı illərin ortalarına qədər əsasən Avropada yaşayır. Rus musiqisinin təbliği məqsədilə o, Paris, Berlin, Jeneva, Londonda dirijorluq etdiyi simfonik konsertlərlə çıxış edir.

Bu illər ərzində yaranan əsərlər ona böyük şöhrət qazandırır. Bunlar "Yevgeni Onegin", Orleanlı qız", "Mazepa" [4] operaları, "1812-ci il" Təntənəli uvertüra, Dördüncü simfoniya və "Böyük sənətkarın xatirəsinə" məşhur trio ( Nikolay Rubinşteynin xatirəsinə).

Çaykovskinin adı artıq bütün dünyada məşhurlaşır. 1891-ci ildə məşhur "Karnegi-holl" konsert zalının açılışı münasibəti ilə bəstəkar Amerikaya dəvət alır (Nyu-York simfonik orkestrinə dirijorluq etmişdir).

[1] 1935-ci ildən sonra şəhər statusunu almışdır.
[2] Voyevoda – Qədim Rusiyada qoşun başçısı və vilayət hakimi.
[3] Opriçnik – rus çarı İvan Qroznının xüsusi cangüdəni.
[4] Mazepa – İvan Stepanoviç Mazepa, Ukraynanın hərbi siyasi xadimi (1687–1708)

P.İ.Çaykovski – ilk rus klassik baletinin yaradıcısıdır. O, baleti opera və simfonik musiqi janrlarının səviyyəsinə yüksəltmişdir. Onun “Qu gölü”, “Yatmış gözəl”, “Şelkunçik” baletləri bugünədək dünyanın bir çox teatr səhnələrinin incilərindəndir.

İnsanın zərif daxili aləminin açıqlanması, öz xoşbəxtliyi uğrunda apardığı mübarizə mövzuları bəstəkarın simfonik əsərlərində parlaq təcəssümünü tapmışdır. Altı simfoniya, proqramlı əsərlərdən “Manfred” simfoniyası, ”Romeo və Cülyetta”, “Fırtına”, “Françeska da Rimini” birhissəli simfonik uvertüraları buna misal ola bilər.

6-cı “Patetik” simfoniya (h moll) Çaykovskinin simfonik yaradıcılığının zirvəsi olmuşdur. Simfoniyanın premyerası 16 oktyabr 1893-cü il tarixində Peterburq şəhərində, bəstəkarın ölümündən doqquz gün öncə müəllifin rəhbərliyi ilə baş tutmuşdur.

Çaykovskinin yaradıcılıq illərinin son mərhələsində faciəvi səhifələr üstünlük təşkil edir (“Qaratoxmaq qadın” operası, 6 №-li “Patetik” simfoniyası). Lakin bununla yanaşı bəstəkar lirik xarakterli “İolanta” operasını, “Yatmış gözəl” və “Şelkunçik” nağıl-baletlərini, xalq mahnıları əsasında orkestr üçün “İtalyan kapriççiosu”nu da bəstələmişdir.

Bəstəkarın kiçik həcmli əsərləri sırasında 100 romans – “Səs-küylü ziyafətdə” (“Средь шумного бала»), “Bir kəlmə belə, əziz dost” (Ни слова, о друг мой»), “Biz səninlə oturmuşduq” («Мы сидели с тобой»), “İlin fəsilləri” («Времена года») (1876), “Uşaq albomu” (1878) fortepiano silsilələri, həmçinin müxtəlif fortepiano pyesləri vardır.

P.İ.Çaykovskinin yaradıcılığı hələ onun sağlığında yüksək qiymətləndirilmişdir. O, Fransa Zərif Sənətlər Akademiyasının müxbir üzvü, Kembric Universitetinin fəxri doktoru adlarına, Rus Musiqi İcmasının (RMİ) Moskva şöbəsinin direktoru vəzifəsinə seçilmişdir.

Bəstəkarın həyatının son illəri Moskva yaxınlığındakı Klin şəhəri ilə bağlı idi. P.Çaykovski 1893-cü ildə vəfat etmişdir.

YUNESKO tərəfindən keçirilən sorğu nəticəsində – P.Çaykovski ən çox ifa olunan bəstəkardır.

*Suallar və tapşırıqlar*:

1. Çaykovski harada təhsil almışdır? Hansı müəllimlərdən dərs almışdır?
2. Moskva konservatoriyasında işləmək bəstəkara kim tərəfindən təklif olunmuşdur?
3. Bəstəkarın 60 – 70-ci illərdə yazdığı əsərləri sadalayın.
4. Çaykovski dünyaca məşhur hansı konsert zalının açılışına dəvət almışdır?
5. Çaykovskinin vokal əsərlərini sadalayın.
6. Bəstəkarın proqramlı simfonik əsərlərinin adlarını çəkin.

*3 – 4-cü dərslər.* **P.İ.Çaykovskinin Birinci simfoniyası g moll (“Qış xəyalları”).**

Çaykovskinin simfonik yaradıcılığı geniş və müxtəlifdir. Bura aiddir: 6 simfoniya, “Manfred” proqramlı simfoniyası (C.Bayronun əsəri əsasında), birhissəli proqramlı simfonik əsərlər - A.Ostrovskinin “Tufan” dramına yazılmış uvertüra, “Françeska da Rimini” simfonik poeması (D.Aligyerinin “İlahi komediya” motivləri əsasında), “Romeo və Cülyetta” uvertüra-fantaziyası (V.Şekspirin motivləri əsasında) və s.

Bəstəkarın ilk üç simfoniyası Moskvadakı yaradıcılıq dövrünə təsadüf edir (1866, 1872, 1875). Simfoniyaların silsilə quruluşlarının və obrazların müxtəlifliyinə baxmayaraq, onları lirik və xalq-məişət ruhunu təcəssüm etdirən xüsusiyyətlər birləşdirir.

Birinci *g moll* simfoniyası (1866) proqramlıdır və “Qış xəyalları” adlanır. Simfoniyanın birinci və ikinci hissələri də müəyyən proqramlı xarakter daşıyır: “Qarlı qış yolunda xəyallar” («Грёзы зимнею дорогой») və “Tutqun diyar, dumanlı diyar” («Угрюмый край, туманный край»).

Bu simfoniya məzmun və musiqi dili baxımından özündə dərin milli xüsusiyyətləri cəmləşdirir. Simfoniya “Maslenitsa” ( Maslenitsa yaz fəslindən öncə gələn qışın son həftəsi) rus xalq bayramından şən əhval-ruhiyyəli lövhələr və valehedici rus təbiətinin gözəlliyinin təsirli təssüratları nəticəsində yaranmışdır. Bu gözəllik və ifadəlilik, bəstəkarın uşaqlıq illərində qarlı qış yolları və Valaam adasına səyahət xatirələrindən yaranmışdır.

Simfoniyanın musiqisi insan hissi və emosiyalarının müxtəlif çalarlarını, təbiətin gözəlliyini təsvir edir: qarlı meşə, dumanlı göl, malikanədə bayram yolkası və Maslenitsa şənliyi.

Xəyal dolu lirik (1-ci hissə) və şən (4-cü hissə) əhval-ruhiyyənin üstünlük təşkil etməsinə baxmayaraq, simfoniyada tənhalıq, qəm-qüssə xarakterli notlar da eşitmək olar.

Çaykovski klassik ənənələrə söykənərək dördhissəli simfonik silsilə yaradır.

Simfoniyanın birinci hissəsi (*g moll*) – “Qarlı qış yolunda xəyallar” *sonata alleqrosu* formasında yazılmışdır.

Əsas mövzu fleyta və faqotun ifasında səslənir. Bu mövzu yolçunun gözləri önündə canlanan qarlı, ucsuz – bucaqsız meşədən bəhs edir.

***“Qış xəyalları” simfoniyası***
***Birinci hissə – “Qarlı qış yolunda xəyallar” («Грёзы зимнею дорогой»)***
***Əsas mövzu, birinci element:***
*https://www.youtube.com/watch?v=YkZeuY1wYIU*




Əsas mövzunun birinci elementi lirik-melanxolik əhval-ruhiyyəli olduğu halda, qoboyun ifasında səslənən xromatik gedişlərlə zəngin ikinci element daxili gərginlik və həyəcan hissi yaradır.

***Əsas mövzu, ikinci element:***
*https://www.youtube.com/watch?v=YkZeuY1wYIU*
*(səslənmənin başlanğıcı – 0:32)*



Köməkçi mövzu axıcı rus xalq mahnısı üslubunda yazılmışdır (*D dur*). Bu mövzu dinləyicini əsas mövzunun birinci elementinə xas olan əvvəlki lirik və sakit əhval-ruhiyyəyə qaytarır.

***Köməkçi mövzu:***
[https://www.youtube.com/watch?v=6fAWqvjauVI](https://www.youtube.com/watch?v=6fAWqvjauVI) *(səslənmənin başlanğıcı – 2:28)*




Ekspozisiyanın tamamlayıcı mövzusu təntənəli xarakter daşıyır və xalq şənliyi mühiti yaradır.

***Tamamlayıcı mövzu:***
[https://www.youtube.com/watch?v=6fAWqvjauVI](https://www.youtube.com/watch?v=6fAWqvjauVI) *(səslənmənin başlanğıcı – 3:25)*




İşlənmədə ekspozisiyadakı müxtəlif mövzular "qarşılaşaraq" dramatik gərginliyi artırır.

Birinci hissə əsasən lirikdir, lakin dramatik xarakter daşıyır.

Reprizada əsas mövzu yenidən əvvəlki şəkildə, fleyta və faqotun ifasında səslənir.

İkinci hissə (*Adagio*) "Tutqun diyar, dumanlı diyar" adlanır. Burada bəstəkarın Ladoqa gölünə səyahətindən yaranan təəssüratları əks olunur. Çaykovski orkestr alətlərindən məharətlə istifadə edərək əsrarəngiz dumanlı göl və donmuş qış mənzərəsi lövhələrini təsvir edə bilmişdir.

İkinci hissə *rondo* xüsusiyyətli üçhissəli formada yazılmışdır.

Kiçik müqəddimədən sonra qoboyun ifasında əsas mövzu (*Es dur*) səslənir və xarakter etibarı ilə axıcı rus xalq mahnılarına yaxındır.

***İkinci hissə – "Tutqun diyar, dumanlı diyar"***
***(«Угрюмый край, туманный край»)***
***Əsas mövzu:***
[https://www.youtube.com/watch?v=8exM6NujZYE](https://www.youtube.com/watch?v=8exM6NujZYE) *(səslənmənin başlanğıcı – 1:50)*




Birinci mövzudan sonra, rus lirik mahnısının ifadəli intonasiyaları ilə zəngin ikinci mövzu səslənir. Qeyd etmək lazımdır ki, bəstəkar simfoniyanın hər bir hissəsində müxtəlif rus xalq mahnı janrlarından istifadə etmişdir.

Parlaq bədiiliklə seçilən simfoniyanın üçüncü və dördüncü hissələri əsərin ümumi poetik fikrini inkişaf etdirir.

Üçüncü hissə cəld Skersodur. Dördxanəli girişdən sonra əsas mövzu səslənir.

***Üçüncü hissə, əsas mövzu:***
[https://www.youtube.com/watch?v=ruzWfZV0_Sc](https://www.youtube.com/watch?v=ruzWfZV0_Sc)




Skersonun orta hissəsi ənənəvi triodur. Zərif, lirik vals səslənir.

***Trio (vals):***
[https://www.youtube.com/watch?v=ruzWfZV0_Sc](https://www.youtube.com/watch?v=ruzWfZV0_Sc) *(səslənmənin başlanğıcı – 2:37)*




Rus bəstəkarlarından məhz Çaykovski ilk olaraq simfoniyaya vals daxil etmişdir. Artıq Birinci simfoniyada bəstəkar bu məişət rəqsinə müraciət edir hansı ki, onun gələcək simfoniyalarında mühüm dramaturji əhəmiyyət kəsb edəcək.

Dördüncü hissə, final – xalq şənliyinin parlaq lövhəsidir.

Bu hissənin əsas mövzusu həyatsevər, rəqsvari xarakter daşıyır (g moll).

***Dördüncü hissə, əsas mövzu:***
[https://www.youtube.com/watch?v=oZEY9QYEZSg](https://www.youtube.com/watch?v=oZEY9QYEZSg)




Çaykovski bu hissədə «Я посею ли, млада» (digər adı "Çiçəklər açmışdır") rus xalq mahnısından istifadə edib. Öncə onun intonasiyaları giriş mövzusunda, sonra isə tam şəkildə köməkçi mövzuda səslənir.

***Köməkçi mövzu:***
[https://www.youtube.com/watch?v=oZEY9QYEZSg](https://www.youtube.com/watch?v=oZEY9QYEZSg) *(səslənmənin başlanğıcı – 4:39)*



***"Çiçəklər açmışdır" («Цвели цветики») xalq mahnısının mövzusu:***
[https://www.youtube.com/watch?v=oZEY9QYEZSg](https://www.youtube.com/watch?v=oZEY9QYEZSg) *(səslənmənin başlanğıcı – 2:58)*



Çaykovskinin burada istifadə etdiyi prinsip gələcəkdə Dördüncü simfoniyanın finalında da istifadə olunacaq. Bəstəkar dördüncü hissəni simfoniyanın əsas tonallığında (g-moll) başlayır və G dur-da təntənəli, şən, bayramsayağı xarakterlə bitirir.

Çaykovskinin "Qış xəyalları" simfoniyası rus lirik simfonizminin ilk nümunəsidir.

*Suallar:*

1. Çaykovski neçə simfoniya yazmışdır?
2. Birinci simfoniya neçənci ildə yazılmışdır?
3. Simfoniyanın hansı hissələri adlandırılmışdır?
4. "Qış xəyalları" adı nə ilə bağlıdır?
5. Simfoniyaya ilk olaraq hansı məişət rəqsi daxil edilmişdir?
6. Simfoniya hansı tonallıqda bitir?

*5 – 6 – 7-ci dərslər.* **P.İ.Çaykovskinin "Yevgeni Onegin" operası (1879).**

Opera janrı Çaykovskinin yardıcılığının aparıcı janrlarından biridir. Bəstəkarın yazdığı 10 opera arasında "Yevgeni Onegin" mühüm yerlərdən birini tutur.

*İştirak edənlər:*

Larina – mülkədar qadın (soprano).

Onun qızları – Tatyana (soprano) və Olqa (messo-soprano).

Filipyevna – dayə (messo-soprano).

Yevgeni Onegin – Lenskinin dostu (bariton).

Lenski – Larinlər ailəsinin qonşusu (tenor).

Knyaz Qremin (bas).

Zareski – Lenskinin duel şahidi (bas).

Trike – fransız, rəqs müəllimi (tenor).

P.Çaykovski məşhur müğənni Y.Lavrovskayanın tövsiyəsi ilə A.Puşkinin "Yevgeni Onegin" romanı əsasında opera yazır. Operanın librettosu ədib K.Şilovski, həmçinin bəstəkarın özü tərəfindən yazılmışdır. Operanın premyerası (1879) bəstəkarın istəyi ilə Moskva konservatoriyasının tələbələri tərəfindən səhnəyə qoyulmuşdur. Operaya konservatoriyanın müdiri Nikolay Rubinşteyn dirijorluq etmişdir.

Çaykovski operanı janr baxımından "lirik səhnələr" kimi şərtləndirir və bütün diqqəti əsas qəhrəmanların – Tatyana, Lenski, Oneginin daxili aləminin aydın göstərilməsinə yönəldir. Operanın əsas ideyası Tatyananın ümidlərinin alt-üst olması ilə bağlıdır.

“Yevgeni Onegin” operası ən mükəmməl lirik opera nümunələrindən biridir. Opera 3 pərdə və 7 şəkildən ibarətdir.

Operanın qısa müqəddiməsi sekvensiya vasitəsi ilə inkişaf edən “şairanə xəyallar” adlı mövzu üzərində qurulub. Sonra bu mövzu 1-ci, 2-ci və 7-ci şəkillərdə də səslənir.

***Müqəddimə:***
[https://www.youtube.com/watch?v=wP82Aq9ygaE](https://www.youtube.com/watch?v=wP82Aq9ygaE)




**Birinci pərdə** 3 şəkildən ibarətdir.

Birinci şəkil. Larinlərin kənddəki malikanəsi. Məhz burada əsas qəhrəmanlarla – Tatyana, Olqa, Lenski və Oneginlə tanışlıq baş verir. Tatyana və Olqa bacılarının “Eşitmisinizmi” («Слыхали ль вы») adlı həzin dueti səslənir. Bu duet əhval-ruhiyyə baxımından rus məişət romansı ruhuna yaxındır.

***Birinci şəkil***
***Tatyana və Olqanın dueti – “Eşitmisinizmi” («Слыхали ль вы»):***
[https://www.youtube.com/watch?v=VxB2IHVmmv4](https://www.youtube.com/watch?v=VxB2IHVmmv4)




Larinlərin evi qarşısında kəndlilər toplanır. Xorun ifasında ağır templi “Mənim cəld ayaqlarım sızlayır” («Болят мои скоры ноженьки») mahnısı səslənir, sonra isə məzəli xarakterli “Körpü ilə” («Уж как по мосту-мосточку») mahnısı ilə əvəzlənir.

***Xor – “Mənim cəld ayaqlarım sızlayır”***
***(«Болят мои скоры ноженьки»):***
[https://www.youtube.com/watch?v=rEpzTZvKaxE](https://www.youtube.com/watch?v=rEpzTZvKaxE)



***Xor – “Körpü ilə” («Уж как по мосту-мосточку»):***
[https://www.youtube.com/watch?v=8K7oQTc6ccY](https://www.youtube.com/watch?v=8K7oQTc6ccY) *(səslənmənin başlanğıcı – 3:31)*




Larinlərin qonşusu Lenski onlara qonaq gəlir. Cavan oğlan Olqaya aşiq olur. Lakin Lenski tək deyil, onunla birgə Peterburqlu dostu Onegin də təşrif buyurub.

Olqanın şux, qayğısız obrazı onun yeganə “Üzgün, qəmli olmağı bacarmıram” (“Я не способна к грусти томной») ariyası ilə xarakterizə edilir.

***Olqanın ariyası – “Üzgün, qəmli olmağı bacarmıram”***
***(“Я не способна к грусти томной»):***
[https://www.youtube.com/watch?v=x-mQg-pDFVw](https://www.youtube.com/watch?v=x-mQg-pDFVw) *(səslənmənin başlanğıcı – 0:30)*




Lenskinin Olqaya olan saf sevgisi daha çox “Mən sizi sevirəm, Olqa” («Я люблю вас, Ольга») ariyasında göstərilir.

***Lenskinin ariozosu – “Mən sizi sevirəm, Olqa”***
***(«Я люблю вас, Ольга»):***
[https://www.youtube.com/watch?v=FPlCrY6v9rQ](https://www.youtube.com/watch?v=FPlCrY6v9rQ)



İkinci şəkil. Tatyananın otağı. Tatyananı gözlənilməz müəmmalı hisslər bürüyür. Tatyananın bütün fikirləri Onegin haqqındadır.

İkinci şəklin əsas hissəsi Tatyananın Oneginə ünvanladığı məktub səhnəsidir. Bu səhnə 4 hissədən ibarətdir.

Səhnənin əvvəlində həyəcanlı, ehtiraslı melodiya səslənir (Tatyananın sevgi mövzusu). Tatyana öz hisslərini etiraf edir. Çaykovski Tatyananın daxili durumunun müxtəlif tərəflərini məharətlə əks etdirir: fədakarcasına qətiyyətli birinci bölmə – "Ölsəm də belə" («Пускай погибну я»),

***İkinci şəkil. Tatyananın məktub səhnəsi.***
***Birinci hissə – "Ölsəm də belə" («Пускай погибну я»):***
[https://www.youtube.com/watch?v=vZyuE4ILnWM](https://www.youtube.com/watch?v=vZyuE4ILnWM)




həyəcanlı və açıq-aydın ikinci bölmə – "Mən sizə yazıram" («Я к вам пишу»),

***İkinci hissə – "Mən sizə yazıram"***
***(«Я к вам пишу»):***
[https://www.youtube.com/watch?v=vZyuE4ILnWM](https://www.youtube.com/watch?v=vZyuE4ILnWM) *(səslənmənin başlanğıcı – 2:47)*



ehtiraslı coşqun üçüncü bölmə “Bu dünyada heç kimə” («Нет, никому на свете»),

***Üçüncü hissə – “Bu dünyada heç kimə”***
***(«Нет, никому на свете»):***
[https://www.youtube.com/watch?v=vZyuE4ILnWM](https://www.youtube.com/watch?v=vZyuE4ILnWM) *(səslənmənin başlanğıcı – 5:40)*




və, onu bürümüş şübhələr “Sən mənim mələyimmisən” «Кто ты мой ангел ли хранитель» (dördüncü bölmə):

***Dördüncü hissə – “Sən mənim mələyimmisən”***
***(«Кто ты мой ангел ли хранитель»):***
[https://www.youtube.com/watch?v=IAgIGTY2ZMA](https://www.youtube.com/watch?v=IAgIGTY2ZMA)




Üçüncü şəkil əsasən Tatyana və Oneginin görüş səhnəsi ilə bağlıdır. Qız həyəcanla cavab gözləyir. Onegin Tatyananın sevgi etirafından təsirlənir, lakin onun hisslərinə qarşılıq verə bilmir. Oneginin “Həyatımı ev qayğılarına qurban vermək istəsəydim əgər” («Когда бы жизнь домашним кругом я ограничить захотел») ariyası cavan qızın sevgisinə özünəməxsus tərzdə rədd cavabı olur.

***Üçüncü şəkil. Oneginin ariyası – “Həyatımı ev qayğılarına qurban versəydim”***
***(«Когда бы жизнь домашним кругом я ограничить захотел»):***
https://www.youtube.com/watch?v=GojMs8UH5ps *(səslənmənin başlanğıcı – 2:08)*




Tatyananın qəlbindəki kədər məişət həyatı və təbiət mənzərəli səhnələri fonunda canlanır.

Bəstəkar rədd cavabı almış qızın hiss və həyəcanını daha da qabarıq göstərmək üçün bu səhnəni qızların “Qızlar-gözəllər” («Девицы-красавицы») xoru ilə haşiyələndirir.

***Qızların xoru – “Qızlar-gözəllər”***
***(«Девицы-красавицы»):***
https://www.youtube.com/watch?v=oUGZq2Lw6vE *(səslənmənin başlanğıcı– 1:09)*




**İkinci pərdə.** 4-cü şəkil. Larinlərin evində Tatyananın ad günü şərəfinə düzənlənmiş ziyafət. Hər tərəfdən qonaqlar gəlmişdir. Kəndsayağı ziyafət mühiti Onegini darıxdırır. Sıxıntıdan o, Olqayla maraqlanmağa başlayır və bununla da Lenskini qəzəbləndirir. Onegin və Lenskinin birinci qarşıdurması səslənən vals fonunda baş verir. Musiqinin xarakteri dəyişir və dramatikliyə doğru gedir.

.

***Dördüncü şəkil. Vals:***
https://www.youtube.com/watch?v=HXXIGRNDGPg *(səslənmənin başlanğıcı – 2:35)*



Növbəti səhnədə parlaq mazurka sədaları fonunda iki dost arasında mübahisə baş verir.

***Mazurka:***
*https://www.youtube.com/watch?v=UvTitJzFQxw*




Yaranmış gərgin vəziyyətə qarşı səslənən Fransalı Trikenin təbrik kupletləri "Nə gözəl bir gündür" («Какой прекрасный этот день») tam ziddiyət təşkil edir.

***Trikenin kupletləri – "Nə gözəl bir gündür"***
***(«Какой прекрасный этот день»):***
*https://www.youtube.com/watch?v=KT1F1gDkdz8 (səslənmənin başlanğıcı – 1:20)*







Lenski Onegini duelə çağırır. Dramatik həddə çatdırılmış Lenski və Onegin səhnəsi "Lenski, sən rəqs etmirsən?" («Ты не танцуешь Ленский?») gələcəkdə faciəvi hadisələrin olacağından xəbər verir.

Operanın dördüncü şəklini Lenskinin Olqa ilə keçirdiyi xoşbəxt günlərinin xatirələri ilə dolu "Sizin evinizdə" («В вашем доме») ariozosu bitirir. Bu ariozo onun "Mən sizi sevirəm Olqa" («Я люблю вас Ольга») ariozosunun mövzusu üzərində qurulub.

***Lenskinin ariozosu – "Sizin evinizdə" («В вашем доме»):***
*https://www.youtube.com/watch?v=zkH0eKP8HVM*



Təyin olunmuş vaxta xeyli qalmış Lenski duel yerinə gəlir. Lenskinin həzin “Hara qeyb oldunuz?” («Куда, куда вы удалились?») ariyası 5-ci şəklin lirik mərkəzi olur. Ariya orkestrlə səsin dialoqu formasında qurulub.

***Beşinci şəkil. Lenskinin ariyası – “Hara qeyb oldunuz?”***
***(«Куда, куда вы удалились?»):***
[https://www.youtube.com/watch?v=EDyC9bSjpBY](https://www.youtube.com/watch?v=EDyC9bSjpBY)




Bizim qarşımızda gənc şair canlanır və uzaq olmayan ölümünü hiss edir – “Gələcək gün mənə nə vəd edir?” («Что день грядущий мне готовит?»).

***Lenskinin ariyası – “Gələcək gün mənə nə vəd edir?”***
***(«Что день грядущий мне готовит?»):***
[https://www.youtube.com/watch?v=EDyC9bSjpBY](https://www.youtube.com/watch?v=EDyC9bSjpBY) *(səslənmənin başlanğıcı – 1:12)*




Lenski və Oneginin kanon formasında yazılmış “Düşmənlər” duetinin mövzusu gərgin, kədərli xarakter daşıyır. Duel qəhrəmanlarını eyni hiss və həyəcan bürüyür – “Sağ qalan kim olacaq?”, («Кто останется в живых?»). Onlar hər ikisi ölümlə qarşı-qarşıyadırlar. Lenski vəfat edir.

***Duel səhnəsi. Onegin və Lenskinin dueti – "Düşmənlər! düşmənlər!"***
***(«Враги! Враги!»):***
[https://www.youtube.com/watch?v=aSRyG6mjnM4](https://www.youtube.com/watch?v=aSRyG6mjnM4)
*(səslənmənin başlanğıcı – 1:55)*




**Üçüncü pərdə.** 6-cı şəkil. Knyaz Qreminin Peterburqda yerləşən zəngin malikanəsində ziyafət. Knyazın "Sevgi hər yaşda məqbuldur" («Любви все возрасты покорны») ariyası nəcib lirizmlə seçilir. Qremin öz xoşbəxt evliliyi haqqında oxuyur.

***Altıncı şəkil. Qreminin ariyası – "Sevgi hər yaşda məğbuldur"***
***(«Любви все возрасты покорны»):***
[https://www.youtube.com/watch?v=pVi4G40G4Q0](https://www.youtube.com/watch?v=pVi4G40G4Q0)




Uzun səyahətlərdən qayıtmış Onegin də dəvətlilər arasındadır. Qremin həyat yoldaşını Oneginə təqdim edir. Onegin heyrətlənir. O, Tatyananı xatırlayır.

Onegin obrazı son "Əfsus! Şübhəsiz aşiqəm mən" («Увы! Сомненья нет, влюблён я») ariozosunda köklü dəyişikliklərə məruz qalır. Bizim qarşımızda saf məhəbbətlə dolu bir insan durur. Orkestrdə Tatyananın keçmiş xatirələrini əks etdirən məktub səhnəsindən intonasiyalar səslənir.

***Oneginin ariozosu – “Əfsus!Şübhəsiz, aşiqəm mən”***
***(«Увы! Сомненья нет, влюблён я»):***
https://www.youtube.com/watch?v=gvzSewg6-aw *(səslənmənin başlanğıcı – 1:41)*




7- ci şəkil operanın dramatik nöqtəsi sayılır. Oneginin əvvəlki təkəbbüründən bir iz belə qalmamışdır. Onun nitqində etiraf və peşmançılıq hissi duyulur.

Tatyana və Oneginin son dueti – “Onegin, mən gənc idim” («Онегин, я тогда моложе») dramatik xarakterlə bitir. Keçmişi qaytarmaq mümkün deyil. Onegin rədd cavabı alır.

***Yeddinci şəkil. Tamamlayıcı səhnə***
***Tatyana və Oneginin dueti – “Onegin, mən gənc idim” («Онегин, я тогда моложе»):***
https://www.youtube.com/watch?v=feTCTv3erjw *(səslənmənin başlanğıcı – 2:30)*




*Suallar və tapşırıqlar:*

1. Kimin tövsiyəsi ilə P.Çaykovski A.S.Puşkinin “Yevgeni Onegin” romanına müraciət etmişdir?
2. Opera hansı janrda yazılmışdır? Bu janrın xüsusiyyəti nədir?
3. Hansı səhnələrdə Tatyananın “həyata keçməyən xəyalları” göstərilir?
4. Operada hansı rəqslər vacib dramaturji əhəmiyyət daşıyır?
5. Operanın ilk tamaşası harada səhnəyə qoyulmuşdur?
6. Əsas qəhrəmanların musiqi xarakteristikasını söyləyin.

*8-ci dərs.* **P.İ.Çaykovskinin baletləri: “Q u g ö l ü ”, “Y a t m ı ş g ö z ə l ”, “Ş e l k u n ç i k ”.**

Rusiya xoreoqrafiya sənətinin qısa, lakin mürəkkəb inkişaf yolu rus balet sənətinin çiçəklənməsinə zəmin yaratmışdır. O dövrün tanınmış musiqiçilərinin əksəriyyəti baleti “ən aşağı” janr kimi dəyərləndirirdilər. Məhz buna görə də, XIX əsrin 70-ci illərinə qədər rus musiqisində bir dənə də olsun balet yaranmamışdır.

Çaykovskinin baletlərinin meydana gəlməsi Rusiyada bu janra olan marağı daha da artırmışdır. Əsas məqamlardan biri rəqs və musiqinin birlikdə vəhdət təşkil edərək əsərin məzmununu əks etdirməsidir. Ənənəvi balet formaları isə (“klassik”, “xarakterik” rəqslər, pantomima və divertismentlər) baletdə yeni məna və əhəmiyyət kəsb edir.

P.İ.Çaykovski ilk rus klassik baletinin banisi olmuşdur.

Çaykovskinin üç baleti – “Qu gölü”, “Yatmış gözəl” və “Şelkunçik” dünya balet sənətinin əsl incilərindəndir.

**“Qu gölü”** – qu quşu-Odettanın və şahzadə Ziqfridin məhəbbəti haqqında musiqili poemadır. Onların saf məhəbbəti hiylə və pisliyə qalib gəlir (Qəzəbli şər adam Rotbart və onun qızı Odilliya).

Balet dörd pərdədən ibarətdir.

**Birinci pərdə.** Baletin giriş hissəsində “qu quşunun mövzusu” səslənir. Bu mövzu baletdə leytmotiv rolu oynayır.

***İntroduksiya:***

*https://www.youtube.com/watch?v=pa67onmu-SQ (səslənmənin başlanğıcı – 1:33)*




Dəbdəbəli qəsrdə şahzadə Ziqfridin həddi-buluğa çatması şərəfinə şənlik keçirilir. Qonaqlar rəqs edir.

***Vals:***

*https://www.youtube.com/watch?v=qWbEBizh3jo*




Bircə Ziqfrid dərin düşüncələrə qərq olur. O, saf məhəbbət haqqında xəyallar qurur.

**İkinci pərdə.** Müəmmalı bir qüvvə Ziqfridi sehirli qu gölünə gətirib çıxarır. Gölün üzərində üzən qu quşları simalarını dəyişərək gözəl qızlara çevrilirlər. Ümumi rəqs başlayır, ardınca isə “Kiçik qu quşlarının rəqsi” təqdim olunur.

***Kiçik qu quşlarının rəqsi:***
https://www.youtube.com/watch?v=x0mqfNZI1VE




Qəzəbli sehrbaz Rotbart tərəfindən qu quşuna çevrilmiş Odetta ancaq gecələr gözəl qız simasını bərpa edə bilir. Onu ancaq həqiqi məhəbbət xilas edə bilər. Odettanın gözəlliyinə valeh olan şahzadə onu əbədi məhəbbətlə sevəcəyinə and içir.

**Üçüncü pərdə.** Bal. Şahzadə Ziqfrid gələcək nişanlısını seçməlidir.

Qız-gəlinlərin rəqsləri süitası başlayır. Onların hər biri öz milli rəqsini ifa edir. Beləliklə, çardaş ritminə əsaslanan macar rəqsi xalq mahnı motivi əsasında səslənən zərif neapolitan rəqsi ilə əvəz olunur.

***Macar rəqsi:***
https://www.youtube.com/watch?v=eqLZYtg4gzY







***Neapolitan rəqsi:***
https://www.youtube.com/watch?v=KykGuJKcP3A



Bolero ritmində və kastanyetlərin səslənməsi ilə ifa olunan ispan rəqsindən sonra:

***İspan rəqsi:***
https://www.youtube.com/watch?v=_4gpqpkVrhM




parlaq rus rəqsi səslənir.

***Rus rəqsi:***
https://www.youtube.com/watch?v=FnJ-WATYUsU




Lakin şahzadə onlardan heç birini seçmir.

Rotbartın hiyləgər qızı (qara qu quşu) Odilliya obrazı zərif Odetta obrazına qarşı qoyulur. Odilliya da həmin balda iştirak edir. Ziqfrid Odilliyanı Odetta zənn edərək ona evlilik təklif edir. Şahzadə istəmədən Odettaya verdiyi andı pozur və bununla o, Odettanı ömürlük qu quşu qalmasına məhkum edir. Lakin xeyirxahlıq qalib gəlir. Ziqfrid Rotbartı döyüşdə məğlub edir. Odetta şər qüvvələrdən xilas olur.

Odetta və Odilliyanın musiqi nömrələrini eyni rəqqasə ifa edir.

Baletin musiqisinin melodik əsasını mahnı və rəqs təşkil edir.

Çaykovski hər bir obrazı müəyyən tembr ilə səciyyələndirir. Belə ki, Odetta obrazı qoboyun tembri ilə bağlıdır, faciəvi kulminasiya məqamları – truba vasitəsi ilə, Odetta və şahzadənin sevgi adagiosu isə violin və arfanın dueti ilə müşayiət edilir.

Bəstəkar ən sevdiyi vals ritminə müraciət edərək baletin lirik, həzin əhval-ruhiyyəli olmasına nail ola bilmişdir.

Bütövlükdə, bu əsər romantik balet ruhunda yazılmışdır.

**"Y a t m ı ş g ö z ə l"** (1889) Çaykovskinin ikinci baleti – nağıl-feyeriyadır.[5] Balet Proloqdan, 3 pərdədən və Apofeozdan ibarətdir. Əsərin librettosu Ş.Perronun nağılı əsasında yazılıb.

Siren (xeyir) və Karabos (şər) pərilərinin qarşıdurması baletin dramaturgiya xəttini müəyyən edir. Xeyir şərə qalib gəlir. Baletdə yalnız aparıcı obrazlar leytmövzularla xarakterizə olunurlar.

Sarayda hər kəs padşah Florestanın qızı Avroranın dünyaya gəlməsini bayram edir. Lakin Karabos pərisi (ən qəzəbli pəri) dəvət olunanlar arasında deyil, məhz bu səbəbdən qəzəbli pəri qisas məqsədi ilə Avroranı əbədi yuxuya qərq edir. Lakin Siren pərisinin gücü ilə (Avroranın xaç anası) Karabos pərisinin sehrini yüngülləşdirərək yuxunun 100 il davam edəcəyini və gözəl şahzadənin öpüşü ilə Avroranın oyanacağını söyləyir.

Karabos pərisinin mövzusu iti, kəskin və qeyri-sabit xarakterdə olduğu halda,

***İntroduksiya. Karabos pərisi:***
*https://www.youtube.com/watch?v=bh4dld-1iIU*




Siren obrazının təsviri əksinə lirik həzin melodiya ilə göstərilir.

***Siren pərisinin mövzusu:***
*https://www.youtube.com/watch?v=bh4dld-1iIU (səslənmənin başlanğıcı – 1:05)*




Bu iki obraz artıq İntroduksiyada təqdim olunur. Karabosun mövzusunu bütün orkestr ifa edir, Sirenin mövzusu isə arfa, fleyta və ingilis buynuzunun ifasında səslənir.

Tədricən bu alətlərə ağac nəfəsli alətlər və trubalar da qoşulur. Orkestrdən gələn şeypur səsi xoşbəxt günlərin gələcəyini və xeyrin şərə qalib gəlməsinin müjdəsini verir.

Proloqun əsas hissəsini Adagio və pərilərin süitası təşkil edir.

[5] Nağıl-feyeriya (fr. fee "pəri, sehrbaz") – fantastik süjet və mənzərəli vizual effektləri ilə fərqlənən fransız teatr janrıdır. Feyeriya musiqi, rəqs, pantomima və akrobatika elementlərini özündə cəmləşdirir.

***Proloq. Pərilərin Adagiosu:***
[https://www.youtube.com/watch?v=HkK5sgz7kn8](https://www.youtube.com/watch?v=HkK5sgz7kn8)




Altı müxtəlif xarakterli variasiyalar pərilərin musiqi xarakteristikasını müəyyən edir: Kandid (Səmimilik) pərisinin sadəlövh mövzusu, tarantella ritmində Flyor-de-Farin (Çiçəklənən sünbüllər) pərisinin mövzusu, zarafatyana, skerso sayağı, Çörək qırıntılarını səpən pərinin və Cəh-cəh vuran sarıbülbül pərilərinin mövzuları, qalop rəqsi ritmində Violant (Ehtiras) pərisinin və Siren pərisinin həzin valsı.

**Birinci pərdə**. Avroranın həddi-buluğa çatmasının şərəfinə düzənlənmiş şənlik. Parlaq bayramsayağı vals səslənir.

***Birinci pərdə. Vals:***
[https://www.youtube.com/watch?v=zg5lc1zPxgg](https://www.youtube.com/watch?v=zg5lc1zPxgg)




*Pas d`action* süitasında səslənən Adagio şahzadə-adaxlıların Avroranın gözəlliyinə heyran olduqlarını göstərir.

***Birinci pərdə. Pas d`action. Adagio:***
[https://www.youtube.com/watch?v=T2tDr0SS8rE](https://www.youtube.com/watch?v=T2tDr0SS8rE)



**İkinci pərdə**. Şahzadə Dezire və onun məiyyəti (şəxsi müşayiətçiləri) ilə meşədə ova çıxırlar. Siren pərisi sehrli çubuğu ilə Gözəl Avroranın görüntüsünü yaradır. Şahzadə pəridən xahiş edir ki, qəsrə gedən yolu ona göstərsin.

Avrora və Dezirenin səhnəsi – baletin üçüncü lirik mərkəzidir. Geniş ahəngli melodiya ilk olaraq solo violoncelin ifasında səslənir.

***İkinci pərdə. Pas d΄action. Avrora və Dezirenin səhnəsi:***

https://www.youtube.com/watch?v=2ebO2XQSuCI




Şahzadənin öpüşü Avroranı oyandırır. Bu pərdə nikbin finalla bitir.

**Üçüncü pərdə.** Ləl-cəvahirat pəriləri (Qızıl, Gümüş, Sapfir və Brilliant) bəy və gəlini təbrikə gəliblər. Qonaqlar arasında nağıl personajları da – Zoluşka və şahzadə Fortuna, Qırmızı papaq və Canavar (Красная шапочка), Barmaq oğlan (Мальчик-с-пальчик), onun qardaşları və Adamyeyən (Людоед) iştirak edirlər.

Süita *Pas de deux* – Avrora və Dezirenin Çıxışı və Adagiosu baletin lirik kulminasiyası sayılır.

***Üçüncü pərdə.Pas de deux. Avrora və Dezirenin Çıxışı:***

https://www.youtube.com/watch?v=7e1cw_0_k3Y




***Avrora və Dezirenin Adagiosu:***

https://www.youtube.com/watch?v=jOdNUCqfFJk



Baletin son səhnəsi – Apofeoz təntənəli, bayramsayağı xarakterlə bitir. Xeyir, sevinc, aydınlıq himnidir.

**“Şelkunçik”.** P.Çaykovski Üçüncü baletinin süjet seçimini E.Qofmanın “Şelkunçik və siçanların kralı” nağılı üzərində qərarlaşır.

Baletin premyerası 1892-ci ildə baş tutur.

Balet iki pərdədən ibarətdir.

**Birinci pərdə**. Hadisələr Yeni il gecəsi cərəyan edir. Tibb müşaviri Ştalbaumun evində Yeni il şənliyi. Uşaqlar səbirsizliklə Yeni il hədiyyələrini gözləyirlər. Qonaqların yürüşünü uşaqcasına coşqunluğu ilə dolu uşaqların marşı müşayiət edir.

***Marş:***

https://www.youtube.com/watch?v=MK8n9zSjD0U




Marinin xaç atası Drosselmeyer fokus göstərir, sonra isə fındıqları qıra bilən biçimsiz Şelkunçik oyuncağından söhbət açır. Şelkunçik həmin dəqiqə qızın diqqətini cəlb edir, lakin Marinin qardaşı Frans oyuncağı qırır. Mari sınmış oyuncağını yerdən qaldıraraq ona təsəlli verməyə çalışır.

Qonaqlar dağılışır. Marinin gözləri önündə sanki otaq öz şəklini dəyişir. Orkestrdə eşidilən əzəmətli musiqi sədaları ətrafda baş verən hadisələri canlandırır: şam ağacı nəhəng ölçülərə çatır, Şelkunçik və başqa oyuncaqlar canlanır. Siçanların kralı öz ordusu ilə peyda olur. Şücaətli Şelkunçik qalaydan düzəldilmiş əsgərlərlə döyüşür (döyüş səhnəsi).

***Üçüncü şəkil. Səhnə № 7 (döyüş səhnəsi):***

https://www.youtube.com/watch?v=7ihHHY_XZy0



Mari Şelkunçikin köməyinə yetişərək Siçanlar kralını öz çəkməsi ilə vurur. Düşmən məğlub olur. Hər kəs qaçır. Şelkunçik gözəl şahzadəyə çevrilir.

Baletin parlaq səhnələrindən biri “Qar dənəciklərinin valsı”dır. Musiqi havada dövrə vuran qar dənəciklərini təsvir edir və eyni zamanda Marinin sehrli yuxusunun təlatümlü əhval-ruhiyyəsini göstərir.

***Qar dənəciklərinin valsı:***

https://www.youtube.com/watch?v=DOPyCWTM5-w




Valsın orta hissəsində səhnə arxasında sanki gecənin qaranlığını aydınlaşdıran uşaq xoru səslənir.

***Uşaq xoru:***

https://www.youtube.com/watch?v=DOPyCWTM5-w *(səslənmənin əvvəli – 2:02)*




**İkinci pərdə.** Konfityurenburq (“Şirniyyatlar şəhəri”) adlandırılır. Mari və Şahzadə (Şelkunçik) sehr dolu şəhərə düşürlər. Güllərlə bəzənmiş rəqqas və rəqqasələr onlara gül çələngi təqdim edirlər. Təntənəli, bayramsayağı “Güllərin valsı” – bəstəkarın balet musiqisinin ən gözəl səhifələrindəndir.

***Güllərin valsı:***

https://www.youtube.com/watch?v=9a4DnEWXMHM




Gözəl Draje pərisi Sehrli ölkənin sahibidir. P.Çaykovski bu obrazın ecazkarlığını, gözəlliyini göstərmək üçün orkestrə çelesta adlı yeni bir alət əlavə edir. Fransadan xüsusilə gətirilmiş çelesta aləti əlvan şirnilərin parıltısını və rəng çalarlarını daha aydın təsvir edir.

***Draje pərisinin rəqsi:***
[https://www.youtube.com/watch?v=h0s_tLZ3DMk](https://www.youtube.com/watch?v=h0s_tLZ3DMk)




Parlaq divertisment başlayır. Bir-birinin ardınca müxtəlif tərzdə, əlvan rəngli rəqslər səslənir: İspan rəqsi ("Şokolad"), Çin rəqsi ("Çay"), Ərəb rəqsi ("Kofe"), Rus rəqsi ("Trepak", karamel qamışı), Daniya rəqsi ("Çobanların rəqsi", marsipan ) və s.

***İspan rəqsi – "Şokolad":***
[https://www.youtube.com/watch?v=7yn3lYUVwyA](https://www.youtube.com/watch?v=7yn3lYUVwyA)




***Ərəb rəqsi – "Kofe":***
[https://www.youtube.com/watch?v=xhuxgwuBbZ0](https://www.youtube.com/watch?v=xhuxgwuBbZ0)



***Çin rəqsi – "Çay":***
[*https://www.youtube.com/watch?v=mlz9W3nYgNY*](https://www.youtube.com/watch?v=mlz9W3nYgNY)






Sehrbazın ovsunundan azad olmuş Şelkunçik və Mari Sehrli şəhərə düşürlər.

Lakin biz yenidən öz otağında əlində Şelkunçik oyuncağı ilə yatmış Marini görürük. Mari oyanır. Heyif ki, bu bir yuxu imiş.

Məşhur balet bir əsrdən çoxdur ki, insanlara bayram sevinci və möcüzə dolu aləmə inam bəxş edir.

P.Çaykovski balet janrını simfonizm xüsusiyyətləri ilə zənginləşdirmişdir. Bəstəkar yeni lakonik formalı romantik balet yaratmışdır. Onun balet janrındakı uğurları opera və simfoniya yaradıcılığındakı nailiyyətləri ilə sıx bağlı idi. Balet pərdələrinin fasiləsiz birləşməsi balet janrının simfonikləşdirilməsinə səbəb olmuşdur. Səhnədə baş verənlərin orkestrdə səslənən musiqi ilə üzvi birləşməsi bəstəkarın baletlərinin uğuruna səbəb olmuşdur.

*Suallar və tapşırıqlar:*

1. Çaykovskinin balet nümunələrindən öncə balet janrı musiqi-səhnə janrı kimi hansı formada idi?
2. Çaykovskinin baletlərinin novatorluğu nədən ibarətdir?
3. Çaykovskinin baletlərinin adlarını söyləyin.
4. Çaykovskinin baletlərində hansı rəqs dramaturji əhəmiyyət kəsb edir?
5. Çaykovskinin baletlərinin əsas qəhrəmanlarını sadalayın.

*9-cu dərs.* **XIX əsrin sonu – XX əsrin əvvəllərində rus musiqi mədəniyyəti.**

XIX – XX əsrlər arasında Rusiyanın ictimai-siyasi həyatında böyük dəyişikliklər baş verirdi və bu proseslər əlbəttə ki, rus musiqi mədəniyyətinə təsirsiz ötüşə bilməzdi. Yeni dövr rus musiqisində yeni əsərlərin, yeni məzmunların, formaların, janrların və ifadə vasitələrinin yaranmasını tələb edirdi.

Bu dövrün səciyyəvi xüsusiyyətlərindən biri odur ki, bəstəkarlar həcmcə kiçik (kamera) opera janrına üstünlük verirlər və ilk olaraq P.Çaykovski bu janra müraciət edərək biraktlı "İolanta" operasını yazır. Bu operalar arasında S.Raxmaninovun "Françeska da Rimini" opera-kantatası (D.Aligyerinin əsəri əsasında), "Xəsis cəngavər" (A.Puşkinin faciəsi əsasında) və N.Rimski-Korsakovun biraktlı "Ölməz Kaşey" opera-nağılı yaranmışdır.

Əsasən S.Raxmaninovun sayəsində rus musiqisində fortepiano konserti janrına maraq artır. Həmin ərəfələrdə onun üç konserti, o cümlədən A.Skryabinin və S.Prokofyevin fortepiano konsertləri yazılmışdır.

Getdikçə kamera-vokal və kamera-instrumental silsilələrinə maraq daha da artır. Bununla əlaqədar, H.Hötenin sözlərinə bəstələnmiş N.Metnerin “Nağıllar” vokal silsiləsi, həmçinin A.Skryabinin və S.Raxmaninovun “24 prelüd” fortepiano silsiləsinin adlarını çəkmək olar.

Eyni zamanda rus ifaçılıq məktəbi də xüsusi əhəmiyyət daşıyırdı. Bu illər pianoçular – A.Skryabin, S.Raxmaninov, N.Metner, S.Prokofyev, vokal ifaçıları – F.Şalyapin və A.Nejdanova, balerinalar – M.Kşesinskaya, A.Pavlova, T.Karsavina kimi sənətkarların ifaçılıq sənətinin çiçəklənmə dövrü olmuşdur. Onlar rus ifaçılıq mədəniyyətini xarici ölkələrdə məşhurlaşdırmışdırlar.

Rus musiqisinə dəyər verən musiqisevərlər, mesenatlar M.Belyayev, S.Mamontov və S.Dyagilevin musiqi mədəniyyətinin inkişafına çox böyük təsiri olmuşdur.

“Belyayev dərnəyi” ölkənin musiqi həyatında böyük əhəmiyyət daşıyırdı (Peterburq, 80-ci illər). Meşə sənayeçisi, musiqi naşiri və mesenat Mitrofan Belyayev müxtəlif müsabiqələr, “Rus simfonik konsertləri”, “Rus kamera gecələri” təşkil edir, not nəşriyyatı yaradır. Onun bütün fəaliyyəti dinləyicilərin rus bəstəkarlarının əsərləri ilə tanışlığına yönəldilmişdir. Dərnəyin ideya rəhbəri N.Rimski-Korsakov idi. Belyayevin adı rus təsviri incəsənətinin kolleksiyaçısı, Tretyakov rəsm qalereyasının təsisçisi Pavel Tretyakovun adı ilə bir sırada durur.

Mamontovlar tacir sülaləsinin nümayəndəsi, mesenat Savva Mamontov rus operasını təbliğ edirdi. O, “Çastnaya opera”nı yaratmışdır. Bu səhnədə N.Rimski-Korsakovun “Qar qız”, “Pskovlu qız” (baş rolda məşhur opera müğənnisi F.Şalyapin), “Sadko” və A.Darqomıjskinin “Su pərisi” operaları səhnələşdirilmişdir. Həmin teatra o vaxtın görkəmli sənətkarları – V.Polenov, V. və A.Vasnetsov qardaşları, V.Serov və M.Vrubel dəvət olunmuşdular.

Opera sənəti XIX əsrin aparıcı janrlarından biri olsa da, XX əsrin əvvəlində balet janrı önə keçərək öz inkişaf yolunu müəyyən etmişdir. Rusiyada bu janrın inkişafı görkəmli antreprenyor[6] S.Dyagilevin adı ilə bağlıdır. Məhz S.Dyagilevin sayəsində müasir rus baleti janrı yaranmışdır. Balet dəbdəbəli, göstərişli saray tamaşasından fəlsəfi dram və şarj (karikaturanın növü) xüsusiyyətləri daşıyan musiqi janrına çevrilmişdir. Paris və London şəhərlərində keçirilən əfsanəvi “Rus sezonları” (1907 – 1914) S.Dyagilevin fəaliyyətinin ən yüksək zirvəsi olmuşdur. N.Çerepnin, İ.Stravinski, S.Prokofyev S.Dyagilevin balet truppası üçün 70-dən çox balet yazmışdılar. S.Dyagilevin yaratdığı dərnək əsasında “Sənət dünyası” yaradıcılıq biriliyi yaranmışdır. Bu birliyin ideya müəllifi rəssam A.Benua olmuşdur.

Simfoniya janrı da əhəmiyyətli janr olmağa davam edirdi. A.Skryabinin, S.Raxmaninovun, N.Myaskovskinin, S.Prokofyevin simfonik əsərləri çox məşhur idi.

Beləliklə, XX əsrin əvvəlində müxtəlif nəsil bəstəkarlar yazıb yaratmışlar: N.Rimski-Korsakov və M.Balakirev yaradıcılıqlarını bitirirlər, A.Qlazunov, A.Lyadov, S.Taneev öz yaradıcılıq fəaliyyətlərini davam edirlər, A.Skryabin, S.Raxmaninov, və N.Metner yaradıcılıqlarının kamillik dövrünə çatırlar. Həmçinin yeni adlar yaranır – İ.Stravinski, S.Prokofyev, N.Myaskovski.

Artıq XIX əsrin sonlarından rus bəstəkarlarının yaradıcılığı bütün dünyada geniş təsdiqini tapmışdır.

[6] Antreprenyor – özəl teatr sahibi. İngiltərədə – menecer, İtaliyada – impresario, ABŞ – prodüsser kimi adlanırlar.

**A.Qlazunov. “Raymonda” baleti**
**Romaneska:**
https://www.youtube.com/watch?v=-Zfctmv7Suk *(səslənmənin başlanğıcı – 0:48)*




**İkinci şəkil. Antrakt:**
https://www.youtube.com/watch?v=dAST1IPq7hE




**A.Lyadov. Simfonik lövhə “Kikimora”.**
**Giriş:**
https://www.youtube.com/watch?v=gFW3X03JLiM



***N.Myaskovski. Beşinci simfoniya. I hissə, əsas mövzu:***
https://www.youtube.com/watch?v=gUfLrT18Xyg




***R.Qlier. "Qırmızı Lalə" ("Qırmızı gül"). Tao-Xoanın mövzusu:***
https://www.youtube.com/watch?v=DkTm5OVKyKc




*Suallar və tapşırıqlar:*

1. XIX – XX əsrlərdə hansı bəstəkarlar yaşayıb yaratmışlar?
2. XX əsrin aparıcı teatr janrının adını çəkin.
3. Rus musiqisinin inkişafına böyük töhfə vermiş mesenatların adlarını çəkin.
4. M.Belyayevin fəaliyyəti haqqında danışmaq.
5. Moskvadakı "Çastnaya opera"sını kim təşkil etmişdir?
6. S.Dyagilevin fəaliyyətinin ən yüksək nailiyyəti nə olmuşdur?
7. XX əsrin əvvəlində öz yaradıcılıq fəaliyyətlərinə başlamış bəstəkarların adlarını çəkin.

*10- cu dərs.* **Aleksandr Nikolayeviç Skryabin (1872 – 1915). Həyat və yaradıcılığı.**

Aleksandr Nikolayeviç Skryabin XIX əsrin sonu – XX əsrin əvvəllərinin dahi bəstəkarlarından və pianoçularından biri olmuşdur.

Bəstəkarın müasirləri onun haqqında belə yazırdılar: "Skryabin rus bəstəkarlarının arasında ən cəsarətlisidir, musiqi sənətində inqilab etmiş bəstəkar-filosofdur".

"Gəlirəm insanlara deyim ki, onlar güclü və qüdrətlidirlər" – bəstəkarın bu sözləri onun sənətin gücünə inamına dəlalət edir və ümüd edir ki, incəsənət bəşəriyyətin mənəvi paklanmasına təsir edəcək.

A.Skryabin 1872-ci il yanvarın 6-da Moskva şəhərində, diplomat ailəsində anadan olmuşdur. Onun anası gözəl pianoçu idi. Musiqi istedadı Balaca Şurinkaya (ailədə Skryabini bu adla çağırırdılar) irsən anasından keçmişdir.

Kiçik yaşlarından valideyn himayəsindən məhrum olmuş (anası 22 yaşında vəfat etmiş, atası isə diplomatik işiylə əlaqədar uzun illər Türkiyədə səfərdə olmuşdur) Saşa bacısı, nənəsi və

atasının bibisi ilə yaşayır. Saşa çox şıltaq uşaq idi və qeyri-adi musiqi sevgisiylə fərqlənirdi. O, rəsm çəkməyi, müxtəlif fiqurlar düzəltməyi xoşlayırdı, oxuduğu əsərləri səhnələşdirməyə və bu səhnələr üçün dekorasiyalar düzəltməyə çalışırdı.

1882-ci il Skryabinin həyatında mühüm dövrlərdən biri olmuşdur. O, Moskvanın İkinci kadet korpusuna daxil olur və paralel olaraq Moskvanın S.Taneev (nəzəriyyə) və N.Zverev (f-no) kimi ən yaxşı pedaqoqlarından musiqi dərsləri alır. N.Zverev onun istedadını elə o dəqiqə qiymətləndirir və A.Skryabinin pianoçu kimi formalaşmağında çox böyük rol oynayır.

Kadet korpusunu bitirdiktən sonra (1889) Skryabin Moskva konservatoriyasının bəstəkarlıq (A.Arenski və S.Taneyev) və fortepiano (V.Safonov) fakültələrinə daxil olur. O, konservatoriyanı Kiçik qızıl medalla[7] fortepiano ixtisası üzrə bitirir. Qeyd etmək lazımdır ki, A.Arenski və A.Skryabinin yaradıcılıq baxışları bir-biriylə uzlaşmırdı. A.Arenski gələcək dahi musiqiçinin yaradıcılıq fərdiliyini (dissonans səslənən harmoniyaların, səslənmədə "uçuş" effekti yaradan xüsusi fiqurasiyaların cürətli istifadəsi) duya bilməmişdir. Onların arasında yaranan gərginlik Skryabinin müəllimi Arenskinin sinfindən getməsi ilə nəticələnir.

Uşaqlıq illərindən A.Skryabin F.Şopenin yaradıcılığına böyük rəğbət bəsləyirdi. Bəstəkarlıq fəaliyyətinin birinci dönəmində gənc bəstəkar pərəstiş etdiyi F.Şopenin yolu ilə gedərək yalnız fortepiano əsərləri yazır: etüdlər, mazurkalar, prelüdlər, valslar, və noktürnlər, böyük həcmli əsərlərdən isə üçhissəli sonata və sonata-fantaziya.

Skryabin fortepiano üçün 10 sonata, 29 poema, 26 etüd, 90 prelüd, 21 mazurka ekspromtlar, valslar və digər əsərlər yazmışdır. Bundan başqa bəstəkar üç simfoniya, simfonik poemalar – "Ekstaz poeması", "Prometey" ("Alov poeması"), fortepiano və orkestr üçün Konsert bəstələmişdir.

1892-ci ildə konservatoriyadakı təhsilini bitirdikdən sonra A.Skryabin ölkə hüdudlarına çıxaraq pianoçu karyerasına qədəm qoyur. Tezliklə, onun istedadı yüksək qiymətə layiq görülür və Aleksandr Nikolayeviç öz vətəninə, Rusiyaya qayıtdıqdan sonra Moskva konservatoriyasının professoru vəzifəsinə təyin olunur.

Bəstəkarın həyatında əlamətdar hadisə onun tanınmış mesenat M.Belyayevlə tanışlığı olmuşdur. A.Skryabinin əsərləri nəşr olunmağa başlamışdır, onun simfonik əsərləri isə Rus simfonik sezonları proqramına daxil edilmişdir.

1900-cü ildə A.Skryabin simfoniya janrına müraciət edir. Artıq bəstəkar qarşısına qlobal fəlsəfi problemləri məsələsini qoyur.

Bəstəkarın incəsənəti kökündən dəyişimək gücünə böyük inamı Birinci simfoniyasında öz təcəssümünü tapmışdır (1900), onun ardından İkinci simfoniya (1901) və Üçüncü simfoniya (1904, "İlahi poema") yazılmışdır.

A.Skryabinin simfonik yaradıcılığının zirvəsi "Ekstaz poeması"(1907) və "Prometey" poeması ("Alov poeması") (1910) olmuşdur.

"Prometey" poeması dünya musiqi mədəniyyətinin qeyri-adi əsərlərindən biridir. Bu əsər simfonik orkestr, fortepiano, xor və işıq partiyası üçün yazılmışdır. Partituraya, mövcud olmayan alət üçün nəzərdə tutulmuş, yeni "*Luce*" (işıq) misrası əlavə olunmuşdur. Konsert zalı göy və qırmızı rənglərin şöləsinə qərq olmalı idi.

[7] İki fakültəni bitirmiş tələbələrə Böyük qızıl medal verilirdi.

***"Prometey" poemasından mövzu***
***(simfonik orkestr, fortepiano, xor və işıq partiyası üçün):***
[https://www.youtube.com/watch?v=OKLqYuRgKss](https://www.youtube.com/watch?v=OKLqYuRgKss)




Görkəmli bəstəkar həyatının son dönəmində möhtəşəm fikrin reallaşmasını arzu edirdi. O, elə bir əsər yaratmaq istəyirdi ki, orada müxtəlif incəsənət növlərinin sintezi yaransın: musiqi, poeziya, rəqs, işıq, rəssamlıq, və teatr tamaşası. A.Skraybin xəyal edirdi ki, "Misteriyalar" əsərində bütün bəşəriyyət iştirak etsin. Lakin bu fikrin reallaşması mümkün olmadı.

1915-ci ildə bəstəkar sürətlə irəliləyən qanın zəhərlənməsindən vəfat edir.

***Fortepiano üçün Prelüd e moll***
***(op.11, 4 №-li):***
[https://www.youtube.com/watch?v=FZwy_WvyNcM](https://www.youtube.com/watch?v=FZwy_WvyNcM)




***Fortepiano üçün Prelüd D dur (5 №-li):***
[https://www.youtube.com/watch?v=INsqSrDYrdQ](https://www.youtube.com/watch?v=INsqSrDYrdQ)



***Fortepiano üçün Etüd dis moll (12 №-li "İnqilabi"):***
[https://www.youtube.com/watch?v=7ClDFmFmr0k](https://www.youtube.com/watch?v=7ClDFmFmr0k)




*Suallar və tapşırıqlar:*

1. Bəstəkarın hansı sözlərini onun kredosu kimi hesab etmək olar?
2. Skryabin özünün ilkin əsərlərində hansı bəstəkarın yolunu davam etdirirdi?
3. Bəstəkarın yaradıcılığında mühüm rol oynamış rus mesenatının adını çəkin.
4. Bəstəkarın proqramlı simfonik əsərlərini sadalayın.
5. 3-cü simfoniya necə adlanır?
6. Bəstəkarın simfonik əsərlərində hansı fikirlər öz əksini tapmışdır?

*11- ci dərs*. **Sergey Vasilyeviç Raxmaninov (1873 – 1943). Həyat və yaradıcılığı.**

Raxmaninov və onun müasiri Skryabin kimi, bir-birinə iki zidd təbiətli insanı təsəvvür etmək çox çətindir. İkisi də möhtəşəm bəstəkar və pianoçulardır, Moskva konservatoriyasında eyni professorlardan dərs almışlar, lakin onların yaradıcılıq baxışları tamamilə bir-birinə əksdir.

S.Raxmaninovun adı dünya musiqi tarixində ən məşhur muisiqiçi adları sırasında çəkilir. Musiqi yaradıcılığının hər bir sahəsində (bəstəkarlıq, dirijorluq, ifaçılıq) Raxmaninovun istedadı eyni dərəcədə özünü göstərmişdir. S.Raxmaninov özünəməxsus bəstəkarlıq üslubunu yaradır. Burada Rusiya mövzusu, Vətənə sonsuz məhəbbət və həsrət dolu hisslər dominantlıq təşkil edir.

S.Raxmaninov 1873-cü il aprelin 1-də Novqorod quberniyasının Oneq malikanəsində zadəgan ailəsində doğulmuşdur. Novqorod şəhərinin qədim tarixi, məşhur zəng səsləri, musiqi folkloru, rus təbiətinin gözəlliyi bəstəkarın musiqi təfəkkürünün formalaşmasına gərəkli zəmin yaratmışdır.

Anası ona fortepiano alətində ifa etməyi öyrətmişdir. 8 yaşında Seryoja Peterburq konservatoriyasının kiçik bölməsinə daxil olur. Yaxın qohumunun (tanınmış pianoçu A.Ziloti) məsləhəti ilə Seryojanı Moskva konservatoriyasına keçirirlər. Burada ona forptepianodan N.Zverev (A.Rubinşteynin və F.Listin sevimli şagirdi), polifoniyadan – S.Taneev, nəzəriyyə və bəstəkarlıqdan – K.Arenski dərs demişdilər.

İki fakültəni də (fortepiano və kompozisiya) əla qiymətlərlə bitirən S.Raxmaninov Böyük qızıl medala layiq görülmüşdür. Bəstəkarın diplom işi biraktlı "Aleko" (A.Puşkinin "Qaraçılar" əsəri əsasında yazılmışdır, 1892) operası olmuşdur. Onun işi "üç üstəgəlli" 5 qiyməti ilə qiymətləndirilmişdir.

Bu ərəfələrdə bəstəkar böyük həcmli əsərlər yazır: Elegik trio "Dahi sənətkarın xatirəsinə" (P.İ.Çaykovskinin xatirəsinə) və Birinci simfoniya.

Birinci simfoniyanın müvəffəqiyyətsizliyi (1897) S.Raxmaninovun depressiyaya düşməsinə səbəb olur (3 il bəstəkar heç nə bəstələmir). Elə həmin illərə Mamontovun “Çastnaya opera”sında bəstəkarın professional dirijorluq fəaliyyətinin başlanğıcı aiddir.

Bəstəkar yaradıcılıq böhranına 1900-cü ildə qalib gəlir. Raxmaninov İkinci fortepiano konsertini, fortepiano üçün İkinci süita, “Yaz” kantatası, romanslar və prelüdlər, iki opera – “Xəsis cəngavər” (A.Puşkinin “kiçik faciə”əsəri əsasında) və “Françeska da Rimini” (Dantenin “İlahi poema”sı əsasında) yaradır.

S.Raxmaninovun yaradıcılığının əsas hissəsi onun fortepiano əsərləri olmuşdur. Fortepiano əsərlərinin xüsusiyyətlərindən biri onların konsert, virtuoz xarakterli olmasıdır. Fortepiano üçün bəstəkar konsert, variasiyalar, sonatalar, prelüdlər, etüd-şəkillər, musiqili anlar yazmışdır.

“24 prelüd” silsiləsindəki pyeslər bütün major və minor tonallıqlarında yazılmışdır. Bu pyeslər müxtəlif xarakterlidir. Burada dramatik, epik, məişət təsvirli, romantik lirika, təbiət obrazları mövcuddur.

Bəstəkarın yaradıcılığında mühüm yerlərdən birini onun ilk prelüdlərindən – do-diyez minor prelüdü (1892) tutur. Bu əsərdə demək olar ki, S.Raxmaninovun musiqi əsərlərinə xas olan bütün obrazlar göstərilir. Xaricdə bu prelüd “Moskva zəngləri” adlandırılmışdır.

Ümumiyyətlə, rus bəstəkarları tez-tez zəng mövzusuna müraciət edirdilər, əsasən də S.Raxmaninovun yaradıcılığında bu mövzu daha parlaq şəkildə öz əksini tapır. Zəng səsi bəstəkarın İkinci fortepiano konsertində, Üçüncü simfoniyasında, həmçinin “Zənglər” simfonik poemasında eşidilir.

***Fortepiano üçün Prelüd cis moll (1 №-li):***
[https://www.youtube.com/watch?v=W26jn95PzL0](https://www.youtube.com/watch?v=W26jn95PzL0)




“Etüd-şəkillər” – bu həqiqətən də “etüd” yox, “şəkillər”di. 17 pyesdən ibarət iki dəftər dəniz mənzərəsini (op.39, № 2), sərt çovqun (op.33, № 3), yarmarka səhnələri (op.33, № 4) və başqa şəkilləri təsvir edir.

***Fortepiano üçün Etüd-şəkil a moll***
***(op.39 № 2):***
*[https://www.youtube.com/watch?v=-K0U1VxdK1c](https://www.youtube.com/watch?v=-K0U1VxdK1c)*




***Fortepiano üçün Etüd-şəkil d moll:***
***(op.33 № 4):***
*[https://www.youtube.com/watch?v=HgeMC1GfNQo](https://www.youtube.com/watch?v=HgeMC1GfNQo)*




İki fəsil Bolşoy teatrda dirijor vəzifəsində çalışdıqdan sonra S.Raxmaninov İtaliyaya, sonra isə Almaniyaya gedir. Burada o, “Ölülər adası” və “Zənglər” simfonik poemalarını, Üçüncü fortepiano konsertini, İkinci simfoniyasını, A.Puşkinin, F.Tütçevin, A.Fetin sözlərinə vokal silsilələrini və s. əsərlər yazır.

1917-ci ildə S.Raxmaninov Rusiyada sonuncu konsertlərini verir. Avropaya qastrol səfərlərinə getdikdən sonra bəstəkar artıq vətənə qayıtmır (1917-ci ilin inqilab hadisələrini qəbul etmir).

Tezliklə S.Raxmaninov ailəsi ilə birlikdə Amerikaya köçürlər. Vətəndən uzaqda qalan bəstəkar 8 il ərzində bəstələmir. 1926-cı ildə o, 4-cü fortepiano konsertini (N.Metnerə həsr olunmuşdur) yazır, bir neçə vaxtdan sonra “Simfonik orkestr üçün üç rus mahnısı” (Amerikalı dirijor L.Stokovskinin xatirəsinə) və “Paqanininin mövzusuna rapsodiya” bəstələyir.

Klerforten malikanəsində bəstəkarın sonuncu həcmli əsəri yaranır. Bu “Korellinin mövzusuna variasiyalar” və orkestr üçün yazılmış sonuncu əsər – Filadelfiya simfonik orkestrinə həsr olunmuş “Simfonik rəqslər”di.

***“Simfonik rəqslər”. Birinci hissə*:**

https://www.youtube.com/watch?v=jovdlh5hmKE *(səslənmənin başlanğıcı – 4:28)*




S.Raxmaninov Böyük Vətən müharibəsi illərində konsertlərindən aldığı qonorarı Sovet ordusuna bəxşiş verirdi. Onun timsalında N.Ziloti və digər rus bəstəkarları bu adət-ənənəni davam etdirmişdilər.

Bəstəkar etiraf edirdi: “Rus camaatı olmadan yaşaya bilmirəm”. O, həyatının sonuna kimi Vətən həsrəti ilə yaşamışdır.

S.V.Raxmaninov 1943-cü il martın 28-də Kaliforniyada vəfat edir.

*Suallar və tapşırıqlar:*

1. Raxmaninov hansı ixtisaslar üzrə konservatoriyanı bitirmişdir?
2. S.Raxmaninovun diplom işi necə adlanır?
3. Bəstəkarın hansı əsəri onun yaradıcılıq böhranına səbəb olmuşdur?
4. Bəstəkar hansı səbəbdən Rusiyanı birdəfəlik tərk edir?
5. “Dahi sənətkarın xatirəsinə” elegik trio hansı hadisə təəsüratı altında yazılmışdır?
6. Bəstəkarın xaricdə olduğu dövrdə yazdığı əsərlərinin adlarını söyləyin.
7. S.Raxmaninov öz yaradıcılığında hansı mövzu və obrazlara müraciət etmişdir?

*12- ci dərs.* **İqor Fyodoroviç Stravinski. Həyat və yaradıcılığı (1882 – 1971). “Petruşka” baleti.**

İ.F.Stravinski XX əsr musiqi mədəniyyətinin görkəmli bəstəkarlarından biridir. Onu “1001 üslublu bəstəkar” və “musiqi dəbinin yaradıcısı” adlandırırdılar. Həqiqətən də o, əsərlərində

İ.Baxın, P.Çaykovskinin, A.Vebernin və başqa bəstəkarların qəbul olunmuş ənənələrinə müraciət etmişdir. İ.Stravinski XX əsrdə yaranmış yeni "neoklassisizm" cərəyanının yaradıcılarından biridir.

İ.Stravinski Oranienbaum (indiki Lomonosov) şəhərində məşhur opera ifaçısı Fyodor Stravinskinin ailəsində dünyaya göz açmışdır.

Uşaqlıq illərinin təəsüratlarından Seryojanın bibisinin yaşadığı kənddə (Ukraynada) keçirdiyi günləri qeyd etmək olar. Burada o, ilk dəfə olaraq kəndli xalq mahnılarını və səyahət edən kor müğənnilərin – kobzarların ifasını dinləyir. Onu hər bir səs maraqlandırırdı: zınqırov səsi, telefon səsi, meydanda bayram şənliyinə toplaşmış insanların səsi. Yarmarkada ifa olunan xalq rəqsləri onu cəlb edirdi. Bütün bu təəssüratlar gələcəkdə bəstəkarın zəngin yaradıcılığına siraət edir.

1900-cü ildə İ.Stravinski Peterburq universitetinin hüquq fakültəsinə daxil olur. Tələbəlik illərində İ.Stravinski, N.Rimski-Korsakovla tanış olur və ondan harmoniya və bəstəkarlıq fənlərinin sirlərini öyrənir. Stravinski "böyük müəllimi" N.Rimski-Korsakova "Orkestr üçün matəm mahnısı"nı və Birinci simfoniyasını həsr edir. Həmin ərəfələrdə "Atəşfəşanlıq" («Фейерверк») simfonik fantaziyası və böyük orkestr üçün Fantastik skerso yaranır.

1909-cu ildə İ.Stravinski S.Dyagilevlə əməkdaşlığa başlayır. Parisdə keçirilən "Dyagilev" sezonları üçün bəstəkar 3 balet yazır: "Simurq quşu" («Жар-птица»), "Petruşka", "Müqəddəs bahar" («Весна священная»).

"Qrand-opera" Paris teatrının səhnəsində ilk dəfə tamaşaya qoyulan "Simurq quşu" baleti (1910) bəstəkara dünya şöhrəti qazandırır. "Simurq quşu" (Simurq quşu və Ölməz Kaşey haqqında xalq nağılları motivləri əsasında yazılmışdır) baletində N.Rimski-Korsakovun və A.Lyadovun nağıl musiqisinin təsiri nəzərə çarpsa da, İ.Stravinskinin əsl yaradıcılıq fərdiliyi onun növbəti "Petruşka" baletində (1911) özünü biruzə verir.

Bəstəkarın novatorluğu onun "Müqəddəs bahar" baletində ("Bütpərəst ruhlu Rusiyanın təsviri", 1913) daha parlaq şəkildə öz əksini tapır. Lakin ilk tamaşa uğursuz alınır. Baletin musiqisi dinləyicilər üçün olduqca yeni idi. Xoreoqraf M.Fokinin balet quruluşu da yeni tərzdə idi, belə ki, o, klassik balet rəqsindən (Pa-de-de, variasiyalar, Adagio və s.) imtina edir. Bir il keçdikdən sonra bu balet mətbuatda tərif dolu rəylərlə işıqlandırılmışdır.

1914-cü ildə İ.Stravinski "Bülbül" («Соловей») operasını (H.Andersenin nağılı əsasında), "Pulçinella" baletini (italyan bəstəkarı D.Perqolezinin mövzularının istifadəsi ilə) bəstələyir.

Elə həmin ildə bəstəkar Rusiyanı tərk edir və öncə İsveçrədə qalır, sonra isə 1920-ci ildən Fransada məskunlaşır.

Bu illərdə Stravinski "Mavra" (A.Puşkinin "Kolomnada kiçik ev" əsəri əsasında, 1922) və "Çar Edip" (qədim yunan dramaturqu Sofoklun faciəsi əsasında, 1927) operalarını yazır.

İ.Stravinski Avropanı tərk edir və ABŞ-a köçür. Burada o, caz musiqisinin ənənələri və əsaslarını öyrənir. Caz orkestrinin sifarişi ilə (1945) o, "Caz-bend və klarnet üçün Eben [8] konserti" ("Qara konsert") yazır.

Yaradıcılığının son dövründə, 1954-cü ildən bəstəkar dodekafoniya yazı üslubundan istifadə edir. Burada 12 səsin ardıcıllığı istifadə olunur.

50 illik fasilədən sonra 1962-ci ildə Stravinski Rusiyaya səfər edir. Onun Moskva və Leninqradda keçirilən müəllif konsertləri musiqi ictimaiyyəti tərəfindən heyrətlə qarşılanmışdır.

---

[8]Eben (*ebony*) – bəzi tropik ağacların qara oduncağı, afrika mədəniyyətinə aid olma epiteti.

İ.Stravinskinin yaradıcılıq irsini 4 opera, 12 balet, kantatalar, simfoniyalar, konsertlər, xorlar və başqa əsərlər təşkil edir.

Bəstəkar 1971-ci il aprelin 6-da Nyu-Yorkda vəfat etmişdir.

**"Petruşka" baleti** (1911). https://www.youtube.com/watch?v=nvWYQZUhGSY

Teatr xadimi S.Dyagilev İ.F.Stravinskinin "küçə rəqqası" obrazını aydın təsvir edən, virtuozluğu ilə seçilən fortepiano pyesini dinləyərkən "Bu ki baletdir! Bu ki Petruşkadır!" ucadan səslənərək söyləyir və "Petruşka" baletinin yaranma ideyasının təməlini qoyur. Stravinski bu baleti "4 şəkilli məzəli səhnələr" adlandırır.

Bəstəkar baletin librettosunu tanınmış rəssam A.Benua ilə birlikdə yazmışdır. Baletin xoreoqrafı məşhur baletmeyster M.Fokin olmuşdur. Baletin premyerası Parisdə keçirilən Dyagilevin Rus balet sezonlarının ən parlaq hadisələrindən olmuşdur.

Bu baletdə sanki insanların həyatından götürülmüş əsl dram yaşanır. Tamaşanın əsas qəhrəmanları küçə tamaşasının kukla-personajlarıdır: Petruşka[9], Rəqqasə, Ərəb, Fokusçu.

Baletdəki bütün şəkillər bir-birini fasiləsiz əvəz edir.

Birinci və dördüncü şəkillər "Maslenitsı" adlanan xalq bayramının səhnələrini təsvir edir. Meydanda şarmankaçı, faytonçular, tacir, qusarlar, qaraçı qızlar (müxtəlif cingiltili əşyalarla bəzədilmiş qeyri-adi kostyumlu, maskalı insanlar) var.

İkinci və üçüncü şəkillər kuklaların həyat tərzlərini nümayiş etdirir. Kuklaların hər biri insana məxsus həyəcan və hisslərlə səciyyələnmişdir. Sehrbaz obrazı (teatrın sahibi) və etinasız bayram əhli Petruşka obrazına qarşı qoyulur. Balet faciə ilə bitir (Ərəb Petruşkanı öldürür).

Bəstəkar hər bir obrazı müxtəlif alətlərin tembrləri ilə xüsusiyyətləndirir. Məsələn, klarnet, truba, faqot (Petruşka), fleyta (Sehrbaz), çelesta, fortepiano, ksilofon və pissikato [10] -simlilər (səslənmənin "mexanikliyi", "kuklavariliyi" üçün).

Təbil səsi bütün şəkilləri bir-birinə calayır.

**Birinci şəkildə** Sehrbaz kuklalara can verir. Onlar dəcəlcəsinə cəld xarakterli "Rus" rəqsini oynayırlar.

***"Rus" («Русская») rəqsi:***

*https://www.youtube.com/watch?v=EszSXgodINI (səslənmənin başlanğıcı – 8:18)*




**İkinci şəkil** Petruşka obrazının daxili aləminin göstərilməsinə həsr olunub. Üç rəqs nömrəsi əsas qəhrəmanın əhval-ruhiyyəsini açıqlayır: ruh düşkünlüyü, fərəh hissi və xoşbəxtlik (Rəqqasə ilə olduğu səhnədə).

**Üçüncü şəkildə** yaraşıqsız Ərəbin və ruhsuz Rəqqasənin portretləri göstərilir. Onların vals-dueti karikatura üslubunda verilib. Melodiya istehza ilə doludur. Petruşka səhnədə yer alır. Rəqiblər arasında döyüş baş verir. Petruşkanın "lənət" leytmotivi səslənir.

---

[9] "Petruşka" – əlcək kuklasıdır (təlxək, baməzə). Rus xalq kukla teatrının personajı. O, qırmızı köynəyi, sivriuclu, qotazlı papağı və kətan şalvarı ilə təsvir olunur. Bu kuklanın oxşarı Polişinel (Fransa), Pulçinella (İtaliya), Panç (İngiltərə), Qaragöz (Türkiyə) obrazlarıdır.

[10] Pissikato – kamanlı alətlərdə kamanla deyil simlə çalmaq üsuludur.

***“Lənət” leytmotivi*:**
[*https://www.youtube.com/watch?v=XvXlFKvpoOg&list=RDXvXlFKvpoOg&start_radio=1&t=7*](https://www.youtube.com/watch?v=XvXlFKvpoOg&list=RDXvXlFKvpoOg&start_radio=1&t=7) *(səslənmənin başlanğıcı – 19:50 – 20:04)*




**Dördüncü şəkil** məişət xarakterli, rəqsvari süitadır. Bəstəkar bu süitada “Ay mənim samanlığım” («Ах вы сени мои сени»), “Piterski küçəsi ilə” («Вдоль по Питерской») rus xalq mahnılarının mövzularını istifadə edir.

***Rus xalq mahnısı – “Ay mənim samanlığım” («Ах вы сени мои сени»):***
[*https://www.youtube.com/watch?v=XvXlFKvpoOg&list=RDXvXlFKvpoOg&start_radio=1&t=7*](https://www.youtube.com/watch?v=XvXlFKvpoOg&list=RDXvXlFKvpoOg&start_radio=1&t=7) *(səslənmənin başlanğıcı – 23:15)*




***Rus xalq mahnısı – “Piterski küçəsi ilə” («Вдоль по Питерской»):***
[*https://www.youtube.com/watch?v=XvXlFKvpoOg&list=RDXvXlFKvpoOg&start_radio=1&t=7*](https://www.youtube.com/watch?v=XvXlFKvpoOg&list=RDXvXlFKvpoOg&start_radio=1&t=7) *(səslənmənin başlanğıcı – 21:53)*



Gözlənilmədən şənlik zamanı Petruşkanın dəhşətli qışqırıq səsi eşidilir (truba), qəzəblənmiş Ərəb Petruşkanın boynunu vurur.

Balet "Petruşkanın dirilməsi" ilə bitir. Müəllif özü belə yazırdı: "Petruşkanın ruhu hələ də üsyan edir".

Stravinski bu baleti yaradaraq cürətli novator kimi çıxış edir. O, rus klassik musiqi ənənələrini müasir musiqi sənəti ilə sintez etmişdir.

*Suallar və tapşırıqlar:*

1. İ.Stravinski kimi özünə "böyük müəllim" sayırdı? Hansı əsər onun xatirəsinə həsr olunmuşdur?
2. Bəstəkarın ilk baletlərinin yaranması hansı rus teatr xadiminin adı ilə bağlıdır?
3. Stravinski musiqidə hansı cərəyanın lideri olmuşdur?
4. Dodekafoniya nədir?
5. Stravinskini nəyə görə "1001 üslub"lu bəstəkar adı almışdır?
6. Stravinskinin baletləri və operalarının adlarını söyləyin.
7. Petruşka kimdir?
8. "Petruşka" baletinin librettosu kimə aiddir və bu baletin xoreoqrafı kim olmuşdur?
9. Stravinski Petruşkanın, Sehrbazın xarakterlərini səciyyələndirmək və səslənmənin "qeyri-adilik" effektini yaratmaq üçün hansı alətlərin tembr xüsusiyyətlərindən istifadə etmişdir?

*13- cü dərs.* **Sovet musiqisinin inkişaf mərhələləri. Kütləvi sovet mahnıları. Kino musiqisi.**

1917-ci ildə baş vermiş Oktyabr inqilabı Rusiyanın taleyini kökündən dəyişmiş oldu. Bu dəyişikliklər həyatın bütün sahələrinə təsir etmişdir: siyasət, sosial durum, iqtisadiyyat və mədəniyyət.

Yeni sovet sənətinin özünün müxtəlif inkişaf mərhələlərində necə inkişaf etdiyini araşdıraq.

***1917 – 1920-ci illər.*** Sovet hakimiyyətinin meydana gəlməsindən sonra bütün muzeylər, opera teatrları, not nəşriyyatları milliləşdirilir, yəni dövlətin nəzarətinə verilir. Tərbiyə və təhsilə böyük önəm verilməyə başlanır. Artıq sadə xalqın nümayəndələri də musiqi təhsili almaq və yaxud, müxtəlif dərnək və kollektivlərdə iştirak edə bilmək hüququnu qazana bilmişdilər. Opera teatrlarının, konsert salonlarının, muzeylərin, müxtəlif sərgilərin qapıları hər kəs üçün açıq idi.

Hər yandan musiqi sədaları eşidilirdi. Küçələrdə, meydanlarda, zavod və fabriklərdə nəfəs alətləri orkestrinin ifası, xor kollektivinin inqilabi mahnılarla çıxışı izlənilirdi. Sovet incəsənətinin əsas xüsusiyyəti onun kütləviliyidir. Kütləvi tamaşalar yayılmış teatr formalarının biri olmuşdur və Dmitri Şostakoviçin İkinci, Üçüncü simfoniyalarında, "Potyomkin zirehli gəmisi" adlı kinofilmində öz əksini tapır.

***1921 – 1939-cu illər.*** Vətəndaş müharibəsi bitdikdən sonra Sovet musiqi incəsənətində yeni dövr başlayır. Bu ərəfədə çox sayda yazılmış musiqi əsərlərindən yalnız bir neçəsi bədii əhəmiyyətə malik olur.

1927-ci il sovet balet və opera janrlarının inkişafında mühüm yer tutur. Tanınmış bəstəkar Reynhold Qliyer inqilabi mövzuya aid "Qırmızı Lalə" (yaxud "Qırmızı gül") adlı ilk sovet baleti və "Şahsənəm" azərbaycan operasını yaradır. Gələcək illərdə bir çox bəstəkarlar M.Qlierin qoyduğu ənənələri davam etdirmişdilər.

Bu dövrdə əhəmiyyətli yerlərdən birini D.Şostakoviçin, N.Myaskovskinin, V.Şebalinin simfonik əsərləri tutur. D.Şostakoviçin 5-ci simfoniyası 30-cu illərin sovet simfonizminin zirvəsi olmuşdur.

Sovet insanının arzuları, hiss və duyğuları, doğma vətənə olan vəfası yeni "mahnı" üslublu operalarda öz əksini tapmışdır. Məsələn, İ.Derjinskinin "Sakit Don", T.Xrennikovun "Fırtınaya doğru" kimi əsərləri bu qəbildəndir. Bu illərdə yaranmış D.Şostakoviçin "Msen qəzasından Ledi Makbet" (Leskovun əsəri əsasında, 1934) operası və S.Prokofyevin novatorluğu ilə seçilən "Romeo və Cülyetta" baleti xüsusi diqqətə layiqdir.

Sovet baletinin inkişafı öncəliklə xoreoqrafiya sənətinin inkişafı ilə bağlı olmuşdur. Bu janra R.Qlier ("Qırmızı Lalə"), S.Prokofyev ("Zoluşka"), A.Kreyn ("Laurensiya"), həmçinin tanınmış bəstəkar, eyni zamanda musiqişünas Boris Asafyev ("Parisin alovu" və "Baxçasaray fontanı") müraciət etmişdilər.

Yeni sənaye şəhərinin görünüşü, buradakı avtomobil, parovoz, fabrikdən gələn uğultu səsləri (bədii cərəyan – urbanizmə məxsusdur) A.Mosolovun "Zavod. Maşınların musiqisi" simfonik pyesində, D.Şostakoviçin "Bolt" və S.Prokofyevin "Poladın sıçraması" baletlərində öz əksini tapmışdır.

Rus tarixinin qəhrəmanlıq səhifələri kantata-oratoriya janrında öz əksini tapmışdır: S.Prokofyevin "Aleksandr Nevski" kantatası, Y.Şaporinin "Kulikov meydanında" simfoniya-kantatası.

Sovet musiqi mədəniyyəti çoxmillətlilik cəhəti ilə fərqlənir. Bəzi Sovet respublikalarında milli bəstəkarlıq məktəbləri inqilabdan qabaq yaradılmışdır: Üzeyir Hacıbəyov və Müslüm Maqomayev (Azərbaycan), Z.Paliaşvili və M.Balançivadze (Gürcüstan), N.Leontoviç, L.Revutski, B.Lyatoşinski, N.Lısenko (Ukrayna).

***1940 – 1950-ci illər.*** Böyük Vətən Müharibəsi illərində qəhrəmanlıq mövzusu demək olar ki, sovet musiqi incəsənətinin bütün janrlarında öz əksini tapmışdır. Müharibə illərində yazılmış S.Prokofyevin "Hərb və sülh" («Война и мир») operası (L.Tolstoyun romanı əsasında), Beşinci simfoniyası, D.Şostakoviçin Yeddinci və Səkkizinci simfoniyaları musiqi sənətinin incilərindəndir.

Sovet simfonik musiqisi bir növ ölkənin salnaməsinə çevrilmişdir.

Sovet bəstəkarları böyük həcmli əsərlərlə yanaşı uşaqlar üçün də xeyli musiqi əsərləri yazmışdılar. S.Prokofyevin "Çox danışan qız" («Болтунья») mahnısı, "Uşaq musiqisi" fortepiano silsiləsi, "Petya və canavar" («Петя и волк») simfonik nağılı kiçik musiqiçilər arasında populyarlıq qazanmışdır. Sovet bəstəkarı D.Kabalevski yalnız uşaq musiqisi yazmırdı, həmçinin kiçik nəslin nümayəndələri ilə musiqi haqqında çox maraqlı söhbətlər aparırdı ("30 uşaq pyesi", "Bizim diyar", "Məktəb illəri" mahnıları, gənc konsert üçlüyü).

Yeni nəsil sovet ifaçılarının adları meydana gəlir: violin ifaçıları – D.Oystrax, B.Qoldşteyn, Q.Barinova, violonçel ifaçıları – S.Knuşevitski, D.Şafran, balerinalar – Q.Ulanova, M.Plisetskaya.

***1950 – 1960-cı illər.*** Müharibə illərindən sonra kantata və oratoriya janrı inkişaf edir. D.Şostakoviçin "Meşələr haqqında mahnılar" («Песнь о лесах») və S.Prokofyevin "Dünyanın mühafizəsində" («На страже мира») oratoriyaları bu qəbildəndir. Bu janr əsasən Georgi Sviridovun yaradıcılığında öz həqiqi təşəkkülünü tapmışdır ("Sergey Yeseninin xatirəsinə ithaf poeması" və V.Mayakovskinin sözlərinə yazılmış "Patetik oratoriya").

Bu illərdə Qara Qarayevin “Yeddi gözəl” («Семь красавиц»), “İldırımlı yollarla” («Тропою грома»), Arif Məlikovun “Məhəbbət əfsanəsi” («Легенда о любви»), R.Şedrinin “Kiçik Donqarlı At” («Конёк-горбунок») və “Karmen-süita” baletləri sovet baletinə ümumittifaq, sonralar isə dünya şöhrəti qazandırmışdır.

D.Şostakoviçin “24 prelüd” fortepiano silsiləsi kamera musiqisinin nailiyyətlərinə aiddir.

***1960 – 1980-ci illər.*** 60-cı illərin əvvəllərində sovet musiqi mədəniyyətinə yeni bəstəkar nəsli axın edir: S.Qubaydulina, E.Denisov, S.Slonimski, A.Şnitke, Q.Kançeli. Bu dövrün musiqiçiləri sonorika, aleatorika, seriya kimi müasir bəstəkar yazı üsullarını dərindən mənimsəməklə sovet musiqisini yeni ifadə vasitələri ilə zənginləşdirmişdilər.

***Aleatorika*** – *“alea”* oyun sümüyü kimi tərcümə olunur, *“aleator”* – oyunçu, ifa zamanı və əsəri yazarkən təsadüfi ardıcıllıq.

***Sonorika*** – musiqi səsinin rəngarəngliyini vurğulayan klasterlərin tembr səslənməsidir.

***Seriya*** – dəyişilməz vəziyyətdə, müəyyən ardıcıllıqda yerləşən 12 təkrarlanmayan səs düzümüdür.

Bu illər ərzində folklora maraq bir qədər artır. “Yeni folklor dalğası”nın nümayəndələri Q.Sviridov, R.Şedrin, V.Qavrilin öz əsərlərində xalq musiqisinin professional şəkildə öyrənilməsinə başlayırlar. Q.Sviridovun “Kür mahnıları” («Курские песни») kantatası, R.Şedrinin orkestr üçün konserti “Məzəli bədiyələr” («Озорные частушки»), V.Qavrilinin “Rus dəftəri” («Русская тетрадь») vokal silsiləsi və s. əsərlər buna misaldır.

***Kütləvi sovet mahnısı.*** Mahnı janrı hər zaman demokratik xüsusiyyəti ilə seçilib və insan həyatında baş verən prosesləri özündə əks etdirir. Kütləvi mahnının mənşəyi rus kəndli, şəhər və əsgər mahnılarından, inqilab marşlarından götürülüb.

İnqilabdan sonrakı illərdə kütləvi mahnı geniş yayılır. Bu yeni janr özündə inqilabi, kəndli, əsgər mahnılarının, çastuşkaların (çastuşka – rus xalq mahnılarının növüdür), şəhər romansının xüsusiyyətlərini özündə birləşdirir.

Kütləvi mahnı janrı öz təşəkkülünü 30-cu illərdə İ.Dunayevskinin yaradıcılığında tapmışdır. Gənclik coşqunluğu ilə dolu “Şən uşaqların marşı” («Марш весёлых ребят») mahnı-marşı, “Şən Küləyin mahnısı” («Песня о весёлом ветре»), “Vətən haqqında mahnı” («Песня о Родине») və digər mahnılar bəstəkara geniş şöhrət qazandırır.

Sovet kənd həyatını tərənnüm edən lirik mahnılar arasında Vladimir Zaxarovun “Kənd boyu”, “Kim onu tanıyır” əsərləri böyük rəğbətlə qarşılanmışdır, o cümlədən, Matvey Blanterin “Katyuşa”, Nikita Boqoslovskinin “Sevimli şəhər rahat yata bilər” mahnıları sevilmişdir.

Böyük Vətən müharibəsi dövründə yaranmış Aleksandr Aleksandrovun “Müqəddəs müharibə” mahnısı ümumxalq sevgiyə layiq görülmüşdür. Müharibə illərinin mahnılarında lirik mövzu da öz əksini tapır. Buna misal olaraq, V.Solovyov-Sedovun “Bir axşam Reyddə” («Вечер на Рейде»), “İki döyüşçü” kinofilmindən N.Boqoslovskinin “Qaranlıq gecə” («Тёмная ночь») və bir çox başqa mahnıları da qeyd etmək olar.

50-ci illərdə nəğməkar bəstəkarlarların sıralarına yeni adlar daxil olur: Arkadi Ostrovski, A.Paxmutova, E.Kolmanovski, O.Feltsman, A.Petrov, V.Şainski.

Müharibədən sonrakı illərdə sülh uğrunda mübarizə əsas mövzulardan biri olmuşdur. A.Novikovun “Dünya gəncliyinin müstəqilliyi himni” («Гимн демократической молодёжи мира»), E.Kolmanovskinin “Ruslar müharibə istəyirlərmi”, («Хотят ли русские войны»), A.Ostrovskinin “Qoy həmişə günəş olsun” («Пусть всегда будет солнце») mahnıları yazılmışdır.

Vətənə aid bir çox mahnı bəstələnmişdir: V.Solovyov-Sedovun "Moskva ətrafı gecələr" («Подмосковные вечера»), M.Fradkinin "Volqa axır" («Течёт Волга»), D.Şostakoviçin "Vətən eşidir" («Родина слышит»).

50-ci illərin sonu – 60-cı illərin əvvəli A.Petrovun "Mən Moskva küçələri ilə addımlayıram" («Я шагаю по Москве») kinofilmindən, və A.Paxmutovanın "Təlaşlı gənclik haqqında" («О тревожной молодости») mahnıları çox böyük populyarlıq qazanmışdır.

Vətəndaşlıq, vətənpərvərlik mövzuları Yan Frenkelin "Durnalar", («Журавли»), V.Basnerin ("Qalxan və qılnc" kinofilmindən) "Adsız yüksəklikdə" («На безымянной высоте»), "Vətən nədən başlayır" («С чего начинается Родина»), E.Kolmanovskinin "Alyoşa" kimi lirik xarakterli mahnılarında öz əksini tapmışdır.

Bir çox mahnı məhz kinofilmlərdə səsləndikdən sonra məşhur olmuşdur.

**Kino musiqisi.** Sovet kino musiqisi maraqlı inkişaf yolu keçmişdir. 1931-ci ildə ilk səsli sovet kinosu (İ.Dunayevskinin musiqisinə "İşıqlı yol") yaranmışdır. Sovet kinofilmlərində qəhrəmanlar əsasən mahnı vasitəsilə xarakterizə edilirdilər. Kinofilmlər üçün yazılan bir çox mahnılar (İ.Dunayevskinin "Şən uşaqlar" («Весёлые ребята»), "Kapitan Qrantın uşaqları" («Дети капитана Гранта»), "Qapıçı" («Вратарь»), "Sirk", "Kuban kazakları") o dövrün nümunəvi mahnılarına çevrilmişdir.

D.Şostakoviçin "Tək" («Одна»), "Qarşıdan gələn" («Встречный») kinofilmlərinə yazdığı musiqi sadəcə illüstrasiya deyil, həm də inkişaf xəttinin əsas elementlərindən biridir.

S.Prokofyev də öz növbəsində "Aleksandr Nevski" kinofilminə musiqi yazarkən novator kimi çıxış edir. O, kino rejissoru S.Eyzenşteynlə birgə elə bir kinolent yaradırlar ki, orada musiqiyə böyük önəm verilir.

Gələcək illərdə (60 – 70-ci illər) R.Şedrin, N.Karetnikov, A.Şnitke, B.Çaykovski öz yaradıcılıqlarında səs və görüntü sistemi metodundan istifadə etmişdilər.

***A.Aleksandrov. "Müqəddəs müharibə" («Священная война») himni:***
https://www.youtube.com/watch?v=8Y4_2Qa0QQs




***N.Boqoslovski. "Qaranlıq gecə" («Тёмная ночь»)***
***("İki döyüşçü" («Два бойца») kinofilmindən):***
https://www.youtube.com/watch?v=1vRYwaJC5FY



***A.Petrov. “Mən Moskva küçələri ilə addımlayıram”***
***(«Я иду шагаю по Москве» eyniadlı kinofilmdən):***
*https://www.youtube.com/watch?v=bsLRYMM3ORs*




***V.Solovyov-Sedoy. “Moskva ətrafı axşamlar”(«Подмосковные вечера»)***
***«В дни спартакиады» kinofilmindən:***
*https://www.youtube.com/watch?v=9w9NPAWFGyI*




*Suallar və tapşırıqlar:*

1. 1917-ci il inqilabından sonra rus musiqi mədəniyyətində hansı dəyişikliklər baş vermişdir?
2. Sovet sənəti özündə hansı xüsusiyyəti daşıyırdı?
3. Müharibə illlərindən sonrakı dövrlərdə sovet mahnılarının əsas mövzularından biri nə olmuşdur?
4. 40-cı illərin daha çox məşhur olan lirik mahnılarının adlarını söyləyin.
5. Hansı bəstəkarlar “Qapıçı”, “Sirk”, “Qalxan və qılınc” kinofilmlərinə musiqi yazmışdılar?
6. Kütləvi mahnılar yazan bəstəkarları sadalayın.
7. Kinofilmlərdən olan mahnıların adlarını söyləyin.
8. Aleatorika, sonorika, seriya musiqisi nədir?

*14 – 15-ci dərslər.* **XX əsrin sonu – XXI əsrin əvvəllərində rus ifaçılıq sənəti**

Musiqi sənəti çox uzun və maraqlı yol qət etmişdir. Əvvəllər insanlar sadəcə musiqi yazırdılar, sonralar isə bu məşğuliyyət onların peşələrinə çevrilmişdir.

Bəs bu əsərləri kim ifa edirdi?

Bir vaxtlar bəstəkar və ifaçı arasında fərq qoymurdular. Bəstəkarlar yazdıqları əsərləri özləri ifa edirdilər. 18-ci əsrin sonlarında artıq bəstəkar və əsərin ifaçısı arasında bölünmə

yaranır. Lakin XIX – XX əsrlərdə hələ də öz əsərlərini ifa edən bəstəkarlar mövcud idi. Onların arasında F.Şopen, F.List, A.Rubinşteyn, S.Raxmaninov, S.Prokofyev, N.Paqanini və digər musiqiçilər var idi.

Musiqi yalnız onu ifa edəndə "canlanır". Hər bir gözəl əsər öz ifaçısını gözləyir. Eyni bir əsər ayrı-ayrı ifaçıların ifasında müxtəlif cür səslənə bilər. Hər ifaçı çaldığı əsəri özünəməxsus tərzdə dinləyiciyə təqdim edir.

Dünya ifaçılıq sənəti bir çox istedadlı, peşəkar musiqiçiləri önə çəkmişdir. XX əsrdə İ.Paderevski (Polşa), A.Rubinşteyn (ABŞ), A.Fişer (Macarıstan), A.Korto (Fransa), V.Qorovis (ABŞ), Q.Quld (Kanada), A.Mikelandjeli (İtaliya) və bir çox başqa parlaq pianoçular meydana gəlir.

XX əsrin əvvəli rus ifaçılıq məktəbinin çiçəklənmə dövrü olmuşdur.

Tamaşaçı kütləsi parlaq opera müğənnilərini (F.Şalyapini, Q.Piroqovu, L.Sobinovu, A.Nejdanovanı yorulmadan alqışlayaraq onların sənətlərinə sevgi və ehtiramlarını bildirirdilər. Həmin illər estrada musiqi sənətinin nümayəndələri violonçel ifaçısı A.Brandukov, violin ifaçıları L.Auer və İ.Qrjimali böyük rəğbət qazanmışdılar. S.Raxmaninov parlaq pianizm istedadı ilə dünya arenasına çıxmağa müvəffəq olmuşdur. Yaşlı nəslin musiqiçi nümayəndələri – F.Blumenfeld, A.Qoldenveyzer, K.İqumnov bu illərdə öz yaradıcılıq fəaliyyətlərini davam etdirirlər. Eyni zamanda cavan musiqiçilər də musiqi sahəsində bir çox iş görmüşlər: Onların arasında dirijorlar (A.Qauk, N.Qolovanov, S.Samosud), pianistlər (Q.Neyqauz, V.Sofronitski, M.Yudina), müğənnilər (İ.Kozlovski, S.Lemeşev, N.Obuxova, A.Piroqov) və digərləri var.

XX əsrin 30-cu illərində Sovet ifaçılıq sənəti formalaşır. Sovet pianoçuları və violin ifaçıları beynəlxalq müsabiqələrdə çox böyük uğur qazanmışdılar. Belə ki, L.Oborin 1927-ci ildə Varşava şəhərində F.Şopen adına müsabiqənin qalibi olmuşdur. O illər N.Anosov, E.Mravinski kimi dirijorlar, Y.Zak, Y.Flier kimi pianoçular, Q.Barinova, D.Oystrax kimi violin ifaçıları və violonçel ifaçısı S.Knuşevitski geniş şöhrət qazanmışdılar.

50-ci illərin ikinci yarısından Rus musiqi həyatı daha da inkişaf edərək xarici musiqi mədəniyyətinin görkəmli nümayəndələri ilə əlaqələri genişləndirir. Yeni musiqiçilər meydana gəlir: K.Kondraşin (dirijor), S.Rixter və E.Gilels (pianoçular).

60-cı illərdən başlayaraq konsert salonlarında yeni ifaçılar öz məharətlərini göstərirlər: pianoçular – V.Aşkenazi, V.Kraynev, M.Pletnev; violin ifaçıları – İ.Bezrodnıy, L.Koqan; violonçel ifaçıları – M.Rostropoviç, D.Şafran, N.Qutman; vokalistlər – İ.Arxipova, Q.Vişnevskaya. 60-cı illərin sonunda opera müğənnilərinin (V.Atlantova, Y.Nesterenko, Y.Obraztsova) yaradıcılıq fəaliyyəti başlayır.

Sovet İttifaqının öz caz məktəbi formalaşmışdır. Hələ 20-ci illərdə caz musiqisinin başlanğıcı V.Parnax, A.Sfasman, L.Utyosov və O.Lundstrem kimi musiqiçilərin adıyla bağlı idi. 60-cı illərdə sovet caz musiqiçiləri yalnız vətəndə çıxış edirdilər, lakin 70-ci illərin ortalarından başlayaraq onlar artıq dünya çapında məşhur olmuş və qəbul olunmuşlar. Caz musiqisinin ustadları, L.Çijik, İ.Bril, V.Mustafazadə kimi sənətkarlar dünya arenalarında öz sözlərini demişlər.

70 – 80-ci illərdə Y.Temirkanov, V.Gergiyev, Y.Svetlanova, Q.Rojdestvenski kimi dirijorlar məşhurlaşırlar.

80 – 90-cı illər A.Sultanov (fortepiano), M. Vengerov və S.Krılov (violin) kimi gənc musiqiçilər yaradıcılıqlarını inkişaf etdirirlər.

70-ci illərin sonu – 90-cı illərin əvvəli arasında bir çox musiqiçi xaricə köç etmişdir.

XX – XXI əsrlər rus ifaçılıq sənətinin bir çox parlaq nümayəndəsini meydana çıxartmışdır. Klassik musiqi ifaçıları tez-tez laureat adını qazanmağa müvəffəq olurlar. Onların arasında dünya opera ulduzları – A.Netrebko, L.Kazarnovskaya, D.Xvorostovski, İ.Abdrazakov, X.Gerzmava; dirijorlar – V.Gergiyev, T.Kurentzis, V.Spivakov, Y.Başmet; violonçel ifaçıları – A.Knyazev, S.Antonov; pianoçular – D.Matsuyev, Y.Kisin, D.Trifonov; violin ifaçıları – M.Vengerov, V.Tretyakov kimi musiqiçilərin adlarını çəkmək olar.

*https://www.youtube.com/watch?v=JTjPbkd_UlY*

*https://www.youtube.com/watch?v=-SwumVFUMBg*

*https://www.youtube.com/watch?v=IlcOcYqpny4*

*https://www.youtube.com/watch?v=91e6JyUGbP0*

*https://www.youtube.com/watch?v=1F0Qx9yo2sQ*

*https://www.youtube.com/watch?v=BGoiwojlc6M&list=RD0dRcH7O8mfQ&index=4*

*https://www.youtube.com/watch?v=2kxk2f_eKsU&list=RDEMGyz_b7vmy1zGKroMlKEnnA&start_radio=1*

*https://www.youtube.com/watch?v=ePTc9i-dkIw*

*Suallar və tapşırıqlar:*

1. Bəstəkar və ifaçı arasında nə zaman bölünmə baş verir?
2. XX əsrın tanınmış bəstəkarlarının adlarını çəkin.
3. XX əsrin tanınmış violin və violonçel ifaçılarının adlarını çəkin.
4. XX əsrin tanınmış dirijor və opera müğənnilərinin adlarını çəkin.
5. 1927-ci ildə Varşavada F.Şopen adına müsabiqədə birinci yerin sahibi kim olmuşdur?
6. Tanınmış sovet caz musiqiçilərinin adlarını çəkin.
7. XXI əsrin tanınmış ifaçılarının adlarını çəkin.

*16-cı dərs.* **Reynhold Moriseviç Qlier (1875 – 1956). Həyat və yaradıcılığı.**

Rus bəstəkarlıq məktəbinin sonuncu nümayəndələrindən biri kimi tanınan, yeni şərtlərlə səmərəli şəkildə işləyən Reynhold Qlier öz yaradıcılığında sovet musiqi sənətinin yeni prinsipləri və rus klassik musiqi ənənələrini peşəkarlıqla uyğunlaşdıra bilmişdir. Onun yaradıcılığında M.Qlinka və "Qüdrətli dəstə" bəstəkarlarının ənənələrinin təsirini görmək olar. Hər şeydən öncə Qlier sələflərindən həyata nikbin və ümidverici baxışlarla baxmağı öyrənmişdir. Bəstəkarın bu sözləri onun həyatsevər ruhundan xəbər verir: "Kədərli əhval ruhiyyəni musiqiyə yansıtmaq bir cinayətdir".

R.Qlier klassik musiqi mədəniyyəti tarixinə balet janrının həqiqi novatoru kimi daxil olmuşdur. 1927-ci ildə bəstəkar "Qırmızı Lalə" («Красный цветок») adlı ilk müasir mövzulu sovet baletini yazır. 1943-cü ildə isə səs və orkestr üçün Birinci konsertini (fa minor) bəstələyir.

Qlier 1875-ci il yanvarın 11-də, Kiyev şəhərində anadan olmuşdur. Onun valideynləri əslən kübar polyak nəslindən olan alman vətəndaşları Moris Qlier və Yuzefa Korçak idi. Moris Qlier nəsldən nəslə ötürülən nəfəs alətləri sənətkarlığı ilə məşhur idi və öz oğul övladlarını da bu sənətə yönəltmək arzusunda idi, lakin Qoldiçka (Reynholdu yaxınları bu adla çağırırdılar) tamamilə bu sənəti sevmirdi. Reynholdun ifaçılığa marağı gündən günə artırdı və bunu görən valideynləri balaca Reynholdun violin dərsləri alması üçün evlərinə müəllim A.Vaynberqi dəvət edirlər.

10 yaşında Reynhold Kiyev gimnaziyasına daxil olur. 14 yaşında o, artıq ilk əsərlərini yazır. Hələ gimnaziyada təhsil alarkən, Reynhold Kiyev ali musiqi məktəbinə daxil olur. Burada o, tanınmış çex violin ifaçısı O.Şevçikdən dərs alır. Tələbəlik illərində Qlier P.Çaykovskinin konsertində olur və bu konsertdən aldığı təəssuratları onun gələcəkdə bəstəkarlıq sənətini seçməyinə səbəb olur.

Qlier Moskva konservatoriyasının iki ixtisasına eyni vaxtda daxil olur: violin sinfi (müəllim İ.Qrjimali) və bəstəkarlıq (müəllim M.İppolitov-İvanov). Konservatoriya illərində bəstəkar Birinci simfoniya və bir neçə kamera əsəri yazır.

S.Taneyev, A.Arenski və Q.Konyus kimi görkəmli musiqiçilər R.Qlierin gələcək bəstəkarlıq yaradıcılığının formalaşmasında çox böyük rolları olmuşdur. R.Qlier Moskva konservatoriyasını bitirərkən diplom işi kimi "Yer və göy" («Земля и небо») opera-oratoriyasını (C.Bayronun əsəri əsasında) təqdim edir.

Konservatoriyanı qızıl medalla bitirdikdən sonra R.Qlier Qnesin bacılarının musiqi məktəbində müəllimlik fəaliyyətinə başlayır.

1908-ci ildən bəstəkarın dirijorluq və ifaçılıq fəaliyyəti başlayır. O, Moskva, Odessa, Bakı, Tbilisi, Kiyev şəhərlərində bir sıra konsertlərlə çıxış edir.

"İlya Muromes" adlı Üçüncü simfoniya Qlierin bəstəkarlıq yaradıcılığının dönüş dövrü olmuşdur.

Qlier pedaqoji fəaliyyətinin ən aktiv dövrünü Kiyev və Moskva konservatoriyalarında keçirir (uzun illər Qlier iki təhsil ocağında da rektor vəzifəsində çalışmışdır).

Şərq əməkçilərinin Kommunistik Universiteti Qlierin Zaqafqaz və Orta Asiyanın bir çox musiqiçiləri ilə tanışlığına zəmin yaradır. Əsasən də Qlierin Sovet respublikaları – Ukrayna, Azərbaycan, Özbəkistanın professional musiqi sənətinin formalaşmasında çox böyük rolu olmuşdur. Belə ki, o, 1923-cü ildə Azərbaycan xalq mahnılıarının ilk səs yazmasını həyata keçirmişdir və bu mahnıları gələcək illərdə yazdığı "Şahsənəm" operasında (1927) geniş istifadə etmişdir.[11] Bu operanın süjeti gənc Aşıq Qəribin Bəhram bəyin qızı gözəl Şahsənəmə qarşı olan ülvi məhəbbətindən bəhz edir. Libretto C.Cabbarlı və M.Qalperin tərəfindən yazılmışdır. Operanın ilk tamaşası (sonuncu redaksiyada) 1934-cü il mayın 4-də səhnəyə qoyulmuşdur. 1938-ci ilin aprel ayında Moskva Dekadasında Azərbaycan incəsənəti günlərində "Şahsənəm" operası səhnələşdirilir. Şahsənəm obrazının ilk ifaçısı SSRİ-nin Xalq artisti Şövkət Məmmədova olmuşdur.

30-cu illərdə bəstəkar ilk dəfə olaraq konsert janrına müraciət edir. Arfa, violonçel, valtorna üçün konsertlər yazılır. Onun konsertləri arasında səs və orkestr üçün yazılmış Konsert (kolorotur soprano) xüsusi yer tutur.

Bəstəkar 5 opera yazır. Onların arasında "Raşel" (Gi De Mopassanın "Mademuazel Fifi" novellası əsasında), "Şahsənəm" ("Aşıq Qərib"dastanı əsasında) operaları, həmçinin "Gülsaray" və "Leyli və Məcnun" (özbək bəstəkarı T.Sadıkovla birgə) özbək operaları, 6 balet – "Xrizis" (P.Lyuisin əsəri əsasında) pantomima baleti, "Kleopatra" (A.S.Puşkinin "Misir gecələri" əsəri əsasında), "Komediantlar" (Lope de Veqanın əsəri əsasında), "Qırmızı Lalə" (M.Kurilkonun

[11] Bəstəkarın xatirələrindən: "Şahsənəm" operası üzərində işlədiyim ərəfələrdə, mən bir neçə il Azərbaycanda yaşadım". Bakı, Şuşa, Gəncə şəhərlərinə, kəndlərə səyahət, professional artistlərlə görüşlər, bayram şənlikləri, və küçənin musiqi həyatı – bütün bunlar yeni bədii təəsüratlarımın yaranmasının sonsuz mənşəyi olmuşdur. Görkəmli azərbaycan sənətkarları, xalq musiqisinin biliciləri, Şövkət xanım Məmmədova, Bülbül mənə bir sıra melodiyaları züm-zümə etmişdilər. Bu mövzuları mən "Şahsənəm" operasında istifadə etmişəm. Bülbül məni muğamla tanış etmişdir. Tanınmış xanəndə Cabbar Qaryağdı və tarzən Qurban Primovla tanışlığım mənə çox şey vermişdir".

librettosu, çin və sovet xalqlarının dostluğundan bəhz edir), “Mis atlı” («Медный всадник») (Puşkinin əsəri əsasında), “Taras Bulba” ( Qoqolun əsəri əsasında) yazmışdır.

Qlierin yaradıcılıq irsi 150-dən çox fortepiano əsərləri, 150-yə yaxın romans, kinofilmlərə yazılmış musiqilərlə (“Dostlar yenidən görüşür”, “Əlişir Nəvoi” – T.Sadıkovla birgə, “Yer susayıb”) zəngindir.

R.Qlier bir neçə il SSRİ Bəsətəkarlar İttifaqının sədri vəzifəsində çalışmışdır (1938-ci ildən).

Görkəmli bəstəkar R.Qlier 1956-cı il iyunun 25-də Moskva şəhərində vəfat etmişdir.

*Suallar və tapşırıqlar:*

1. R.Qlierin yaradıcılığına hansı bəstəkarların təsiri olmuşdur?
2. R.Qlierin yaradıcılığında hansı yeni janrlar yaranmışdır?
3. R.Qlier kimin sinfində oxuyurdu və konservatoriya illərində hansı əsərləri yazmışdır?
4. R.Qlier konsertlərini hansı alətlər üçün yazmışdır?
5. R.Qlierin operaları və baletlərinin adlarını söyləyin.
6. “Şahsənəm” operasının bədii əsası hansı mənbədən götürülmüşdür?
7. Qlier “Şahsənəm” operasını yazdığı ərəfələrdə Azərbaycanın hansı tanınmış sənətkarları ilə tanış olmuşdur?

*17- ci dərs.* **R.M.Qlier. Səs və orkestr üçün Konsert (1943).**

Böyük Vətən müharibəsi illərində R.Qlier SSRİ-nin Bəstəkarlar İttifaqına rəhbərlik etməkdə davam edir. O, müharibə illərində ön cəbhə və arxa cəbhə zonalarında olan yaradıcılıq kollektivlərinin, opera və balet teatrının aktyor heyətinin, ifaçıların təxliyə edilməsinə yardım göstərərək, daha təhlükəsiz yerlərdə onların məskunlaşmasına və iş şəraitinin yaxşılaşdırılmasına köməklik etmişdir. Gərgin iş rejiminə baxmayaraq, bəstəkar yorulmadan və usanmadan yeni əsərlər üzərində işləyir.

Koloratur soprano və orkestr üçün Konsert (f moll, ikihissəli) – bəstəkarın ən parlaq və virtuoz əsərlərindən biridir. B.Asafyev bu əsəri “monumental əsər” adlandırır. Burada səs hansısa bir aləti əvəz edərək geniş texniki imkanlarını və füsünkar ifadəliliyini göstərir.

R.Qlierdən öncə bu tərz əsərlərə rus bəstəkarların yaradıcılığında rast gəlinir: S.Raxmaninov (“Vokaliz”), N.Metner (“sonata-vokaliz” və “Süita-vokaliz”), S.Prokofyev (sözsüz “5 mahnı”).

Qlier konsert üslublu virtuoz xarakterli vokalizin yaradıcısıdır.

Konsert 1943-cü ildə yazılıb. Dünya şöhrətli opera müğənniləri, D.Pantofel-Neçetskaya (əsər ona həsr olunmuşdur), Q.Maksimova, M.Sareviç, B.Rudenko və başqaları bu əsəri sevə-sevə öz repertuarlarına daxil etmişdilər.

Aydındır ki, konsertdə vokala üstünlük verilir. Bəstəkar aydın şəkildə solo səsin əhəmiyyətini vurğulayır və yüksək qadın səsinin bütün ifa imkanlarını göstərir. Sözsüz ki, məhz səsin parlaq gözəlliyi sayəsində Konsertin ideyası tam aydınlığı ilə qəbul olunur.

Konsert bir-biri ilə təzadlıq təşkil edən 2 hissədən ibarətdir.

Lirik xəyallarla dolu birinci hissə *sonata alleqrosu* formasında yazılıb (f moll). Birinci hissənin musiqisi dinləyici tərəfindən sözsüz musiqili hekayə kimi qəbul olunur.

Giriş mövzusu bir qədər həyəcanlı xarakterdə verilib.

***Birinci hissə. Giriş:***
https://www.youtube.com/watch?v=oKiQy6LDwOA




Onun ardından lirik xarakterli əsas mövzu səslənir.

***Əsas mövzu:***
https://www.youtube.com/watch?v=oKiQy6LDwOA *(səslənmənin başlanğıcı – 0:52)*




Köməkçi mövzu (c moll) ilk olaraq orkestrdə səslənir. Sonradan bu mövzu vokal partiyanın ifasında inkişaf edir. Musiqi bir qədər ekspressiv xarakterlə əvəz olunur.

***Köməkçi mövzu:***
https://www.youtube.com/watch?v=oKiQy6LDwOA *(səslənmənin başlanğıcı – 2:16)*



Solo səsin üçüncü oktavanın "do" notuna qədər yüksəlməsi emosiyaların daha çox yüksəlişinə səbəb olur.

Repriza bölməsində vokal partiyanın virtuoz xarakterli passajları və orkestrdə səslənən əsas mövzu kontrapunkt təşkil edir (polifonik inkişaf).

Birinci hissə xüsusi tematik bağ yaradaraq giriş mövzusuyla bitir.

İkinci hissə (F dur) – iki epizodlu Rondo formasında yazılmış konsert xarakterli valsdır.

Bu hissənin musiqisi zəriflik və canlılıq xüsusiyyətləri ilə fərqlənir. Xarakter baxımından dəyişkən olan ikinci hissə şən əhval-ruhiyyədən fikirli düşüncələrə və rəvan rəqsə qədər keçid alır. Vokal partiya isə daha böyük virtuozluq və texniki imkanlarla fərqlənir.

Əsas mövzudan (refren) öncə giriş mövzusu səslənir.

***İkinci hissə. Giriş:***

*https://www.youtube.com/watch?v=cOVXUeUrQWk*




Ardından poetik, vals sayağı melodiya səslənir.

***Refren:***

*https://www.youtube.com/watch?v=cOVXUeUrQWk (səslənmənin başlanğıcı – 0:14)*




Birinci epizod coşqun xarakterlidir və refren mövzusunun davamı kimi səslənir.

***Birinci epizod:***

*https://www.youtube.com/watch?v=cOVXUeUrQWk (səslənmənin başlanğıcı – 0:52)*




İkinci epizodun musiqisi mahnıvaridir və incə, aydın xarakterlə seçilir.

***İkinci epizod:***

[*https://www.youtube.com/watch?v=cOVXUeUrQWk*](https://www.youtube.com/watch?v=cOVXUeUrQWk) *(səslənmənin başlanğıcı – 2:17)*




Mehriban və şən musiqili Konsert, müharibənin əzabından yorulmuş insanların bu ruhda yazılmış musiqilərə ehtiyacları olan zamanda bəstələnmişdir. Bu əsərdə R.Qlier rus klassik konsertin ənənələrini davam etdirir.

*Suallar və tapşırıqlar:*

1. R.Qlierin Konserti neçənci ildə yazılmışdır?
2. Bəstəkarın konsert janrındakı novatorluğu haqqında danışmaq.
3. Konsert kimə həsr olunmuşdur?
4. Konsertin ilk ifaçısı kim olmuşdur?
5. Konsertin janrını təyin etmək.
6. Konsertin ikinci hissəsi hansı formada yazılmışdır?

## İkinci yarımil

*1-ci dərs:* **Sergey Sergeyeviç Prokofyev (1891 – 1953). Həyat və yaradıcılığı.**

Sergey Sergeyeviç Prokofyev – novator bəstəkar, dirijor, özünəməxsus pianizm üslubunu yaratmış görkəmli musiqiçi və birinci dərəcəli şaxmatçıdır. Onun musiqisi heç də hər zaman dinləyici tərəfindən müsbət qarşılanmayıb. Bir qrup insanlar bəstəkarın yazdığı musiqini dərk etməsələr də, bəziləri bu əsərlərə valeh olurdular.

Bəstəkarın yaradıcılıq irsi geniş və zəngindir: 8 opera, 7 balet, 7 simfoniya, 8 konsert, çox sayda vokal-instrumental əsərlər, kino və teatr tamaşaları üçün yazılmış musiqi.

Sergey Prokofyev 1891-ci il aprelin 23-də Sontsovka (Ukrayna) kəndində anadan olmuşdur. Bəstəkarın atası aqronom, anası isə istedadlı pianoçu idi. Artıq 5 yaşında Seryoja pianoda ifa edirdi və bəstəkarlıq təcrübəsinin ilk nümunəsi kimi "Hind qalopu" («Индийский галоп») pyesini yazmışdır. Musiqidən savayı balaca Seryoja ədəbiyyat və şaxmata maraq göstərirdi.

Bəstəkarın Moskva şəhərinə ilk səyahəti zamanı Bolşoy teatr səhnəsində tamaşaya qoyulan Ş.Qunonun "Faust"operası və P.Çaykovskinin "Yatmış gözəl" baletləri ona çox böyük təəssürat bağışlamışdır. Məhz bu gündən sonra teatr dünyası bəstəkarı öz ağuşuna alır və ömrünün sonuna kimi onu buraxmır. Tezliklə bəstəkarın "Böyük adam" («Великан») ilk operasının əlyazması işıq üzü görür.

Moskva konservatoriyasının professoru S.Taneyev balaca Seryojanın musiqi istedadını gördükdən sonra, onun valideynlərinə övladlarının gənc bəstəkar M.Qlierlə məşğul olmasını tövsiyə edir. Qlierin dərsləri çox maraqlı və ruh yüksəkliyi ilə keçirdi.

13 yaşlı Seryoja Peterburq konservatoriyasına iki ixtisas üzrə daxil olur: fortepiano və bəstəkarlıq. Bu təhsil ocağında Seryoja konservatoriyanın ən yaxşı müəllimlərindən dərs alır: A.Lyadov (bəstəkarlıq və kontrapunkt), N.Rimski-Korsakov (alətşünaslıq), A.Yesipova (fortepiano) və N.Çerepnin (dirijorluq).

Bəzən yeniliklər axtarışında olan bəstəkar müəllimləri tərəfindən tənqid edilirdi və qəbul olunmurdu. "O, maraqlı harmoniyalı yeni musiqini tənəzzülə uğradır" (Bəstəkarın R.Qlierə yazdığı məktubda A.Lyadovun dərsləri haqqında).

"İfratçılığın son həddini yaratmış novator" – məhz bu tənqidlərlə Prokofyev buraxılış imtahanında qarşılaşır. Gənc bəstəkar Altıncı fortepiano sonatasını və "Müsibət və fəlakət zamanı ziyafət" («Пир во время чумы») operasının finalını (yeni redaksiya) diplom işi kimi təqdim etmişdir. S.Prokofyev konservatoriyanı pianoçu və bəstəkar kimi bitirir. Buraxılış imtahanında bəstəkar, müəllifi olduğu Birinci konsertini ifa etmişdir. Mükəmməl ifasına görə S.Prokofyev A.Rubinşteyn adına mükafata – Schröder (Шрёдер) markalı royala layiq görülür.

Bəstəkarın ilk xarici səyahəti London şəhərinə olmuşdur (konservatoriyanı parlaq nəticələrlə bitirməsi şərəfinə anasının Seryojaya təqdim etdiyi hədiyyə). Qastrol səfərləri davamlı olaraq Yaponiyada, ABŞ-da, Parisdə gerçəkləşir. Vətənə qayıtdıqdan sonra, S.Prokofyev tamamilə müxtəlif üslublu və məzmunlu əsərlər üzərində işləyir. Bu illər ərzində bəstəkar "Skif süitası" («Скифская сюита»), "Yeddi təlxəklə zarafatlaşan təlxək haqqında nağıl" («Сказка о шуте семерых шутов перешутившего») baleti (bu iki əsər S.Dyagilevin sifarişi ilə yazılmışdır), "Oyunçu" («Игрок») (F.Dostoyevskinin əsəri əsasında) və "Üç portağala məhəbbət" («Любовь к трём апельсинам») operaları (Karlo Qotsinin nağılı əsasında), "Çirkin ördək" («Гадкий утёнок») nağılı ( H.Andersenin əsəri əsasında), Üçüncü fortepiano konserti, Birinci "Klassik" simfoniya, fortepiano üçün sonatalar, fortepiano silsilələri "Sarkazmlar", "Ötəri anlar", "Səs və fortepiano üçün beş şeir" (Anna Axmatovanın şeirlərinə yazılmışdır) musiqi silsilələri və başqa əsərlər yazmışdır.

S.Prokofyevin Avropaya səfəri (Oktyabr inqilabından sonra, 1917) 15 il müddətinə kimi uzanır. Bu illərin böyük hissəsini bəstəkar Amerikada keçirir.

1927-ci ildə S.Prokofyev Sovet Rusiyası haqqında bəhs edən “Poladın sıçrayışı” («Стальной скок») baletini (S.Dyagilevin sifarişi ilə) və “Alovlu mələk” («Огненный ангел») operasını yazır.

S.Prokofyev 1936-cı ildə birdəfəlik Vətənə qayıdır. Bəstəkarın musiqi dili bir az mülayimləşir. Onun yaradıcılığında modernizm, impressionizm və romantizm kimi müxtəlif bədii cərəyanlara xas xüsusiyyətlər öz əksini tapır. Buna nümunə “Romeo və Cülyetta” novator baletidir.

Bir-birinin ardınca yeni əsərlər meydana gəlir: “Semyon Kotko” operası (V.Katayevin “Mən əməksevər xalqın oğluyam” povesti əsasında), “Aleksandr Nevski” kinofilminə yazılmış musiqi, uşaqlar üçün yazılmış musiqi əsərlərindən isə “Uşaq musiqisi” fortepiano silsiləsi, “Petya və canavar” simfonik nağılı.

Böyük Vətən müharibəsi illərində bəstəkarın əsas yaradıcılıq işlərindən biri qəhrəmanlıq, vətənpərvərlik mövzusunda yazılmış “Hərb və sülh” («Война и мир») operası (L.Tolstoyun əsəri əsasında) olmuşdur, sonra isə o, “Zoluşka” nağıl-baletini, lirik-komik üslublu “Duenya” (R.Şeridanın “Monastırda nişan mərasimi” əsəri əsasında) operasını yazır.

40 – 50-ci illərdə S.Prokofyevin “Daş çiçək əfsanəsi” («Сказ о каменном цветке») baleti (P.Bajovun nağılı əsasında) və “Əsl insan haqqında povest” («Повесть о настоящем человеке») operası (B.Polevoyun əsəri əsasında) işıq üzü görür. Bəstəkarın Beşinci simfoniyası, “Dünyanın keşiyində”(«На страже мира») oratoriyası (S.Marşakın əsəri əsasında), “Qış tonqalı” («Зимний костёр») simfonik süitası və bir çox başqa əsərləri konsert salonlarında səslənir.

1952-ci il oktyabrın 11-də İttifaqlar evinin Sütunlu zalında S.Prokofyevin sonuncu əsəri – Yeddinci simfoniya səslənir. “Həyatın nurunu və sevincini vəsf edən simfoniya” – məhz bu sözlərlə görkəmli sovet bəstəkarı D.Şostakoviç bu əsəri xarakterizə etmişdir.

S.Prokofyev, Lenin mükafatına layiq görülmüş ilk bəstəkar olmuşdur (ölümündən sonra).

1953-cü il martın 5-də Moskva şəhərində dünyasını dəyişir. Onun vəfatı İ.Stalinin ölüm gününə təsadüf edir. Məhz bu səbəbdən görkəmli bəstəkarın yas mərasimi hiss olunmadan keçmişdir.

***“Hərb və sülh” operasından vals:***

https://www.youtube.com/watch?v=LlvCJpFxKco




***Birinci simfoniya, I hissə, əsas mövzu:***

https://www.youtube.com/watch?v=iQdODVFHWAU



***Köməkçi mövzu:***
*[https://www.youtube.com/watch?v=iQdODVFHWAU](https://www.youtube.com/watch?v=iQdODVFHWAU) (səslənmənin başlanğıcı – 1:46)*




*Suallar və tapşırıqlar:*

1. S.Prokofyevin böyük həcmli əsərlərini sadalayın.
2. S.Prokofyevin müəllimlərinın adlarını söyləyin.
3. S.Prokofyev konservatoriyanı bitirmək şərəfinə hansı mükafata layiq görülür?
4. S.Prokofyevin fortepiano silsilələrinin adlarını çəkin.
5. S.Prokofyevin uşaqlar üçün yazdığı əsərləri sadalayın.
6. S.Prokofyevin son əsərlərinin adlarını söyləyin.

*2-ci dərs:* **S.Prokofyevin fortepiano yaradıcılığı**.

S.Prokofyev bənzəri olmayan virtuoz pianoçu idi. Bəstəkarın cəsarətli yaradıcılıq ideyaları onun orijinal novator üslubunda təcəssüm olunmuşdur. S.Prokofyevin gənclik coşqunluğu, qrotesk, fərəh hissi ilə dolu işıqlı musiqisi qeyri-adi lirizmi ilə fərqlənirdi.

Bəstəkar erkən yaşlarından sevimli aləti üçün musiqi bəstələyirdi. Onun çoxsaylı əsərləri arasında 70-dən yuxarı müxtəlif pyeslər, 9 sonata, 5 fortepiano konserti, transkripsiyalar (müxtəlif solo instrumental və vokal əsərlərinin köçürülməsi, işləmələr) vardır.

S.Prokofyevin proqramlı fortepiano silsilələri böyük maraq doğurur: “Sarkazmlar”, “Qoca nənənin nağılları” («Сказки старой бабушки»), “Ötəri anlar” («Мимолётности»), “Uşaq musiqisi” («Детская музыка») və s.

***“Qoca nənənin nağılları” («Сказки старой бабушки»)***
***silsiləsindən “Nağıl”:***
*[https://www.youtube.com/watch?v=qsLYkKxUr9g](https://www.youtube.com/watch?v=qsLYkKxUr9g)*




Bəstəkar öz əsərlərində rus xalq mahnısı ənənələrinə, “Qüdrətli dəstə” nümayəndələrinin və Avropa bəstəkarlarının (D.Skarlatti, Y.Haydn, L.Bethoven) qoyduqları ənənələrə söykənir. Bəstəkar novator harmoniyasını aydın xüsusiyyətli klassik forma ilə məharətlə uyğunlaşdıra bilmişdir. S.Prokofyev etüdlər, prelüdlər, skersolar, valslar, mazurkalar, tokkatalar yazmışdır. Eyni zamanda bəstəkar qədim rəqs musiqi janrlarına da müraciət edir: menuet, riqodon, burre, qavot, allemanda.

Ümumiyyətlə, bəstəkarların fortepiano əsərlərinin ifaçısı asanlıqla tapılmırdı. Bu, təkçə əsərin texniki cəhətdən çətinliyi ilə yox, birinci növbədə onun məna, ideya baxımından anlaşılmamağı ilə bağlı idi. Məsələn, müəllifi olduğu Tokkatanı bir neçə il S.Prokofyev özü ifa etmişdir.

"Prokofyev" virtuozluğu bəstəkarın Skersosunda özünü aydın şəkildə göstərir.

***Skerso:***

https://www.youtube.com/watch?v=lIsXVYiK-jU




Riqodon – erkən neoklassisizmin ən parlaq nümunələrindən biridir. Bəstəkar bu əsərdə klavir musiqisinin ənənələrini müasir musiqi dili ilə birləşdirir.

***Riqodon:***

https://www.youtube.com/watch?v=M9pWVnyN2Wg *(səslənmənin başlanğıcı – 4:29)*




Proqramlılıq prinsipi S.Prokofyevin yaradıcılığında mühüm yer tutur. "Sarkazmlar", "Ötəri anlar", "Qoca nənənin nağılları", "Qarabasma", "Düşüncələr" və digər fortepiano silsilələri bu qəbildəndir. "Zoluşka" və "Romeo və Cülyetta" baletlərinin musiqisi əsasında fortepiano süitaları yaranmışdır.

Bəstəkar özü qeyd edirdi ki, "Sarkazmlar" və İkinci konsertin ardınca gələn "Ötəri anlar" əsərində "xasiyyət baxımından bir qədər yumşalma" baş verir və əsərin əsasını lirika təşkil edir. Konstantin Balmontun şeirləri "Ötəri anlar" əsərinin yazılmasına səbəb olmuşdur. Bəstəkar həmin şeirin iki misrasını bu əsərdə epiqraf kimi istifadə etmişdir:

*«В каждой мимолётности вижу я миры,*
*Полные изменчивой радужной игры»*

Silsilənin 20 pyesində bəstəkarın anlıq təəssüratları təsvir olunmuşdur. Bu pyeslərdə müxtəlif anlar yaşanır: yumor çalarları ilə dolu lirik epizodlar (№ 5), geniş rus melodikası (№ 7), qrotesk dolu məqamlar (№ 10), rus musiqisinin ahəngliliyi (№ 11).

***"Ötəri an" («Мимолётность») № 5:***

https://www.youtube.com/watch?v=7PCAkEfkHKU *(səslənmənin başlanğıcı – 4:35-4:57)*



***“Ötəri an” № 7:***
*[https://www.youtube.com/watch?v=7PCAkEfkHKU](https://www.youtube.com/watch?v=7PCAkEfkHKU) (səslənmənin başlanğıcı – 5:25-7:21)*



***“Ötəri an” № 10:***
*[https://www.youtube.com/watch?v=7PCAkEfkHKU](https://www.youtube.com/watch?v=7PCAkEfkHKU) (səslənmənin başlanğıcı – 9:54-10:59)*




***“Ötəri an” № 11:***
*[https://www.youtube.com/watch?v=7PCAkEfkHKU](https://www.youtube.com/watch?v=7PCAkEfkHKU) (səslənmənin başlanğıcı – 11:02-12:04)*




S.Prokofyevin beş fortepiano konserti arasında Üçüncü konsert əsas yerlərdən birini tutur. Bu əsər dünya pianizm ədəbiyyatının parlaq nailiyyətlərindən olmuşdur.

Bəstəkarın Yeddinci sonatası (op.83) “hərbi sonatalar” triadasına daxildir. Bu triada (№ 6 – 7 – 8) 1939 – 1942-ci illər arasında yazılmışdır.

Yeddinci sonata əvvəlcədən düşünülmüş, ümumiləşdirilmiş biçimdə Böyük Vətən müharibəsi zamanı yaşanmış dəhşətli faciənin üç tərəfini açıqlayır: amansız düşmənin hücumuna qarşı qorxu və həyəcan dolu hisslər (birinci hissə); xalq ruhunun humanizmliyi və sonsuz gözəlliyi (ikinci hissə); nəhayət, xalqın qəhrəmanlığı, dözümlülüyü və haqq yolunda qələbəyə inamı (üçüncü hissədə) əks olunur.

***Fortepiano üçün Yeddinci sonata.***

***Birinci hissə. Əsas mövzu:***

[https://www.youtube.com/watch?v=CgDESFDIXiU](https://www.youtube.com/watch?v=CgDESFDIXiU)




***Köməkçi mövzu:***

[https://www.youtube.com/watch?v=CgDESFDIXiU](https://www.youtube.com/watch?v=CgDESFDIXiU) *(səslənmənin başlanğıcı – 1:02)*




***İkinci hissə:***

[https://www.youtube.com/watch?v=bax95YLBNKc](https://www.youtube.com/watch?v=bax95YLBNKc)




***Üçüncü hissə. Əsas mövzu:***

[https://www.youtube.com/watch?v=HWyE3CxONrk](https://www.youtube.com/watch?v=HWyE3CxONrk)



Möhtəşəm pianoçu, XX əsrin yeni pianizm üslubunun banisi olan S.Prokofyevin bir çox sovet və xarici pianoçuların yaradıcılığına böyük təsiri olmuşdur.

*Suallar və tapşırıqlar:*

1. S.Prokofyevin fortepiano yaradıcılığının əsas janrlarını qeyd edin.
2. "Ötəri anlar" fortepiano əsərinin əsas ideyası nədir?
3. Prokofyev öz yaradıcılığında hansı qədim rəqslərə müraciət etmişdir?
4. Prokofyevin neçə fortepiano konserti var?
5. Hansı səbəbdən Prokofyevin əsərləri öz ifaçısını çətinliklə tapırdı?

*3-cü dərs*: **S.Prokofyev. "Aleksandr Nevski" kantatası (1938).**

S.Prokofyevin yaradıcılığında rus xalqı üçün mühüm olan tarixi hadisələr əks olunur ("Aleksandr Nevski" və "İvan Susanin" kinofilmlərinə yazılmış musiqi, həmçinin "Hərb və sülh" operası). Bəstəkar bu əsərlərdə qəhrəmanlıq, epik ideyasını təcəssüm etdirərək, M.Qlinkanın ("Ruslan və Lyudmila") və A.Borodinin ("Knyaz İqor") ənənələrini davam etdirir.

"Aleksandr Nevski" kantatası messo-soprano, qarışıq xor və orkestr üçün nəzərdə tutulub. Sözləri şair V.Luqovskoya və bəstəkarın özünə aiddir. Bu əsər eyniadlı kinofilmin musiqisi əsasında yaranıb (rejissor S.Eyzenşteyn, 1938). Kinofilm və ona yazılmış musiqi Aleksandr Nevskinin dəstəsi və tevton cəngavərləri-xaçlıları arasında baş verən qəhrəmanlıq mübarizəsini canlandırır.

Aleksandr Nevski kim olub? O, rus knyazı və böyük sərkərdə idi. Artıq 5 yaşında o, bir neçə dildə danışırdı və özünü hərbi işə hazırlayırdı.

Kantata 7 hissədən ibarətdir:

1. "Rusiya monqol əsarəti altında" («Русь под игом монгольским»)
2. "Aleksandr Nevski haqqında mahnı" («Песня об Александре Невском»)
3. "Xaçlılar Pskovda" («Крестоносцы во Пскове»)
4. Ayağa qalx, rus xalqı" («Вставайте, люди русские»)
5. "Buz üzərində döyüş" («Ледовое побоище»)
6. "Cansız meydan" («Мёртвое поле»)
7. "Aleksandrın Pskova girişi" («Въезд Александра во Псков»)

Bəstəkar möhtəşəm "canlı obrazlar" yaratmışdır: xaçlıların hücumu, tevtonlar tərəfindən dağıdılmış Pskov şəhəri, Çud gölündə döyüş səhnələri, rusların şiddətli hücumu, Soyuq göldə cəngavərlərin ölümü.

Kantatanın *Birinci hissəsi* "Rusiya monqol əsarəti altında" – dövr və hadisələrin sərt ab-havasını təsvir edən qısa simfonik proloqdur.

***Birinci hissə. "Rusiya monqol əsarəti altında"***
***(«Русь под игом монгольским»):***
https://www.youtube.com/watch?v=1h5fOc3lYpY



Kantatanın *İkinci hissəsi* – “Aleksandr Nevski haqqında mahnı”dır. Bu hissənin musiqisi təmkinli və əzəmətlidir. Xor ifaçıları rusların isveçlilər üzərindəki qələbəsi haqqında oxuyur. Əsas melodiya (“Hadisə Neva çayında baş vermişdir”) qədim rus dastanları ruhunda yazılmışdır. Mükəmməl orkestrləşdirmə rus xalqının nəcib simasını təsvir edir.

***İkinci hissə. “Aleksandr Nevski haqqında mahnı”***
***(«Песня об Александре Невском»):***
https://www.youtube.com/watch?v=LCjcwQlJFL8




*Üçüncü hissədə* (“Xaçlılar Pskovda”) – ilk dəfə olaraq mübarizə edən tərəflər qarşı-qarşıya gəlirlər. Düşməni xarakterizə edən sərt mövzu (orta əsr xoralı *Dies irae* dən istifadə olunmuşdur) xalqın acısını təcəssüm etdirən simlilərin titrək nağməsinə qarşı qoyulur.

*Dördüncü hissə* (“Ayağa qalx, rus xalqı”) bir daha rus döyüşkənliyini xarakterizə edir. Burada xor tamamilə fərqli xarakterdə səslənir. Artıq bu, keçmiş günlərin xatirələri deyil, döyüşə çağırışdır. Orkestrin səsləndirdiyi müqəddimədə vahiməli zəng səsləri eşidilir. Marş ritmi xor mövzusunun qəhrəmanlıq xarakterini vurğulayır.

***Dördüncü hissə. “Ayağa qalx, rus xalqı”***
***(«Вставайте, люди русские»):***
*https://www.youtube.com/watch?v=ZH9_QWwhIcs*




Birinci və dördüncü hissələrdə bəstəkar Rusiyanın qüdrətli və qəhrəmanlıq obrazını yaradır. Xaçlıların obrazı kantatanın 3-cü, 5-ci və 6-cı hissələrində göstərilir.

*Beşinci hissə* – “Buz üzərində döyüş”. Bu hissənin əvvəlində döyüşdən öncə tənha, boş qış gölünün mənzərəsi təsvir olunub.

***Beşinci hissə. “Buz üzərində döyüş”***
***(«Ледовое побоище»):***
*https://www.youtube.com/watch?v=CmDFLe9uw38*




S.Prokofyev düşmən hücumu epizodunun mövzusunu özünəməxsus “kəskin” müasir xarakterdə təqdim edir. Darıxdırıcı, eynilik xüsusiyyətli mövzunun üzərinə mis nəfəs alətlərinin şiddətli səsi əlavə olunur.

Döyüşkən cəngavər xoralına qarşı cəsurluğu ilə seçilən “rus hücumunun mövzusu” səslənir. Bəstəkar burada “politonallıqdan[12] istifadə etmişdir: rus mövzusu (D dur) və xoral mövzusu (cis moll).

Ahəngdarlıq prinsipindən (orkestrləşdirmənin növlərindən biridir) istifadə edərək bəstəkar məharətlə hərbi siqnalların səsini, atların kişnəməyini, buzun çatlamasını, xaçlıların qaranlıq ölüm səhnələrini aydın şəkildə təsvir edir.

Aleksandr Nevskinin rus dəstələrinin tevton cəngavərləri ilə döyüş səhnəsi N.Rimski-Korsakovun “Görünməz Kitej şəhəri və Fevroniya haqqında əfsanə” («Сказание о невидимом граде Китеже и деве Февронии») operasından “Kerjenesdə döyüş” («Сеча при Керженце») simfonik antraktını xatırladır.

*Altıncı hissədə* – “Cansız meydan” – həlak olmuş döyüşçülər arasında öz yarını axtaran rus xanımının lirik obrazı göstərilir. Kantatanın yeganə solo nömrəsi “Mən ağ meydan boyunca gedərəm” («Я пойду по полю белому») mahnısı xalq oxşama və ağı üslubunda yazılmışdır.

***Altıncı hissə. “Cansız meydan”***
***(«Мёртвое поле»):***
*https://www.youtube.com/watch?v=fXMslTf_1mc*




*Yeddinci hissə* – “Aleksandrın Pskova girişi” – kantatanın əzəmətli və təntənəli finalıdır.

[12] Politonallıq iki və daha çox tonallığın eyni zamanda səslənməsinə deyilir.

***Yeddinci hissə. “Aleksandrın Pskova girişi”***
***(«Въезд Александра во Псков»):***
[https://www.youtube.com/watch?v=0C2wO0KDzfU](https://www.youtube.com/watch?v=0C2wO0KDzfU)




S.Prokofyevin “Aleksandr Nevski” kantatasının yaranma tarixi Avropada faşizm ideyasının tüğyan etmə vaxtına təsadüf edir. Bəstəkar bu tarixi hadisəyə müasir tərzdə yanaşaraq, rus xalqının işğalçılarla olan mübarizəsində şanlı qələbəsini dünyaya çatdıra bilmişdir.

*Suallar və tapşırıqlar:*

1. S.Prokofyevin hansı əsərləri tarixi hadisələrə həsr olunub?
2. Kantata neçə hissədən ibarətdir? Hissələri adlandırın.
3. Politonallıq nədir? Kantatanın hansı epizodunda bu üsuldan istifadə olunmuşdur?
4. S.Prokofyev rusları və tevtonları hansı ifadə vasitələri ilə səciyyələndirir?
5. Kantatanın hansı hissələrində xaçlıların mövzusu keçir?
5. Kantatada neçə solo nömrəsi var?

*4-cü dərs:* **S.Prokofyev. “Romeo və Cülyetta” baleti (1936).**

Balet janrı S.Prokofyevi bütün yaradıcılıq fəaliyyəti boyu cəlb edib. O, yeddi balet müəllifidir. “Romeo və Cülyetta” baleti bəstəkarın ən yaxşı, novator baletlərindən biridir.

Balet Bolşoy teatr müdiriyyəti tərəfindən sifariş olunmuşdur. Baletin librettosu (V.Şekspirin faciəsi əsasında) Sergey Radlova, Adriana Piotrovskiyə, Leonid Lavrovskiyə və bəstəkarın özünə məxsusdur.

Əsərin premyerası 1938-ci ildə Brno (Çexoslovakiya) şəhərində baş tutmuşdur. Balet tamaşasının tam versiyası Leninqradda Kirov (Mariinsk) teatrında səhnəyə qoyulmuşdur. Cülyetta obrazını məşhur sovet balerinası Qalina Ulanova, Romeonu isə Konstantin Sergeyev canlandırmışdır.

V.Şekspirin faciəsinə S.Prokofyevdən öncə də müraciət olunmuşdur. Bu ərəfələrdə artıq Şarl Qunonun və Vinçenso Bellininin romantik operaları, Pyotr Çaykovskinin və Gektor Berliozun simfonik uvertüraları yazılmışdır. Şekspirin faciəsi ilk dəfə olaraq yalnız S.Prokofyevin yaradıcılığında balet mövzusu kimi təqdim olunur.

“Romeo və Cülyetta” – balet tamaşasının yeni növüdür. Bəstəkar musiqi formalarını yeniləyir və ən əsası hər bir qəhrəmanın xarakterini dolğun şəkildə göstərir.

“Romeo və Cülyetta” 3 pərdə, 9 şəkil, proloq və epiloqdan ibarətdir.

*İştirak edənlər:*
Romeo – Montekkinin oğlu,
Cülyetta – Kapulettinin qızı,
Tibald – Cülyettanın əmisi oğlu,
Merkusio və Benvolio – Romeonun dostları,
Cülyettanın dayəsi,
Rahib Lorenso – Romeo və Cülyettanı gizlicə nikahlandıran rahib,
Paris – Cülyettanın nişanlısı.
Baletdə hər bir səhnənin müəyyən adı var.

**Birinci pərdə.** Veronada səhərin erkən çağı. Romeo və Cülyettanın saf, təmiz məhəbbət mövzusu səslənir (“Giriş”, 1-ci səhnə).

***Giriş:***
*https://www.youtube.com/watch?v=HH5ZhaBuhhw (səslənmənin başlanğıcı – 2:40)*




Şəhərin mənzərəli küçələri ilə dolaşan Romeo öz məhəbbəti haqqında xəyal qurur (“Romeo”, 2-ci səhnə). Məişət həyatını ifadə edən “Küçə oyanır” («Улица просыпается») səhnəsindəki “sıçrayan” intonasiyalar mövzuya dəcəllik, qayğısızlıq xüsusiyyətləri gətirir.

***“Küçə oyanır” («Улица просыпается»):***
*https://www.youtube.com/watch?v=0kvHJK8TrEc*




Gənc Cülyetta otaqda özünün ilk rəqs gecəsinə hazırlaşır. Onun obrazı baletdəki ən mürəkkəb obrazlardandır. “Cülyetta-qızcığaz” («Джульетта-девочка») səhnəsində (10-cu səhnə) onun xasiyyətinin müxtəlif yönləri məlum olur: şux və dəcəl (1-ci mövzu),

***“Cülyetta-qızcığaz” («Джульетта-девочка»):***

*https://www.youtube.com/watch?v=eTnoNxhc2Dc*




zərif və incə (2-ci mövzu),

*https://www.youtube.com/watch?v=eTnoNxhc2Dc (səslənmənin başlanğıcı – 0:40)*




xəyalpərəst (3-cü mövzu).

*https://www.youtube.com/watch?v=eTnoNxhc2Dc (səslənmənin başlanğıcı – 1:20)*




Baletin inkişafında istifadə olunan əsas vasitələrdən biri də leytmotivlərdir. Məsələn, Cülyettanın üçüncü mövzusu onun zəhərli içki içdiyi zaman və ölüm səhnəsində səslənir.

“Küçə oyanır” («Улица просыпается») xalq səhnəsində səslənən mövzu da öz növbəsində baletin leytmotivlərindən biri olur və Merkusionun ölümü səhnəsində təhrif olunmuş formada səslənir.

Prokofyev kubar cəmiyyətin düzgün təsviri üçün qədim rəqs janrlarından – menuet və qavotdan istifadə etmişdir.

***“Menuet”:***

*https://www.youtube.com/watch?v=yf_qFprmKAQ*



***“Qavot”:***

[https://www.youtube.com/watch?v=Z5EJ7Swbr4A](https://www.youtube.com/watch?v=Z5EJ7Swbr4A)




Menuetın sədaları altında Verona zadəganları bayram geyimlərində şənliyə gedirlər (“Qonaqların gəlişi” 11-ci səhnə).

Romeo, Merkusio və Benvolio gizlicə bala gəlirlər. Merkusionun musiqi xarakteristikası skersosayağıdır (“Merkusio”, 15-ci səhnə).

***“Merkusio”:***

[https://www.youtube.com/watch?v=Fj3xyaNThY0](https://www.youtube.com/watch?v=Fj3xyaNThY0)




Cülyettanın gözəlliyinə heyran olmuş Romeo ona öz hisslərini bildirir (“Madriqal”, müqəddimədən olan məhəbbət mövzusu səslənir).

***“Madriqal”:***

[https://www.youtube.com/watch?v=l7K2rV9aGJU](https://www.youtube.com/watch?v=l7K2rV9aGJU)




Tibald Romeonu tanıyır. Onların arasında dava baş verir. Düşmənçilik mövzusu və cəngavərlər mövzusu qəzəblə səslənir. Prokofyev ağır, mübariz xüsusiyyətli “Cəngavərlərin rəqsi” («Танец рыцарей») nömrəsində orta əsr dövrünün tutqun ab-havasını göstərir (13-cü səhnə).

***“Cəngavərlərin rəqsi” («Танец рыцарей»):***
[https://www.youtube.com/watch?v=7D4uiDRfEUM](https://www.youtube.com/watch?v=7D4uiDRfEUM)




Birinci pərdə simfonik triptixlə bitir: “Eyvan səhnəsi” («Сцена у балкона»), “Romeonun variasiyaları” («Вариации Ромео»), “Sevgi rəqsi” («Любовный танец»).

***“Eyvan səhnəsi” («Сцена у балкона»):***
[https://www.youtube.com/watch?v=9OJsO60A4q0](https://www.youtube.com/watch?v=9OJsO60A4q0)




**İkinci pərdə.** Rahib Lorenso Romeo və Cülyettanı gizlicə nikahlayır. Müdrik, ciddi və eyni zamanda səmimi insan, rahib Lorenso ağır templi, xoral tipli mövzuyla səciyyələnir. (“Romeo rahib Lorensonun yanında”, 28-ci səhnə).

***“Romeo rahib Lorensonun yanında” («Ромео у патера Лоренцо»):***
[https://www.youtube.com/watch?v=SAVOob6Unxg](https://www.youtube.com/watch?v=SAVOob6Unxg)



Veronada meydan. Tibald və Merkusio arasında mübahisə baş verir. Tibald rəqibinə ölümcül zərbə endirir. Romeo döyüşə qatılır və Tibaldı öldürür. “Küçə mövzusu” təhrif olunmuş formada səslənir. Romeo Veronanı tərk etməlidir.

**Üçüncü pərdə.** Dan yeri sökülür və sevgililər vidalaşırlar (“Ayrılıq öncəsi vidalaşma”, 39-cu səhnə). Cülyettaya Parislə evlənməsi haqqında xəbər verirlər. Cülyetta imtina edir. Lorenso Cülyettaya ölümə bənzər dərin yuxu gətirən dərman verir. Lorenso Romeoya xəbərdarlıq etməli idi, lakin bunu Romeoya vaxtında çatdıra bilmir.

İlk dəfə olaraq 47-ci səhnədə (“Cülyetta tək”) “ölüm mövzusu” səslənir.

***“Cülyetta tək” («Джульетта одна»):***

https://www.youtube.com/watch?v=OaoU3KdBypY *(səslənmənin başlanğıcı – 9:55)*




Cülyetta ailə sərdabəsində yatır. Romeo onunla vidalaşır və zəhər qəbul edir. Yuxudan ayılan Cülyetta can verən Romeonun yanına qaçır. Tənha qalan Cülyetta özünü xəncərlə öldürür.

Cülyettanın üçüncü mövzusu epiloqda sevginin ölümsüzlüyünü göstərir.

***“Cülyettanın yas mərasimi” («Похороны Джульетты»):***

https://www.youtube.com/watch?v=OaoU3KdBypY *(səslənmənin başlanğıcı – 16:27)*




Montekki və Kapuletti ailələri barışırlar.

*Suallar və tapşırıqlar:*

1. “Romeo və Cülyetta” baletinin premyerası nə vaxt olmuşdur? İlk tamaşada Cülyetta obrazını kim ifa edirdi?
2. Prokofyevdən öncə hansı bəstəkarlar “Romeo və Cülyetta” faciəsinə müraciət etmişdirlər?
3. Baletin əsas qəhrəmanlarını qeyd edin.
4. Baletin dramaturgiyasında hansı mühüm inkişaf vasitələrindən istifadə olunur?
5. Balet nə ilə bitir?
6. Baletin bir neçə səhnələrini qeyd edin.

*5-ci dərs:* **S.Prokofyev. “Zoluşka” baleti (1944).**
*İştirak edənlər:*
Zoluşka
Zoluşkanın atası
Zoluşkanın analığı
Xudışka və Kubışka (Krivlyaka və Zlyuka) – analığın qızları
Şahzadə
Pəri-nənə
Fəsillər pəriləri (Yaz, Yay, Payız, Qış)
Rəqs quran

S.Prokofyevin nağıl obrazları müxtəlif janrlı əsərlərdə özünü əks etdirmişdir: “Üç portağala olan məhəbbət” operasında, “Petya və canavar” simfonik nağılda, fortepiano əsərlərində (“Nağıl”, “Qoca nənənin nağılları” və s.), vokal musiqisində (“Çirkin ördək”), həmçinin “Təlxək haqqında nağıl” baletində.

S.Prokofyev “Zoluşka” nağıl-baletinin yazılmasını hələ müharibə illərindən əvvəl fikirləşmişdir.

Zoluşka baleti (fransız yazıçısı Ş.Perronun nağılı əsasında) Prokofyevin işıqlı və lirik əsərlərindən biridir. Baletin ilk tamaşası 1945-ci ildə Bolşoy teatr səhnəsində qoyulub.

Bu nağıl analığı və iki qızı tərəfindən sevilməyən bədbəxt yetim qız haqqındadır. Burada onun bir təsadüf nəticəsində ziyafətə düşməsindən, orada çəkməsinin bir tayını itirməsi və sonunda öz xoşbəxtliyinə qovuşmasından bəhs edilir.

Baletin ən yaxşı lirik səhnələri Zoluşka obrazına həsr olunmuşdur (Şahzadə ilə duet, bal səhnəsində Adagio, sol minor valsı və s.).

S.Prokofyev yazır: “ Balet musiqisində Zoluşka üç mövzu ilə səciyyələnir (Cülyetta kimi). Birinci mövzu – küskün Zoluşka, ikinci – saf və aşiq olmuş Zoluşka, üçüncü – aşiq və xoşbəxt Zoluşka”.

Baletin üçüncü nömrəsi “Zoluşka” adlanır. Rus xalq mahnısı üslubunda qəm-qüssəli, fikirli musiqi səslənir.

***“Zoluşka”, birinci mövzu:***

https://www.youtube.com/watch?v=VEfUqpncCEg *(səslənmənin başlanğıcı – 6:03)*




Qəflətən musiqinin xarakteri dəyişir və Zoluşkanın ikinci mövzusu səslənir (bədbinliyi unudaraq, qənc qız gözəl xəyallara qapılır). Zərif qavot ritmli (qədim fransız rəqsi) melodiya fleytanın ifasında səslənir.

***“Zoluşka”, ikinci mövzu:***

https://www.youtube.com/watch?v=VEfUqpncCEg *(səslənmənin başlanğıcı – 6:32)*



Zoluşkanın üçüncü mövzusu tam dolğunluğu ilə 3-cü pərdənin finalında səslənəcək.

***“Zoluşka”, üçüncü mövzu:***
*https://www.youtube.com/watch?v=VEfUqpncCEg (səslənmənin başlanğıcı – 8:26)*




Zoluşkanın gözəl obrazına qarşı paxıllıq və şər dünyası qoyulur. Artıq baletin birinci “Pa de şal” (“Şalla rəqs”) səhnəsində zalım analığın və səfeh bacılarının musiqi portretləri verilir. Onların musiqili xarakteristikası iti ritm və xromatik motivlərlə zəngindir.

***“Pa de Şal” ( Şalla rəqs”):***
*https://www.youtube.com/watch?v=LoYI4N00fag*




Zoluşka ocağın yanında, bacılar isə şal tikməklə məşğuldurlar və birdən nə isə bölüşə bilmədiklərindən dalaşmağa başlayırlar. Zoluşkanın analığı hirslənərək şalı kəsərək iki yerə bölür. Hər bacı öz yarımçıq şalı ilə rəqs etməyə başlayır.

Yenidən qavot ritmi səslənir və bu dəfə bu ritm gülünc, karikatura xüsusiyyətlidir. İnadçıl və çevik şahzadə obrazı eyni zamanda digər xüsusiyyətlərlə də səciyyələnir – zəriflik və səmimiliklə. Beləliklə, bu obrazın lirik xüsusiyyəti ikinci pərdənin Adagio hissəsində vurğulanır.

***Şahzadə və Zoluşkanın dueti (Adagio):***
*https://www.youtube.com/watch?v=j_sx_vcu3s4*




“Zoluşka” baleti klassik nağıl baleti ənənələrinə söykənir. S.Prokofyev burada klassik balet forma və janrlarından istifadə edir: variasiyalar (kiçik solo rəqslər), Pa-de-de (iki nəfərin rəqsi), divertisment (bir neçə rəqsdən ibarət süita).

İlk dəfə olaraq, S.Prokofyev bu baletdə sehrli dünyanın möcüzələrini göstərir. Rəngarəng harmoniyalar, müxtəlif alətlərin tembrləri, sayrışan trellər və tremolo sayəsində maraqlı səhnələr canlanır: dörd pəri obrazı (dörd fəslin obrazları), bal zamanı saatların döyüşü, rəqs edən qnomların cırtdanların, çəyirtkələrin obrazı.

Baletin musiqi dramaturgiyasında qavot və əsasən də, vals böyük əhəmiyyət daşıyır.

***"Qavot":***

*https://www.youtube.com/watch?v=szRuYcGusUQ*




Baletdə üç vals gənc qəhrəmanların hisslərini əks etdirir: birinci pərdədən sol minor valsı (ulduzlar Zoluşkanı bala aparırlar), ikinci pərdədən "Böyük vals" və üçüncü pərdədən "Ağır vals" (Şahzadə Zoluşkanı tapır).

***"Böyük vals":***

*https://www.youtube.com/watch?v=FIQzGuI5_YM (səslənmənin başlanğıcı – 1:52)*




***Koda-vals (g moll):***

*https://www.youtube.com/watch?v=kqcUzQNSEkk*




Bu baletin əsasında S.Prokofyev üç simfonik süita və bir sıra foprtepiano pyesləri yazmışdır.

*Suallar və tapşırıqlar:*

1. Prokofyev hansı janrlarda nağıl süjetlərindən istifadə etmişdir?
2. Baletdə hansı rəqslər mühüm dramaturji rol oynayır?
3. Baletdəki musiqili xarakteristikalar Prokofyev tərəfindən necə verilir?
4. Bəstəkar sehrli obrazların təsvir edilməsində hansı musiqi ifadə vasitələrindən istifadə etmişdir?
5. "Zoluşka" baleti hansı janrda yazılmışdır?
6. "Zoluşka" və "Dava" səhnələrində səslənən qavot rəqsini xarakterizə edin.

*6-cı dərs:* **S.Prokofyev. Yeddinci simfoniya (1952).**

Səhhətində yaranmış problemlərə görə S.Prokofyevin son yaradıcılıq illəri çox gərgin olmuşdur. Lakin buna baxmayraq o, yenə də bəstələməyə davam edirdi.

1952-ci ildə İttifaqlar evinin Sütunlu salonunda ilk dəfə olaraq bəstəkarın Yeddinci simfoniyası səslənmişdir. Simfoniyaya Samuil Samosud dirijorluq edirdi. S.Prokofyev sonuncu dəfə idi ki, müəllifi olduğu konsertdə iştirak edirdi.

İlkin olaraq, S.Prokofyev bu simfoniyanı uşaqlar üçün nəzərdə tutmuşdur. Lakin, iş prosesi ərəfəsində bəstəkarın fikri dəyişir. Bəstəkarın təsəvvüründə uşaqlıq illərinin sirli aləmlə dolu xatirələri canlanır və eyni zamanda, həyata tutunmaq hissi, "mənalılıq, xeyirxahlıq, əbədilik" (Prokofyevin simfoniya haqqında söylədikləri) ideyalarına dərin inam yaranır. Uşaq simfoniyasının əvəzinə dərin mənalı, ciddi xarakterli simfoniya ərsəyə gəlir.

Yeddinci simfoniyanın əsasını geniş, ahəngli melodiyalar təşkil edir. Bu əsərin musiqisi Prokofyevə xas olan kəskin dissonanslarla deyil, əksinə yumşaq harmonik dili ilə seçilir. Əsərin orkestrləşdirilməsi isə şəffafdır.

Həcmcə böyük olmayan simfoniya klassik üslubda yazılıb. Əsər dörd hissədən ibarətdir.

*Birinci hissə* sonata alleqrosu formasında yazılıb, lakin ənənəvi olaraq *Alleqro* tempində deyil, *Moderato* tempində səslənir.

Əsas mövzu (cis moll) ağır, nəql xarakterlidir.

***Birinci hissə. Əsas mövzu:***

https://www.youtube.com/watch?v=mF8oTzXoyts




Köməkçi mövzu da lirik xarakterlidir, lakin bu dəfə lirika təntənəli formada verilir (F dur). Həyat sevgisi və gözəlliyi ilə səciyyələnən bu mövzu simfoniyanın aparıcı mövzularındandır.

***Köməkçi mövzu:***

https://www.youtube.com/watch?v=mF8oTzXoyts *(səslənmənin başlanğıcı – 2:17)*






Bəstəkar bu mövzunu işıqlı himn kimi, finalın kodasında səsləndirir. Zənglərin billur səsi, qoboy və fleytanın melodiyası sanki bizi füsünkar nağıl aləminə dəvət edir.

*İkinci hissə. Alleqretto (F dur).* Bu hissədə vals ritmi fonunda zarafatyana, zərif, bayramsayağı, lirik xarakterli müvzular səslənir:

***İkinci hissə*:**

*https://www.youtube.com/watch?v=L1VRZN99eF8 (səslənmənin başlanğıcı – 9:53)*




*Üçüncü hissə* ahənglidir – *Andante Espressivo(As dur).* Bu hissə Prokofyev lirikasının incisidir. Bu hissənin musiqisi nəcib hisslər aləmini və dərin düşüncələri əks etdirir.

***Üçüncü hissə. Əsas mövzu:***

*https://www.youtube.com/watch?v=L1VRZN99eF8 (səslənmənin başlanğıcı – 17:51)*




*Dördüncü hissə (Des dur) Vivace* tempində verilir. Çox sürətli final. Rondo formasında yazılmışdır.

***Dördüncü hissə. Əsas mövzu (refren):***

*https://www.youtube.com/watch?v=4C5xgU-klIA (səslənmənin başlanğıcı – 8:20)*




Şad, coşqun, enerji dolu final mövzuları birinci hissənin lirik xarakterli köməkçi mövzusuyla əvəz olunur.

***Sonluq:***

*https://www.youtube.com/watch?v=4C5xgU-klIA (səslənmənin başlanğıcı – 10:18)*



Getdikcə yavaşlayan, şəffaf, həzin motiv simfoniyanın finalında səslənərək sakit vidalaşma anını təsvir edir.

*Suallar və tapşiriqlar:*

1. S.Prokofyevin Yeddinci simfoniyasının hər bir hissəsi hansı tempdə və tonallıqda səslənir?
2. Birinci hissənin əsas və köməkçi mövzularını xarakterizə edin.
3. Birinci hissənin köməkçi mövzusunu hansı alətlər ifa edir?
4. Simfoniya necə tamamlanır?

*7 – 8-ci dərslər:* **Dmitri Dmitriyeviç Şostakoviç (1906 – 1975). Həyat və yaradıcılığı.**

Dmitri Şostakoviç o bəstəkarlardandır ki, sağlığında şöhrət qazanmışdır. Onun yaradıcılığı ölkə tarixinin musiqili salnaməsidir. Şostakoviçin universallığı onun öz yaradıcılığında bütün janrlara müraciət edərək yüksək bədii xüsusiyyətlərə malik əsərlər yaratmasında idi. Bu əsərlər arasında faciəvi "Katerina İzmaylova" operası, şən, həyat dolu "Moskva. Çeremuşki" operettası, vokal silsilələr (Mikelancelonun, Marina Svetayevanın sözlərinə) və satirik mahnılar ("Krokodil" jurnalından götürülmüş məzmun əsasında), 15 möhtəşəm simfoniya, 15 kvartet və uşaq musiqisi ("Kuklaların rəqsi" («Танец кукол»), "Uşaq dəftəri" («Детская тетрадь») fortepiano silsilələri) vardır.

D.Şostakoviçin ən sevimli bəstəkarları İ.Bax, L.Bethoven, V.Mosart, F.Şubert, Q.Maler, P.Çaykovski və M.Musorqski idi. Bəstəkar dərin hörmət bəslədiyi İ.Baxın şərəfinə "24 prelüd və fuqa" fortepiano silsiləsini yazır (Baxın 200-illik xatirəsinə həsr olunub).

D.Şostakoviç M.Musorqskinin yaradıcılığına müraciət edərək "Boris Qodunov" və "Xovanşina" operalarının, "Birə" («Блоха») və "Ölüm rəqsi və mahnıları" («Песни и пляски смерти») vokal silsilələrinin orkestrləşdirilməsini etmişdir.

D.Şostakoviç 1906-cı il sentyabrın 25-də Peterburqda kimya mühəndisi ailəsində dünyaya göz açmışdır. Dmitri ilk musiqi dərslərini anasından (piano ixtisası üzrə müəllim) almışdır. Evdə tez-tez klassik musiqi səslənirdi. Onun atası gözəl səsə malik idi, eyni zamanda gitara və royalda ifa edirdi. Dmitri 9 yaşında P.Çaykovskinin "Yevgeni Onegin" operasından istənilən musiqi parçasını əzbər bilirdi.

D.Şostakoviç Petroqrad Konservatoriyasını pianoçu kimi ( L.Nikolayevin sinfini,1923) və iki ildən sonra bəstəkar kimi (M.Şteynberq, 1925) bitirmişdir.

Bəstəkar diplom işi kimi Birinci simfoniyasını təqdim edir və böyük şöhrət qazanır.

D.Şostakoviç rəngarəng əsərlərində hər şeydən öncə dahi simfonist kimi çıxış edir. Onun simfoniyalarında 1941 – 1945-ci illərin faciəvi mövzuları və insanın yaxşılığa və xoşbəxtliyə doğru can atması öz təcəssümünü tapır.

Bəstəkarın simfoniyalarının əsas prinsipi – proqramlılıqdır: "Leninqrad" (№7) (blokadada olan sevimli Leninqrad şəhəri haqqında), "1905-ci il" (№11) (birinci rus inqilabına həsr olunub), "1917" (№12) (Leninin xatirəsinə) və №13 (Y.Yevtuşenkonun sözlərinə). Şostakoviç 15-ci simfoniyasında C.Rossininin "Vilgelm Tel" və R.Vaqnerin "Nibelunqların üzüyü" («Кольцо Нибелунгов») operalarından götürülmüş mövzulardan istifadə edir.

Bəstəkarın sevdiyi janrlardan biri də simli kvartet idi. Şostakoviç bu janra yalnız 1938-ci ildə müraciət edir. Bu zamana qədər onun artıq 5 simfoniyası, 2 operası və 3 baleti mövcud idi. Bəstəkarın yaradıcılığının lirik-fəlsəfi yönləri məhz onun simli kvartetlərində parlaq təcəssümünü tapmışdır.

D.Şostakoviç simfonist kimi anında qiymətləndirilir, lakin onun opera və balet yaradıcılığı tənqidçilər və dinləyicilər tərəfindən qəbul olunmur. "Pravda"qəzeti bəstəkarın "Burun" («Нос») (N.Qoqolun povesti əsasında, 1930-cu il) birinci operası haqqında "Musiqi əvəzinə qarma-qarışıqlıq" deyə fikir bildirmişdir.

1934-cü ildə N.Leskovun povesti əsasında yazılmış "Msen qəzasından Ledi Makbet" operasının (ikinci redaksiyada "Katerina İzmaylova" adlanır, 1956) tamaşaya qoyulması iki dəfə qadağan olunub.

Şostakoviçin üç baleti də – "Qızıl əsr" («Золотой век») (1930), "Bolt" («Болт») (1931), "Aydın çay" («Светлый ручей») (1935) baletləri repertuardan alınmışdır. Müəyyən zaman keçdikdən sonra onun musiqisi dinləyici və tənqidçilər tərəfindən qəbul olunur, balet və operaları isə opera teatrı səhnələrinin repertuarına daxil olur.

D.Şostakoviçin müəllimlik fəaliyyəti Moskva və Leninqrad konservatoriyalarında keçmişdir. 33 yaşında o, professor adına layiq görülür. Onun tələbələri arasında Q.Sviridov, Q.Qarayev, C.Hacıyev və başqaları vardır.

D.Şostakoviçin yaradıcılığı çox zəngindir. Onların arasında tamamlanmamış "Oyunçular" («Игроки») (Qoqolun əsəri əsasında), "Stepan Razinin edamı" («Казнь Степана Разина») simfonik poema, "Meşələr haqqında nəğmə («Песнь о лесах») oratoriyası, "Yəhudi xalq poeziyasından" («Из еврейской народной поэзии») vokal silsilələr, iki violin, violonçel və alt üçün konsert, fortepiano ilə orkestr üçün konsert, kinofilmlərə yazılmış musiqi – "Qarşıdan gələn" («Встречный»), "Gənc qvardiya" («Молодая гвардия»), "Hamlet" və s. əsərlər mövcuddur.

D.Şostakoviç 1975-ci il avqustun 9-da vəfat etmişdir.

*Suallar və tapşırıqlar:*

1. D.Şostakoviçin müxtəlif janrlardan olan əsərlərinin adlarını çəkin.
2. D.Şostakoviç M.Musorqskinin hansı əsərlərini orkestrləşdirmişdir?
3. Hansı simfoniyada Y.Yevtuşenkonun şeirlərindən istifadə olunmuşdur?
4. D.Şostakoviçin yaradıcılığının əsas janrını qeyd edin.
5. Şostakoviçin proqramlı simfoniyalarını sadalayın.
6. Şostakoviçin hansı əsərlərində lirik-fəlsəfi yön daha çox özünü biruzə verir?
7. Bəstəkarın hansı əsəri İ.S.Baxa həsr olunmuşdur?
8. D.Şostakoviçin baletlərinin adlarını çəkin.
9. "Msen qəzasından Ledi Makbet" operasının ikinci redaksiyası necə adlanır?
10. Şostakoviç öz əsərlərində hansı mövzuları açır?

*9-cu dərs:* **D.Şostakoviç. Yeddinci simfoniya C dur (1941).**

Şostakoviçin 15 simfoniyası arasında Yeddinci simfoniya mühüm yerlərdən birini tutur. Simfoniyanın partiturası üzərində "Leninqrad şəhərinə həsr olunur. D.Şostakoviç" müəllif yazısı var.

Simfoniyanın premyerası Kuybışev şəhərində, Bolşoy teatr səhnəsində S.Samosudun rəhbərliyi ilə orkestr tərəfindən ifa olunmuşdur (1941). Simfoniyanın ən əhəmiyyətli premyerası Leninqrad şəhərində baş tutmuşdur. Premyera 1942-ci il avqustun 9-a təsadüf olunmuşdur (1942). Filarmoniyanın salonu tam dolu idi. Aclıqdan, susuzluqdan yorulmuş orkestr ifaçıları özlərində güc taparaq, simfoniyanı ifa etməyə səy göstərmişdilər. Orkestrə Karl Eliasberq dirijorluq etmişdir. "Hər şeyə qalib gələn igidlik simfoniyası" bütün musiqi dünyasını riqqətə gətirmişdir. Dünya şöhrətli dirijorlar sovet səfirliklərinə müraciət edərək Şostakoviçin bu simfoniyasını ifa etmək istəklərini bildirirdilər. Bu simfoniyaya A.Toskanini, S.Kusevitski, L.Stokovski, P.Monte, Y.Mravinski və başqaları dirijorluq etmişdilər.

D.Şostakoviçin Yeddinci simfoniyası hərbi hadisələri o qədər dəqiq ifadə edir ki, onu "musiqi salnaməsi", "musiqi sənədi" adlandırırlar. Simfoniyanın musiqisi dərin faciə xüsusiyyəti ilə hər kəsi heyrətləndirir. Sovet xalqının faşizmə qarşı mübarizəsi iki dünyanın bir-biri ilə mübarizəsini göstərir: idrak, quruculuq, yaradıcılıq dünyası qəddar, məhvedici dünyaya qarşı qoyulur. Simfoniyanın hər bir hissəsində bu mövzu müxtəlif tərzdə göstərilir.

*Birinci hissə* (*Sonata alleqrosu, C dur*) sovet adamının vətəninə qarşı sevgi dolu hisslərindən bəhs edir. Əzəmətli və qəhrəman xarakerli əsas mövzudan sonra

***Birinci hissə. Əsas mövzu:***

[*https://www.youtube.com/watch?v=tFSUclr7VdU*](https://www.youtube.com/watch?v=tFSUclr7VdU)




lirik xarakterli köməkçi mövzu səslənir (G dur). Bu mövzu simlilərin ifasında səslənir və son anda fleyta solo ifasıyla daxil olur.

***Köməkçi mövzu:***

[*https://www.youtube.com/watch?v=tFSUclr7VdU*](https://www.youtube.com/watch?v=tFSUclr7VdU) *(səsləmənin başlanğıcı – 3:02)*




Əsas və köməkçi mövzular arasında təzadlıq yoxdur. Bu təzadlıq birinci hissənin işlənmə bölməsində, "faşist hücumunun epizodu"nun əvvəlində yaranır. "Hücum" epizodu dəyişilməz döyəclənən ritm fonunda səslənir (11 variasiyalı mövzu). Variasiyaların hər biri mövzunu özünəməxsus tərzdə inkişaf etdirir: qorxu dolu anlardan tutmuş qəzəbin hipertrofiyaya uğramış (ən yüksək) dərəcəsinə qədər.

***Birinci hissə. İşlənmə bölməsindən***
***"Epizod":***

[*https://www.youtube.com/watch?v=TVYWZ0kiYXY*](https://www.youtube.com/watch?v=TVYWZ0kiYXY) *(səslənmənin başlanğıcı – 3:19)*



“Simfoniyada eşidilən çuqun addımlı qorxunc hücum sədaları nəinki qulaqla eşidilir, eyni zamanda bütün əzalarla hiss olunurdu, hətta gözlə də görünürdü. Birinci hissənin ifası zamanı hər kəs həyəcan keçirirdi” (R.V.Zaxarovanın xatirələrindən).”Hücum” mövzusuna qarşı “Sovet xalqının müqaviməti” əzəmətli mövzusu qoyulur.

***Birinci hissə. Müqavimət mövzusu:***

https://youtu.be/NUiqFjcHCxQ




Birinci hissənin sonunda (koda) keçmiş gözəl günləri xatırladan sakit və qəmgin mövzu səslənir.

***Birinci hissə. Koda:***

https://www.youtube.com/watch?v=JZulCoW5za4 *(səslənmə vaxtı – 23:34 - 24:05)*




İkinci hissənin girişi yüngül və rahat xarakterlidir (Skerso, h moll).

***İkinci hissə. Giriş:***

https://www.youtube.com/watch?v=rAoT8FXcDBo *(səslənmənin başlanğıcı – 30:59)*




Sonra qoboyun ifasında Şostakoviçin yaratdığı ən lirik mövzulardan biri səslənir.

***İkinci hissə. İkinci mövzu:***

https://www.youtube.com/watch?v=rAoT8FXcDBo *(səslənmənin başlanğıcı – 32:42)*



Orta hissədə düşmən obrazını səciyyələndirən fasiləli, “qeyri-şüuri” mövzu səslənir.

***İkinci hissə. Orta bölmə:***

*[https://www.youtube.com/watch?v=rAoT8FXcDBo](https://www.youtube.com/watch?v=rAoT8FXcDBo) (səslənmənin başlanğıcı – 36:58)*




*Üçüncü hissə* səmimi və xəyalpərəst *Adagiodur*, həlak olmuş insanlara həsr olunmuş rekviyemdir.

***Üçüncü hissə. Əsas mövzu:***

*[https://www.youtube.com/watch?v=rAoT8FXcDBo](https://www.youtube.com/watch?v=rAoT8FXcDBo) (səslənmənin başlanğıcı – 44:34)*




Bu hissənin iradəli, ritmik xarakterli orta hissəsi mübarizə və qələbəyə doğru cəhdi ifadə edir.

Adagio simfoniyanın dördüncü hissəsinə fasiləsiz keçid edir. Bəstəkarın gələcək qələbəyə inamı onu nikbin final yazmasına ruhlandırır.

*Dördüncü hissə* (*Alleqro non troppo*) giriş və üç əsas bölmədən ibarətdir. Litavrların zəif səslənən tremoloları ilə başlanır. Finalın iradəli, qəhrəmanlıq xarakterli əsas mövzusu Bethoven ruhunda yazılmışdır (c moll, birinci bölmə).

***IV hissə. Birinci bölmə:***

*[https://www.youtube.com/watch?v=rAoT8FXcDBo](https://www.youtube.com/watch?v=rAoT8FXcDBo) (səslənmənin başlanğıcı – 1:01:45)*




İkinci bölmə sarabanda ritmli ispan rəqsidir.

***İkinci bölmə:***

https://www.youtube.com/watch?v=rAoT8FXcDBo *(səslənmənin başlanğıcı – 1:07:51)*




Bəstəkar üçüncü bölmədə qələbə çalan sovet insanının obrazını yaradır. Finalın sonunda səslənən birinci hissənin əsas mövzusu yaxşılıq və nurun qalib gəlməsindən xəbər verir.

***Üçüncü bölmə:***

https://www.youtube.com/watch?v=rAoT8FXcDBo *(səslənmənin başlanğıcı – 1:09:11)*




D.Şostakoviçin Yeddinci simfoniyası XX əsrin "Qəhrəmanlıq simfoniyası" kimi adlandırıla bilər.

*Suallar və tapşırıqlar:*

1. Şostakoviçin Yeddinci simfoniyasının premyerası hansı şəhərdə baş tutmuşdur?
2. Simfoniya nəyə həsr olunub?
3. Birinci hissənin quruluşu haqqında danışmaq.
4. Premyerada kim dirijorluq etmişdir?
5. "Hücum epizodu" hansı quruluşda yazılıb?
6. Final hissəsinin əsas mövzusunu xarakterizə etmək.

*10- cu dərs:* **Dmitri Borisoviç Kabalevski (1904-1987). Həyat və yaradıcılığı.**

Dmitri Kabalevski – görkəmli sovet bəstəkarlarından biri, içtimai xadim, görkəmli maarifçi və pedaqoqdur. O, XX əsrin sovet musiqisinə çox böyük töhfə vermiş bəstəkardır.

Bəstəkarın yaradıcılığı janr müxtəlifliyi ilə seçilir: 5 opera ("Kola Brünyon", "Tarasın ailəsi" («Семья Тараса»), "Bacılar" («Сёстры»), "Nikita Verşinin", "Alovda" («В огне»)), kantatalar, simfoniyalar, "Bahar oxuyur" («Весна поёт») operettası, Rekviem, 150-dən çox fortepiano əsərləri, konsertlər (fortepiano üçün – 3, violin üçün – 1, violonçel üçün – 2) mahnılar, kinofilm və tamaşalara yazılmış musiqi.

D.Kabalevski 1904-cü il dekabrın 30-da Peterburqda, müəllim ailəsində anadan olmuşdur. Evlərində hər zaman musiqi sədaları eşidilirdi. Dmitrinin musiqiyə olan sevgisi irsən anasından

keçmişdir. Bəstəkarın anası gözəl səsə malik idi və fortepianoda ifa edirdi. O, Moskvadakı A.Skryabin adına musiqi texnikumunu bitirdikdən sonra Moskva konservatoriyasına daxil olur. Burada o, iki ixtisas üzrə təhsilini davam etdirir: fortepiano (A.Qoldenveyzer) və bəstəkarlıq (Q.Katuar, sonra isə N.Myaskovski).

Konservatoriya illərində Kabalevski fortepiano üçün prelüd, S.Yeseninin sözlərinə yazılmış romans (Təəsüflənmirəm, çağırmıram, ağlamıram) və violonçel üçün pyeslər yazmışdır. Diplom işi kimi bəstəkar Birinci fortepiano konsertini və Birinci kvartetini təqdim edir.

30-cu illərin əvvəllərində ölkədə səsli kino yaranır və məşhur rejissor Q.Roşalın təklifi ilə D.Kabalevski "Peterburq gecəsi" («Петербургская ночь») və "Anton İvanoviç əsəbləşir" («Антон Иванович сердится») kinofilmlərinə musiqi yazır.

30-cu illərdə böyük həcmli əsərlər arasında üç simfoniya, İkinci fortepiano konserti, fransız yazıçısı Romen Rollanın əsəri əsasında yazılmış "Kalamsidən olan sənətkar" («Мастер из Каламси») operası (ikinci redaksiyada "Kola Brünyon" kimi adlandırılmışdır).

"Kola Brünyon" operası – sovet opera sənətinin ən gözəl səhifələrindən biridir. Əsərin musiqisi fransız folkloru əsasında yazılıb və parlaq melodik parça ilə seçilir.

Bəstəkarı hər zaman şən, aydın uşaqlıq və cavanlıq obrazları cəlb edirdi. Kabalevski uşaqlar üçün çox sayda mahnı yazmışdır. Bu mahnılar arasında "Parovoz", "Quş evi" (Птичий дом»), "Bir may" («Первое мая») kimi mahnılarını qeyd etmək olar.

Müharibə mövzusu bəstəkarın 40-cı illərə aid olan bir çox əsərlərində əks olunub. Onların arasında "Alovun içində" («В огне») operası, "Xalq qisasçıları" («Народные мстители») süitası, "Böyük Vətən" («Родина великая») kantatası, "Bizə qalib gəlmək olmaz" («Нас победить нельзя»), "Oğula nəsihət" («Наказ сыну»), "Dörd mehriban dost" («Четвёрка дружная ребят») mahnıları vardır. Müharibə illərinin insanlarının əhval-ruhiyyəsi "24 prelüd" fortepiano silsiləsində göstərilmişdir (N.Myaskovskiyə həsr olunub).

40-cı illərin sonunda bəstəkar ilk dəfə olaraq ingilis poeziyasına müraciət edir. O, fortepianonun müşayiəti ilə bas üçün "V.Şekspirin on soneti" («Десять сонетов У.Шекспира») yazır.[13]

Müharibədən sonrakı dövr bəstəkarın yaradıcılığının çiçəklənən dövrü olmuşdur. 1952-ci ildə bəstəkar violin və orkestr üçün yazılmış konsertini bitirir (burada o, ikinci hissədə "Bizim diyar" («Наш край») mahnısının mövzusunu istifadə edir).Bu əsər violin (1943) və violonçel (1949) konsertləri ilə bərabər gənclik konsert triadasına daxil olmuşdur.

Sovet gəncliyinin obrazı onun ən yaxşı simfonik əsərlərindən birində – Dördüncü simfoniyasında öz təcəssümünü tapır. Konsertlərlə yanaşı bəstəkar "Tarasın ailəsi" operası üzərində də işləyir (Boris Qorbatovun "İtaətsizlər" povesti əsasında).

60-cı illərdə bəstəkarın möhtəşəm əsərlərindən biri – Robert Rojdestvenskinin sözlərinə yazılmış "Rekviem" əsəri yazılmışdır. 60-cı illərin sonlarında Kabalevski "Bacılar" («Сёстры», İlya Lavrovun "Möcüzə ilə görüş" povesti əsasında yazılmışdır) operasını, "Akademik Pavlov", "Musorqski", "Azad adam" («Вольница»), "Tutqun səhər" («Хмурое утро»), "Dərd üstündən dərd" («Хождение по мукам») və s. əsərlər bəstələmişdir.

D.Kabalevski 40 ildən artıq Moskva konservatoriyasında pedaqoji fəaliyyət göstərmişdir, sonra isə Mexiko konservatoriyasının professoru təyin olunmuşdur.

Kabalevski gözəl musiqiçi olmaqla yanaşı qabaqcıl ictimai xadim kimi də tanınırdı. O, YUNESKO nun nəzdində fəaliyyət göstərən Musiqi təhsili Beynəlxalq ictimaiyyəti bölməsinin prezidenti, SSSR-nin Pedaqoji Elmləri Akademiyasının həqiqi üzvü olmuşdur. 1973-cü ildə D.Kabalevski musiqi təhsilinin Laboratoriyasını yaradır və 1983-cü ilə qədər bu Laboratoriyaya rəhbərlik edir. Laboratoriyanın işi nəticəsində, orta ümumtəhsil məktəblər üçün musiqi dərsinin yeni proqramı hazırlanır. Məhz Kabalevskinin sayəsində çox illər ərzində özünün baş redaktoru olduğu "Məktəbdə musiqi" jurnalı işıq üzü görür.

---

[13] Sonet – 14 sətrdən ibarət olan poetik formadır.

Bəstəkarın fəaliiyətinin mühüm məqamlarından biri onun radioda uşaqlar üçün hazırladığı verilişlər silsiləsi olmuşdur. Burada o, musiqi və musiqiçilər haqqında söhbətlər aparırdı. Gələcək illərdə bəstəkar musiqi haqqında fikirlərini "Mənim əziz dostlarım" («Дорогие мои друзья»), "Uşaqlara musiqini necə aşılamaq" («Как рассказывать детям о музыке»), Üç balina və bir çox başqa şeylər haqqında" («Про трёх китов и про многое другое») adlı kitablarında yazır.

D.Kabalevski 1987-ci il fevralın 14-də vəfat edir.

*Suallar və tapşırıqlar:*

1. D.Kabalevskinin mahnılarının adlarını söyləyin.
2. D.Kabalevskinin əsərlərinin əsas mövzusu.
3. 1973-cü ildə D.Kabalevski nə yaratmışdır?
4. D.Kabalevskinin musiqi kitablarının hansıları uşaqlara həsr olunub?

*11- ci dərs:* **D.Kabalevski. Fortepiano və orkestr üçün Üçüncü konsert D dur (1952).**

Sovet uşaq musiqisi tarixində D.Kabalevskinin adı ən ehtiramlı yerlərdən birini tutur. Onun uşaqlar üçün yazdığı çoxjanrlı əsərləri arasında Konsert triadası gənc ifaçıların rəğbətini və sevgisini qazanmışdır. Bu əsər sovet gəncliyinə həsr olunmuşdur. Triada violin və orkestr üçün Konsert (C dur, 1948), violonçel və orkestr üçün Konsert (g moll, 1949), fortepiano və orkestr üçün Konsertdən (D dur, 1952) ibarətdir. Bu əsərlər silsilə formasında nəzərdə tutulmuşdur, lakin eyni zamanda onlardan hər biri ayrı-ayrılıqda da ifa oluna bilər. Hər üç konsertdə orkestr partiyası böyük kollektiv üçün nəzərdə tutulub, solistlərin partiyası isə gənc musiqiçilərə həvalə olunub.

Konsertlərin tematikliyi mahnıvarı xüsusiyyət daşıyır və melodik cəhətdən çox zəngindir. Bu əsərlərdə, özündə qəm-qüssə və həyəcan duyğularını cəmləşdirən, şən əhval-ruhiyyəli, erkən gənclik aləmi təcəssüm olunur. Musiqidə saf, aydın obrazlar üstünlük təşkil edir.

Üçüncü fortepiano konserti ilk dəfə olaraq 1953-cü ildə Moskva konservatoriyasının Böyük salonunda tamaşaçılara təqdim olunmuşdur. Fortepiano partiyasını konservatoriyanın nəzdindəki Mərkəzi musiqi məktəbinin şagirdi Vladimir Aşkenazi ifa edirdi.

Konsert üç hissədən ibarətdir.

Birinci hissə *sonata alleqrosu* formasında yazılıb. Şəffaf, skersosayağı xarakterli əsas mövzu (D dur)

***Birinci hissə. Əsas mövzu:***

https://www.youtube.com/watch?v=9GRBXmGKKNM




həzin, ahəngli köməkçi mövzu (a moll) ilə əvəz olunur.

***Birinci hissə. Köməkçi mövzu:***

https://www.youtube.com/watch?v=9GRBXmGKKNM *(səslənmənin başlanğıcı – 0:46)*




Mövzu etibarilə birinci hissə Violin konsertinin I hissəsinə bənzəyir. İşlənmə bölməsində sərt xüsusiyyətli mövzu səslənir (d moll). Burada köməkçi mövzu himnsayağı səciyyələnir.

Repriza bölməsində isə bu mövzu mahnıvarı, lirik xarakterdə səslənir (h moll) və tədricən apofeoza yaxınlaşır. Koda əsas mövzunun elementləri üzərində qurulub.

*İkinci hissə* (g-moll) üçhissəli formada yazılıb. Bu hissə konsertin lirik mərkəzi hesab olunur. İki dəfə ardıcıl olaraq qüssəli, mahnıvarı melodiya səslənir: əvvəlcə fortepianoda, sonra isə orkestrdə.

***İkinci hissə. Əsas mövzu:***

https://www.youtube.com/watch?v=--0JIFX565c




D.Kabalevski bu hissənin orta bölməsində müəllifi olduğu mahnıdan istifadə edir (üç variasiyalı mövzu).

D. Kabalevski qeyd edirdi: “Bizim diyar” mahnısını konsertə salmaqda məqsədim odur ki, bizim gənc ifaçılarımız və dinləyicilərimiz hiss etsinlər və bilsinlər ki, bu musiqi onların özlərindən bəhs edir – bizim uşaqlarımızdan, gənclərimizdən, Sovet diyarının insanlarından və təbiətindən”.

***İkinci hissə. “Bizim diyar” («Наш край») mahnsının mövzusu:***

https://www.youtube.com/watch?v=--0JIFX565c (səslənmənin başlanğıcı – 1:41)




Tədricən dramatikləşməyə doğru gedən mövzu kulminasiya nöqtəsinə çatır (mövzu *ff* ilə səslənir). Repriza başlayır.

*Üçüncü hissə* (D dur) rondo-sonata formasında yazılıb. Dramaturgiya baxımından bu hissə nəinki konsert, həm də bütövlükdə konsert triadası üçün çox böyük əhəmiyyət kəsb edir: bəstəkarın ümumi nikbin ideyası aydın olur.

Yüngül, “pərvazlanan” əsas mövzu

***Üçüncü hissə. Əsas mövzu:***

https://www.youtube.com/watch?v=s9cotkwYVhY (səslənmənin mövzusu – 1:21)




mahnıvarı köməkçi mövzu ilə əvəzlənir,

***Üçüncü hissə. Köməkçi mövzu:***

https://www.youtube.com/watch?v=s9cotkwYVhY (səslənmənin başlanğıcı – 2:34)




sonra isə irihəcmli marş epizodu səslənir.

***Üçüncü hissə. Marş epizodu:***
[https://www.youtube.com/watch?v=s9cotkwYVhY (səslənmənin başlanğıcı – 4:30)](https://www.youtube.com/watch?v=s9cotkwYVhY)



Konsert triadasından sonra D.Şostakoviçin, A.Balançivadzenin, Q.Həsənovun, A.Rzayevin, N.Silvanskinin bir sıra uşaq konsertləri yaranmışdır.

*Suallar və tapşırıqlar:*

1. D.Kabalevskinin Konsert triadasına hansı konsertlər daxildir?
2. Konsertlər mövzu etibari ilə nədən bəhs edir?
3. Üçüncü konsertin fortepiano partiyasının ilk ifaçısı kim olmuşdur?
4. Konsertin ikinci hissəsində D.Kabalevski hansı mahnıdan istifadə etmişdir?
5. Birinci hissənin mövzularını xarakterizə edin.
6. Üçüncü hissənin dramaturji əhəmiyyəti.
7. Hansı bəstəkarlar D.Kabalevskidən sonra uşaq konsertlərinə müracət etmişdilər?

*12- ci dərs:* **Georgi Vasilyeviç Sviridov (1915 – 1998). Həyat və yaradıcılığı.**

Georgi Sviridov – istedadlı sovet bəstəkarlarından biridir. O, rus musiqisində yeni cərəyan yaratmışdır və bu səbəbdən bəstəkarı “musiqidəki şair” adlandırırdılar. Sviridovun yaradıcılığı rus folkloru, poeziyası, rəssamlıq və ikona çəkmə sənəti ilə sıx bağlı idi.

Onun əsərlərinin əsas mövzusu – Vətən mövzusu olmuşdur. Bu əsərlərdə Rusiyanın nağılvarı, ovsunlayıcı siması (Rusiya – “gəlin”, Rusiya – “üçlük”), eləcə də onun tarixi reallığını əks etdirən lövhələr canlanır.

G.Sviridov 1915-ci il dekabrın 16-da Fatej şəhərciyində (Kursk vilayəti yaxınlığında), poçt qulluqçusu ailəsində anadan olmuşdur. Balaca Yura (uşaqlıq adı) kiçik rus kəndlərinin ecazkarlığını, xalq mahnılarını, rəqslərini və xorovodlarını canlı surətdə izləyərək, onları dərindən mənimsəmişdir. Oğlanın 9 yaşı tamam olanda, ailəsi ilə birgə Kursk vilayətinə köçür. Burada o, müstəqil surətdə balalaykada ifa etməyi öyrənir. Çox keçmədən Yura həvəskar xalq çalğı alətləri orkestrinin üzvlərindən biri olur.

14 yaşlı gənc oğlan Kursk musiqi məktəbinə daxil olur (fortepiano sinfi). Məhz bu illərdə ilk dəfə olaraq, o, bəstəkar kimi özünü sınayır. Müəllimləri ona təhsilini davam etdirməyini məsləhət görürlər. Gənc oğlan Leninqrad şəhərinə yola düşür və Leninqrad mərkəzi musiqi texnikumuna daxil olur (1932). G.Sviridov diplom işi kimi A.Puşkinin şeirlərinə yazılmış altı romansdan ibarət vokal silsiləsini təqdim edir. Dahi şairin yaradıcılığına bəstəkar bir neçə dəfə müraciət edir. İlk dəfə olaraq, məhz bu əsərdə bəstəkarın individual xüsusiyyətləri əks olunur.

Gənc bəstəkarın istedadı yüksək qiymətləndirilir və o, Bəstəkarlar İttifaqının üzvlüyünə qəbul olunur (1936). Elə həmin ildə G.Sviridov Leninqrad konservatoriyasına daxil olur (1938-ci ildən D.Şostakoviçin sinfində oxuyur). Konservatoriya illərində bəstəkarın fortepiano və orkestr üçün konserti, Birinci simfoniyası, və fortepiano əsərləri işıq üzü görür. Bu əsərlərdə bəstəkar klassik və romantik musiqi ənənələrini davam etdirir. D.Şostakoviçin dərslərində G.Sviridov müasir xarici və rus musiqisinin sirlərini öyrənərək, öz bəstəkarlıq texnikasını zənginləşdirir.

D.Şostakoviçin yaradıcılığının təsiri G.Sviridovun müharibə illərində yazmış olduğu əsərlərində öz əksini tapır: fortepiano triosu, sovet musiqişünası, tənqidçisi İ.Sollertinskinin

xatirəsinə həsr olunmuş fortepiano sonatası, A.Prokofyevin sözlərinə yazılmış “Qəsəbə lirikası” («Слободская лирика») vokal silsiləsi. Elə bu dövrdə bəstəkar “Əsl adaxlı” («Настоящий жених») operettası və Mixail Şoloxovun romanı əsasında “Dirçəldilmiş torpaq” («Поднятая целина») kinofilminə musiqi yazır.

G.Sviridovun oratoriya janrının inkişafında da əhəmiyyətli rolu olmuşdur (50 – 60-cı illər). Burada o, novator kimi çıxış edir. İlk dəfə olaraq, məhz onun “Patetik oratoriya” əsərində “nəğməyəyatımlı olmayan” V.Myaskovskinin şeirləri istifadə olunur. Xor və orkestr tərkibi genişləndirilmişdir.

Mixail Şveyserin eyniadlı kinofilminə yazılmış musiqi əsasında G.Sviridovun “Vaxtdır, irəliyə” («Время, вперёд!») simfonik süitası populyar əsərlərdən biridir. Bu süitanın altıncı hissəsi daha çox məşhurdur. 1968-ci ildə Rusiyanın Mərkəzi televiziyasında gündəlik yayımlanan “Vremya” informasiya verilişi bu günədək bu musiqi sədaları müşayiəti ilə efirə gedir.

Bəstəkar bir sıra monumental-vokal əsərlər yazmışdır. Onların arasında “Sergey Yeseninin xatirəsinə Poema” oratoriyası, xalq sözlərinə yazılmış “Kursk mahnıları” kantatası kimi əsərlər vardır. Eyni zamanda o, “Peterburq nəğmələri” (A.Blokun sözlərinə) vokal silsiləsi, “Vaxtdır, İrəli!” simfonik süita, A.Puşkinin “Boran” povestinə yazılmış musiqili lövhələr, kiçik kantatalar – “Hərəkətsiz Rusiya” («Деревянная Русь») (S.Yeseninin sözlərinə) və “Qar yağır” (B.Pasternakın sözlərinə), romanslar və bir çox başqa əsərlər yazır.

G.Sviridov 1998-ci ildə, Moskva şəhərində vəfat etmişdir.

*Suallar və tapşırıqlar:*

1. G.Sviridovu necə adlandırırdılar?
2. G.Sviridovun yaradıcılığında aparıcı mövzu nə idi?
3. G.Sviridovun əsərlərini sadalamaq.
4. G.Sviridovun yaradıcılığında hansı janr öz inkişafını tapmışdır?
5. “Vaxtdır, irəli” simfonik süita haqqında danışmaq.
6. Hansı bəstəkarın yaradıcılığının təsiri altında müharibə illərinə aid əsərlər yaranmışdır?

*13-cü dərs:* **G.Sviridov. A.Puşkinin “Boran” povestinə yazılmış musiqili lövhələr.**

1964-cü ildə tanınmış sovet rejissoru Vladimir Basov özünün səhnələşdirdiyi “Boran” kinofilminin musiqisini yazdırmaq üçün G.Sviridova müraciət edir. Filmin süjet əsasını A.S.Puşkinin eyniadlı povesti təşkil edir. Bu film mülkədar qızı Mariya Qavrilovnanın və gizir Vladimirin qarşılıqlı məhəbbətindən, onların gizlicə nikahlanmaq qərarından bəhs edir. Nikah günü Vladimir borana düşür. Mariya isə kilsədə onun yolunu gözləyir. Bu vaxt borandan dolayı azmış qusar polkovniki Burmin kilsəyə daxil olur. Hər kəs onun Vladimir olduğunu zənn edir. Mariya həyəcanlı və bayğınlıq vəziyyətində, mövcud durumdan bixəbər, Burmin ilə nikahlanır. Sonra qəfildən ona nəzər yetirincə, böyük anlaşılmamazlığın fərqinə varır. Burmin çıxıb gedir, Vladimir isə səhərə yaxın kilsəyə gəlib çatır, lakin orada heç kimin olmadığını görür. O, könüllü olaraq müharibəyə yollanır və orada həlak olur. Üç il keçdikdən sonra Mariya, şəxsi malikanəsinə gəlmiş polkovniklə tanış olur. Böyük bir təsadüf nəticəsində bu insanın Mariyanın bilmədən evləndiyi adaxlısı olduğu ortaya çıxır. Onlar birlikdə xoşbəxt olurlar.

G.Sviridov böyük maraqla bu işə başlayır. Bəstəkar öz əsərində A.Puşkinin süjet xəttindən kənara çıxır. İlk öncə bəstəkar A.Puşkinin povestinə məxsus olan istehzadan uzaqlaşır. Kinofilmə yazılmış musiqi olduqca bədii və məzmunlu alınıb. Filmin ilk nümayişindən sonra tənqidçilər bu əsəri “Puşkin” povestinin musiqili variantı adlandırırdılar.

10 il ötdükdən sonra kinofilmə yazılmış musiqi əsasında bəstəkar orkestr üçün süita yaradır və bu süitaya 9 pyes daxil edilir:

1. “Üçlük” («Тройка»)
2. “Vals” («Вальс»)
3. “Yaz və payız” («Весна и осень»)
4. “Romans” («Романс»)

5. “Pastoral” («Пастораль»)
6. “Hərbi marş” («Военный марш»)
7. “Nikah” («Венчание»)
8. “Valsın sədaları” («Отзвуки вальса»)
9. “Qış yolu” («Зимняя дорога»)

Bəstəkar sözügedən süitanı “A.Puşkinin “Boran” povestinə yazılmış musiqi lövhələri” adlandırır. Beləliklə, G.Sviridovun yaradıcılığında yeni janr meydana gəlir – musiqili lövhələr.

*“Üçlük”* nömrəsi mis nəfəsli alətlərin əzəmətli akkordları ilə başlayır və qarşıda dramatik hadisələrin olacağından xəbər verir. Alətlərin səs xüsusiyyətləri və imkanlarından istifadə edərək bəstəkar valehedici qış mənzərəsini və uzaqlara çapan üçlüyü təsvir edir.

***“Üçlük” («Тройка»):***
[https://www.youtube.com/watch?v=BBqLk6j19hc](https://www.youtube.com/watch?v=BBqLk6j19hc)




*“Vals”* süitanın ən populyar nömrələrindən biridir. Şeypur səsi bayramın başlamasından xəbər verir. Möhtəşəm vals qonaqları şənləndirir.

***“Vals”:***
[https://www.youtube.com/watch?v=ES3vbPcm-3o](https://www.youtube.com/watch?v=ES3vbPcm-3o)




*“Yaz və payız”*. İki kiçik miniatür rus təbiətinin gözəlliyini canlandırır.

*“Romans”*. Özündə qəm-qüssə, kədər əks etdirən zərif melodiya pianonun müşayiəti ilə violin və altlara həvalə olunub (Mariya Qavrilovnanın Burmin ilə səhnəsi).

**“Romans”:**
https://www.youtube.com/watch?v=m5zSB6Km4ns




*“Pastoral”*. Qoboyun ifasında sakit, həzin melodiya səslənir və kənd təbiətini təsvir edir.

**“Pastoral”:**
https://www.youtube.com/watch?v=DeH35lROBB8




*“Hərbi marş”*. Bu nömrənin musiqisi əvvəlki nömrələrlə təzadlıq təşkil edir. Nəfəsli alətlərin qüvvətli səsi həyatsevər, cavan zabitlərin obrazlarını canlandırır.

***Hərbi marş («Военный марш»):***
https://www.youtube.com/watch?v=-tEute5F6Og




*“Nikah”*. Musiqi sanki dinləyicini nikah mərasimi keçirilən kiçik bir kilsəyə aparır.

*“Valsın sədaları”*. Burada ilk məhəbbəti xatırladan ikinci nömrədəki musiqi səslənir, lakin bu dəfə bu melodiya o qədər də parlaq səslənmir.

***"Valsın sədaları" («Отзвуки вальса»):***
[https://www.youtube.com/watch?v=p_TanFMcoX8](https://www.youtube.com/watch?v=p_TanFMcoX8)




Süita *"Qış yolu"* pyesi ilə tamamlanır. O, yenidən sürətlə çapan üçlük obrazını təsvir edir. Musiqi bir qədər sakit səslənir. Bu əhvalat əsas qəhrəmanlar üçün uğurlu sonluqla bitir.

G.Sviridovun musiqisi sayəsində "Puşkin" dövrü müasir dinləyiciyə daha yaxın və aydın göstərilmişdir.

*Suallar və tapşırıqlar:*

1. "Boran" kinofilmi üçün musiqinin yazılması G.Sviridova kim tərəfindən təklif olunmuşdur?
2. Süita neçə nömrədən ibarətdir? Onları sadalamaq.
3. Povestin əsas qəhrəmanlarını adlandırın.
4. G.Sviridovun yaradıcılığında hansı yeni janr yaranmışdır?

*14- cü dərs:* **Rodion Konstantinoviç Şedrin (1932). Həyat və yaradıcılığı.**

Rodion Şedrin müasir dövrün görkəmli bəstəkarı, pianoçusu və dirijorudur. O, "Altmışıncılar" adlanan (XX əsrin 60-cı illərində sovet incəsənətinin qabaqçıl sənətkarları) bəstəkarlar nəslinə aid olunur. Şedrin 7 opera, 5 balet, 3 simfoniya, 14 konsert, bir çox kamera-instrumental, vokal, xor musiqisi, və həmçinin kino və teatr tamaşaları üçün musiqinin müəllifidir.

Şedrin rus musiqisinin ənənələrini qoruyaraq özünə məxsus orijinal musiqi dilini və bəstəkarlıq üslubunu yaratmışdır. Onun cəsarətli fikirləri hər zaman dinləyicini həyəcanlandırırdı. Bəstəkar sanki uyğunlaşmayanı uyğunlaşdıra bilirdi (rus folklorunu caz ilə, məişət janrlarını polifoniya ilə).

Şedrinin novatorluğu sərhədsiz idi. Rus müziklinin yaranması, çastuşka janrının orkestr üçün konsertə daxil edilməsi ("Məzəli bədiyələr" («Озорные частушки»)), kollaj prinsipinin istifadəsi (əsərdə digər və yaxud müəllifi olduğu mövzuların istifadəsi) ilk olaraq məhz Şedrinin yaradıcılığında öz əksini tapmışdır. Məsələn, Şedrin P.Çaykovskinin Birinci konsertindən olan mövzusunu özünün Üçüncü fortepiano konsertində istifadə etmişdir. Bu mövzunu Şumanın, Şopenin, Qriqin, Skryabinin və yaxud Prokofyevin konsertlərindən götürülmüş mövzularla əvəz etmək olardı. Konsert və oratoriya janrlarının birləşməsi nümunəsi R.Şedrinə aiddir ("Poetoriya" musiqi əsərində orkestrin müşaiyəti ilə şair şer söyləyir).

R.Şedrin 1932-ci ildə, dekabrın 16-da Moskva şəhərində, musiqiçi ailəsində anadan olmuşdur. Balaca oğlan kamil musiqi qavrama qabiliyyətinə və əla musiqi yaddaşına malik idi. Valideynləri ona erkən uşaqlıq illərindən başlayaraq musiqiyə sevgini aşılamışdılar. Onun birinci müəllimi atası olmuşdur.

Böyük Vətən müharibəsinin başlanması Rodionun Mərkəzi musiqi məktəbindəki təhsilini yarımçıq qoyur. Bəstəkarın ailəsi Kuybışevə (Samara) təxliyə olunur. Burada Şedrinə D.Şostakoviçin Yeddinci simfoniyasının məşqlərində iştirak etmək nəsib olur. Onun, müasir

dövrün dahi bəstəkarı ilə tanışlığı məhz belə baş vermişdir və bu tanışlıq gələcəkdə onun musiqiçi kimi formalaşmağına səbəb olmuşdur.

Moskvaya qayıtdıqdan sonra Rodionu Moskva xor məktəbinə yazdırırlar (1944). Bu zamana qədər bəstəkarın artıq fortepiano üçün poeması, *a capella* xorları (Puşkinin "Ukrayna gecələri sakitdir" əsəri əsasında), xalq mahnılarının işlənmələri işıq üzü görmüşdür.

Müharibədən sonra gənc oğlan Moskva konservatoriyasına iki ixtisas üzrə daxil olur: bəstəkarlıq (Y.Şaporinin sinfi) və fortepiano (Y.Flierin sinfi).

Bəstəkar konservatoriya illərində müxtəlif janrlı əsərlər yazır: etüdlər, "Albenisə oxşatma" [14] («В подражание Альбенису») və "Yumoreska" proqramlı pyesləri, fortepiano kvinteti və s. Şedrin konservatoriyanı bitirərkən diplom işi qismində Birinci fortepiano konsertini təqdim etmişdir. Bu klassik musiqidə bəstəkar ilk olaraq çastuşka janrından istifadə edir. Moskvada konsertin uğurlu ifasından sonra hər kəs Şedrin haqqında danışırdı. Tezliklə gənc tələbə Bəstəkarlar İttifaqanın üzvü seçilmişdir. D.Kabalevski "Bolşoy teatr müdiriyyətinə "Kiçik Donqarlı At" («Конёк-горбунок») baletinin yazılmasını Şedrinə həvalə etmələrini məsləhət görür. Baletin məşqlərindən birində Şedrin gələcək həyat yoldaşı Maya Plisetskaya ilə tanış olur.

R.Şedrin yaratdığı əsərlərində müasir bəstəkar yazı üslubundan və müxtəlif üsullardan istifadə etmişdir:

dodekafoniyadan (" on iki tonlu" seriyadan),

sonorikadan (klasterlərin tembr səslənməsi – kiçik və böyük "yapışmış" sekundaların ahəngindən),

puatilizmdən (fransız söz. "nöqtələrlə yazmaq". Burada musiqi fikri melodiya şəklində deyil, pauza və iki-üç səsdən ibarət motivlərlə əhatə olunmuş qırıq səslərin vasitəsi ilə səslənir),

polistilistikadan (müxtəlif üsulların elementlərinin birləşməsi).

Buna baxmayaraq bəstəkar vurğulayır: "D.Şostakoviç, İ.Bax, V.Mosart, İ.Brams, İ.Stravinski mənim üçün hər zaman bir nümunə olublar".

R.Şedrin öz əsərlərində müxtəlif mövzu və obrazları göstərir: tarixi (xor operası "Boyarınya Morozova"), folklor ("Yalnız sevgi deyil" («Не только любовь») operası, "Kiçik Donqarlı At" («Конёк-горбунок») baleti, "Məzəli bədiyələr" («Озорные частушки») və "Zənglər" («Звоны») orkestr üçün konsertlər), ədəbi (Puşkinin "Razinin edamı" («Казнь Разина»)) əsəri əsasında qarışıq xor üçün poema, Qoqolun əsəri əsasında "Ölü ruhlar" («Мёртвые души») operası, Nabokovun əsəri əsasında "Lolita" operası və s.).

Şedrinin yaradıcılığının lirik-dramatik xətti onun "Anna Karenina" (L.Tolstoy), "Karmen-süita" (J.Bizenin musiqisi əsasında), "Çayka" və "Xanım iti ilə" («Дама с собачкой») (A.Çexov) baletlərində öz inkişafını tapır. Bu baletlərdə əsas partiyaları Maya Plisetskaya ifa edirdi.

1973-cü ildə R.Şedrin RSFSR-in Bəstəkarlar İttifaqının sədri vəzifəsinə seçilmişdir. Mütərəqqi musiqiçinin bu vəzifəyə təyinatı müasir musiqi sənətinin inkişafında çox əhəmiyyətli rol oynamışdır. 90-cı illərin əvvəllərində bəstəkar Almaniyaya köçür. Həmin vaxtdan Şedrinin musiqisinə həsr olunmuş festivallar keçirilməyə başlayır. "Dərin iz buraxmış mələk" («Запечетлённый ангель») adı altında ən böyük Ümumrusiya festivalı bəstəkarın 85 illik yubileyi şərəfinə keçirilmişdir (2017).

1990 – 2000-ci illərdə bəstəkar intensiv şəkildə musiqi yazır. Simfonik orkestr üçün "Rusiyanın xaçlanmasının minilliyinə yazılmış ibadət nəğməsi" («Стихира на тысячилетие крещения Руси»), "Valeh olmuş səyyah" («Очарованный странник») operası (iki pərdəli, üç

[14] İsaak Albenis – ispan bəstəkarı və pianoçu.

solist xor və orkestr üçün, librettossu özünə aid Nikolay Leskovun povesti əsasında, 2002), "Boyarınya Morozova"[15] xor operası (2012).

R.Şedrinin yaradıcılığında instrumental konsert janrı da mühüm yerlərdən birini tutur. Onların bir çoxu dünyanın görkəmli musiqiçilərinə həsr olunmuşdur. Belə ki, violonçel üçün konsert *"Sotto voce concerto"* M.Rostropoviçə, alt üçün birhissəli konsert *"Concert dolce"* Y.Başmetə, Dördüncü fortepiano konserti "Diyezli tonallıqlar" isə *"Steinway"* [16] məşhur fortepiano firmasının 100 illiyinə həsr olunub.

Janr istiqamətindən asılı olmayaraq Rodion Şedrinin musiqisi üsul baxımından qüsursuzdur, əsasən proqramlıdır və daima zərif və intellektualdır!" (Moskva konservatoriyasının kamera xorunun rəhbəri A.Solovyov).

***Fortepiano üçün "Albenisə oxşatma"***
***(«В подражание Альбенису»):***
*https://www.youtube.com/watch?v=SiEsOmBXVNo*




***"24 prelüd və fuqa" – prelüd və fuqa lya minor.***
***Prelüd:***
*https://www.youtube.com/watch?v=ukFgnTn95MI*




[15] Feodosiya Morozova – Rus dövləti tarixində böyük rol oynamış köhnə təriqətçi qadın. Ölümündən sonra müqəddəslər sırasına daxil edilmişdir.Tanınmış rus rəssamı Vasili Surikov bu obrazı "Boyarınya Morozova" əsərində təsvir etmişdir.
[16] "Stainway and Sons" («Стейнвей и сыновья») – dünya üzrə tanınmış amerika firması, fortepiano istehsalçısı. 1853-cü ildə təsis olunmuşdur.

***Fuqa:***

[https://www.youtube.com/watch?v=ukFgnTn95MI](https://www.youtube.com/watch?v=ukFgnTn95MI) *(səslənmənin başlanğıcı – 0:40)*




*Suallar və tapşırıqlar:*

1. R.Şedrinin müəllimlərinin adlarının söyləyin.
2. R.Şedrinin novatorluğu.
3. R.Şedrin hansı əsərlərində folklor mövzularından istifadə etmişdir?
4. “*Steinway*” firmasının 100 illik yubileyinə hansı əsər həsr olunmuşdur?
5. R.Şedrinin həyat yoldaşı hansı sənət sahibidir?
6. R.Şedrin öz əsərlərində bəstəkar üslublarının hansı növlərindən istifadə etmişdir?

*15 – 16-cı dərslər.* **XX əsrin son rübünün sovet və rus bəstəkarları.**

XX əsrin 60-cı illərində Rusiyanın musiqi həyatına yeni istedadlı bəstəkarlar nəsli daxil olur. Onların yaradıcılığı sovet musiqi sənətində yeni səhifə açmışdır. Bu nəslin parlaq nümayəndələri E.Denisov, S.Qubaydulina, V.Qavrilin, A.Şnitke, A.Petrov, S.Slonimski, B.Tişenko və digərləri olmuşdular. Onlardan bəziləri musiqi dilini kökündən dəyişərək bəstəkarlıq üslublarını yeniləyir, digərləri isə yeniliklər axtarışında xalq mahnılarına müraciət edirlər (Q.Sviridovun ənənələrinin davamçıları).

*Valeri Qavrilin* (1939 – 1999). Sovet və rus bəstəkarı. Voloqodsk vilayətində anadan olmuşdur. O, Leninqrad konservatoriyasını musiqişünas, folklorşünas və bəstəkar kimi bitirmişdir (müəllim O.Yevlaxov). V.Qavrilin sovet musiqisində yaranmış yeni istiqamət – “yeni folklor dalğası” nın nümayəndəsi olmuşdur. Bu cərəyanın bəstəkarları ənənəvi xalq musiqisini onun orijinal formasında peşəkarcasına öyrənirdilər. Onların yaradıcılığında ənənəvi xalq sənətinin professional sənətlə qarşılıqlı əlaqəsi yaranır. Qavrilin həm klassik, həm də avanqard musiqisində ruhuna yaxın məqamlar tapırdı. Onun yaradıcılığının əsas janrı dramatik tamaşa olmuşdur. O, 80 tamaşaya musiqi yazıb. Onların arasında “Sevdiklərinizdən ayrılmayın” («С любимыми не расставайтесь»), “Stepan Razin” (Stepan Razin – Don döyüşçüsü, car rusiyası dövrünün inqilab başçısı olmuşdur). Yaratdığı yeni janrda (hərəkət) Qavrilin oratoriya, balet, opera, vokal silsilə, simfoniya, dramatik tamaşa xüsusiyyətlərini birləşdirir (“Zəng səsi” «Перезвоны» simfoniya-hərəkət). Onun yaradıcılığı janr müxtəlifliyi baxımından fərqlənir. Bunların arasında estrada musiqisi (“İki qardaş” («Два брата»), “Atlar çapır” (Скачут кони»)), opera janrı (“Violin çalan Vanyuşa haqqında” («О скрипаче Ванюше»)), balet janrı (Qoqolun əsəri əsasında – “Balzaminovun nikahlanmağı” («Женитьба Бальзаминова»), Kuprinin povesti əsasında – “İkinci leytenant Romaşov” («Подпоручик Ромашов»)), telebaletlər (Çexovun “Anyuta”, Tvardovskinin “Yol qırağında ev” («Дом у дороги»)), vokal musiqisi (Geynenin üç “Alman dəftəri” və s.) vardır.

*Alfred Şnitke* (1934 – 1998). Sovet və rus bəstəkarı, musiqişünas, müəllim. O, Engelsdə, yəhudi-alman ailəsində doğulmuşdur. Musiqi təhsilini Vyanada almışdır (atası ora ezam olunmuşdur). Vətənə qayıtdıqdan sonra Moskva konservatoriyasının bəstəkarlıq fakültəsinə daxil olur (müəllim Y.Qolubevin sinfi). Bu bəstəkarın yaradıcılığında bir neçə mövzu öz əksini tapmışdır: dünya şərinə qarşı mübarizə, atom bombardmanının faciəsi (oratoriya "Naqasaki"), yaxşılıq və satqınlıq. A.Şnitkenin əsərlərinin əsasını qədim xorallar, gitara havaları, müxtəlif məişət rəqsləri, caz, klassik və avanqard musiqisi təşkil edir. İlk dəfə olaraq məhz Şnitke musiqiyə "instrumental teatr" (musiqiçilərin səhnə ilə hərəkəti) anlayışını gətirir.

Onun əsərləri arasında "Səfehlə həyat" («Жизнь с идиотом») operası (sovet zülmünə aid alleqoriya[17]), Balet "Labirintlər", simfoniyalar, kantatalar, instrumental əsərlər, "Ekipaj" və "Sən və mən" kinofilmlərinə musiqi və s. vardır.

*Andrey Petrov* (1930 – 2006) – sovet və rus bəstəkarıdır. Leninqradda anadan olmuşdur. Böyük Vətən müharibəsi zamanı ailə Sibirə təxliyə olunur. O, gənc yaşlarından ədəbiyyatla maraqlanırdı, hekayələr yazırdı. Bəstəkar olmaq fikri "Böyük vals" («Большой вальс») filminə baxdıqdan sonra yaranmışdır (1938, filmdə məşhur avstriya bəstəkarı – "valslar kralı" İ.Ştrausun valslarından istifadə olunur).

*A.Petrov* Leninqrad konservatoriyasını bəstəkarlıq sinfi üzrə bitirmişdir (müəllim O.Yevlaxov). Bəstəkarın yaradıcılığı janr müxtəlifliyi ilə seçilir. Bura mahnı, romans, kinofilmlərə yazılmış musiqi, opera, balet, simfonik və konsert musiqiləri aid etmək olar. Petrovun əsərlərində P.Çaykovskinin, D.Şostakoviçin, S.Prokofyevin, impressionistlərin təsirləri hiss olunur. Təkamül prosesi nəticəsində onun yaradıcılığında lirik xüsusiyyətli əsərlər dramatik xarakterlə əvəz olunur (orqan, simlilər, 4 truba, iki fortepiano və zərb alətləri üçün "Leninqradın mühasirəsi illərində həlak olanların xatirəsinə poema"). Petrovun yaradıcılığında teatr-səhnə musiqisi əsas yer tutur. Bu "Ümid sahili" («Берег надежды») (Yuri Slonimskinin librettosu), "Dünyanın yaradılışı" («Сотворение мира») (fransız karikaturçu Jan Effelin satirik lövhələri əsasında) və s. baletləridir.

Görkəmli şəxsiyyətlərinin obrazları xüsusi trilogiyada öz əksini tapmışdır: "Birinci Pyotr" opera-oratoriyası, "Puşkin" vokal-xoreoqrafik simfoniyası və opera-feyeriya "Mayakovski başlanır" («Маяковский начинается»). Onun "Moskva küçələri ilə addımlayıram" («А, я иду, шагаю по Москве»), "Avtomobildən qorun" («Берегись автомобиля»), Рауız marafonu", "İşdə məhəbbət"(«Служебный роман»), "Zavallı qusar haqqında bir kəlmə deyin" («О бедном гусаре замолвите слово») və digər kinofilmlərə yazdığı musiqi milyonların sevgisini qazanmışdır.

*Sofiya Qubaydulina* (1931) – sovet avanqard musiqisinin sonuncu dünya miqyaslı bəstəkarlarından biridir. Çistopol şəhərində (Tatarstan) anadan olub. Kazan konservatoriyasını bitirdikdən sonra Moskva konservatoriyasına, Y.Şaporinin sinfinə daxil olur. D.Şostakoviçin "Sizə onu arzulayıram ki, öz "səf" yolunuzla gedəsiniz" sözləri Qubaydulina üçün çox böyük əhəmiyyət kəsb edirdi. Bəstəkarın adı sovet avanqard bəstəkarlarının məşhur "üçlüyü"nə daxil olur: A.Şnitke – E.Denisov – S.Qubaydulina. Qeyd etməliyik ki, onun heç bir müasir yazı üslubu ilə əlaqəsi yoxdur (Şnitkenin – polistilistika, Denisovun – seriya texnikası).

Qubaydulina 1975-ci ildə "Astreya"[18] ansamblını yaradır. Burada o, öz həmkarları ilə birlikdə şərq alətlərində (tar, pip, kamança və s.) improvizə edir. O, öz musiqisində say

[17] Alleqoriya (yunan söz.) – hər hansı bir mücərrəd fikrin konkret hadisənin köməyi ilə təsvir edilməsidir.
[18] Astreya – yunan mifologiyasında Düzgünlük ilahəsidir.

ardıcıllığından (numerologiya) istifadə etməyi çox xoşlayırdı. Onun musiqisini konsert proqramlarına nadir hallarda salırdılar. Lakin 80-ci illərin sonlarından Qubaydulinanın musiqisi bütün dünyaya səs salır. Əsərləri arasında məşhur “Offertorium” (“Qurban kəsmə”), “Memfisdə gecə” kantatası, M.Prişvinin sözlərinə “Faseliya[19] “vokal silsiləsi, “Rubayat” kantatası (Xaqani, Hafiz,və Xəyyamın sözlərinə), “Mauqli” cizgi filminə və “Qorxuluq” («Чучело») kinofilminə musiqiləri vardır.

1991-ci ildən S.Qubaydulina Almaniyada yaşayır.

***A.Petrov. “Avtomobildən qorun” («Берегись автомобиля») kinofilmindən Vals:***

https://www.youtube.com/watch?v=TPYTVkZ5enc




***A.Petrov. “Birinci Pyotr” operası. Anastasiyanın oxşaması («Плач Анастасии»):***

https://www.youtube.com/watch?v=SGNuL3IMxSE




*Suallar və tapşırıqlar:*

1. V.Qavrilin hansı cərəyanın nümayəndəsidir?
2. V.Qavrilinin baletlərinin adlarını çəkmək.
3. V.Qavrilinin yaradıcılığında hansı yeni janr yaranmışdır?
4. A.Şnitkenin musiqisinin əsasını nə təşkil edir?
5. A.Şnitkenin əsərlərinin adlarını çəkmək.
6. A.Petrovun yaradıcılığında hansı tanınmış şəxsiyyətlərin obrazları əks olunur?
7. “Astreya” ansamblının bəstəkarları hansı şərq alətlərində improvizə edirdilər?
8. S. Qubaydulinanın “Rubayat” kantatası kimin sözlərinə yazılıb?
9. Məşhur “Üçlük” sovet avanqard bəstəkarlarının adlarını çəkin.
10. S.Qubaydulina hansı məşhur sovet cizgi filminə musiqi yazmışdır?

[19] Faseliya – Su yarpaqlılar ailəsinə aid bitki.

*17-ci dərs:* **XX əsrin dünya musiqisi.**

Biz əminliklə XX əsri musiqi sənəti tarixində "dönüş dövrü" kimi adlandıra bilərik. Bütün dövrlərdə dünya, musiqidə öz yeni sözünü demiş inqilabçı-musiqiçilər yetişdirmişdir. Bunlar Lyudviq Bethoven, Rixard Vaqner, Klod Debüssi, Sergey Prokofyev, Arnold Şönberq, İqor Stravinski, Aleksandr Skryabin və bir çoxlarıdır. İlk əvvəl onların musiqisi anlaşılmırdı, hətta bəzən qalmaqala səbəb olurdu, lakin zaman keçdikcə dinləyicilər tərəfindən başa düşülürdü və sevilirdi.

Həyat özü dəyişirdi və onunla birgə musiqi əsərlərinin məzmun və forması dəyişirdi. Bədii cərəyanlar bir-birini əvəz edirdi.

XIX əsrin sonu – XX əsrin əvvələrində musiqi sənəti nadir üsul müxtəlifliyi ilə seçilirdi. Burada romantizmin son dövrünün (Qustav Maler, Rixard Ştraus, Yan Sibelius) və impressionizmin (Klod Debüssi, Moris Ravelin erkən yaradıcılığı) xüsusiyyətlərini qeyd etmək olar.

1910-cu ildən bu günə qədərki dövrü "Yeni musiqi" dövrü kimi qəbul olunmalıdır. Onun ilkin dövrü İkinci dünya müharibəsinə qədər uzanır və musiqişünaslıqda "modern" dövrü kimi qeyd olunur.

Əsasən "avanqard", bəzən isə "postmodern" adlanan növbəti dövr İkinci dünya müharibəsi dövründən bu günə kimi davam edir.

Musiqi sənətindəki yeni cərəyan və istiqamətlər yeni ifadə vasitələrini meydana gətirir: melodik və harmonik dilin mürəkkəbləşməsi, tonallıqdan imtina (atonallıq), ritmin (poliritmiya) və tembrin mühüm rolu.

Yeniliklər daha çox avanqardlıq, modernlik (qabaqcıl, yeni, müasir) kimi yeni istiqamətlərdə öz əksini tapır. İmressionizmi ekspressionizm[20] əvəzləyir.

XX əsrin əvvəllərində bir qrup fransız bəstəkarları meydana gəlir və öz sənətlərini impressionizm üslubu ilə qarşı-qarşıya qoyurlar. Bu qrupa L.Dürey, D.Miyo, A.Oneger, F.Pulenk, J.Orik, J.Tayfer daxildir. "Altılıq"ın ideya müəllifi Erik Sati və yazıçı Jan Koktodur.

"Neoklassisizm" yeni üslub kimi forma, harmoniya və əsərlərin quruluşunda klassik xüsusiyyətləri yenidən bərpa edir. Bura S.Prokofyevin Birinci "Klassik simfoniyası", M.Ravelin "Kuperenin qəbri" fortepiano süitası, alman bəstəkarı Paul Xindemitin "Rəssam Matiss" operası aiddir.

"Futurizm" üslubunda keçmiş və indiki ənənələrin istifadəsindən imtina olunur. Musiqi futurizmi italyan bəstəkarı F.Pratellanın yaradıcılığında yaranır ("Həyat himni", "Aviator Dro" operaları).

Həyatın reallıqlarını təcəssüm etdirən siyasi mövzu da musiqidə öz əksini tapır. Ingilis bəstəkarı Bendjamin Brittenin İkinci dünya müharibəsində həlak olan dostlarına həsr olunmuş məşhur "Hərbi rekviyem"i buna misal gətirmək olar. "Elektron musiqisinin" yaradıcısı (40 – 50-ci illər) Con Keyc ("*Cartridge music*") olmuşdur. Burada musiqiçi not yazılarının ifası əvəzinə məqam düşdükçə müxtəlif alətlərin (gücləndirici və s.) köməyi ilə səsləri dəyişməlidir.

[20] Ekspressionizm – XX əsrin əvvələrində, əsasən də Almaniyada və Avstriyada inkişaf etmiş Avropa sənətindəki cərəyan. Ekspressionizm nümayəndələri daha çox müəllifin emosional vəziyyətini təsvir edir, nəinki reallığı. Bu cərəyanın banisi "Yeni Vyana məktəbinin" yaradıcısı Arnold Şönberq olmuşdur. Onun yaradıcılığında "dodekafoniya" – yeni bəstəkarlıq yazı üslubu yaranır. Burada 12 səs müəyyən ardıcıllıqla istifadə olunur. Şönberqin ardıcılları: Alban Berq və Anton Vebern (Avstriya), Pyer Bulez (Fransa), İqor Stravinski yaradıcılığının son dövrlərində (Fransa, ABŞ), Skot Bredli (Amerika), Qara Qarayev (Azərbaycan).

Cazın akademik musiqinin inkişafına böyük təsiri olmuşdur. (Corc Gerşvinin “Blyuz üslubunda rapsodiya”sı, Leonard Bernstaynın “Vestsayd tarixi və “Gözəl şəhərdə” müziklləri).

Müzikl – operetta, balet və melodramın xüsusiyyətlərini özündə cəm edən janrdır. XX əsrin 30-cu illərində Amerikada yaranmışdır.

***C.Gerşvin. “Blüz üslubunda rapsodiya”:***
*https://www.youtube.com/watch?v=4DBaUWllcIA*




***C.Gerşvin. “Porgi və Bess” operası. Klaranın laylası:***
*https://www.youtube.com/watch?v=o8SlSmPhGCM*




60-cı illərdə yeni rok-n-roll musiqi janrı bütün dünyaya yayılır. “Rok-n-rollun kralı” amerika müğənnisi və aktyoru Elvis Presli sayılır.

XX əsrin görkəmli novator bəstəkarlarından macarıstanlı Bela Bartok olmuşdur. O, müasir cərəyanlardan heç birinə (avanqard) müraciət etmir. Onun yaradıcılığı “Hersoq Göy Saqqalın qəsri” («Замок герцога Синяя борода») (fransız yazıçısı Şarl Perronun Göy Saqqal haqqında nağılı əsasında) fortepiano üçün altı dəftərdən ibarət “Mikrokosmos” məcmuəsi və s. əsərlərdən ibarətdir.

“Mikrokosmos” müasir musiqi dili ilə yazılmış fortepiano üçün ifa örnəyidir. Burada genişləndirilmiş tonallıq, xromatika, dəyişən metr, poliritmiya və bəstəkar yazı üslubunun digər üsulu istifadə olunur. “Mikrokosmos” silsiləsinin pyesləri texniki mürəkkəbliyinin artmasına görə sıralanır.

***B.Bartok. “Mikrokosmos” (1-ci dəftər) № 1:***
*https://www.youtube.com/watch?v=kPRxjd2ETSo*




***B.Bartok. “Mikrokosmos” (1-ci dəftər) № 9:***
*https://www.youtube.com/watch?v=kPRxjd2ETSo (səslənmənin başlanğıcı – 4:08)*



*Suallar və tapşırıqlar:*

1. XX əsrdə musiqi sənətində müxtəlif istiqamət və cərəyanların yaranması nə ilə bağlı idi?
2. XX əsrdə meydana gəlmiş cərəyanların adlarını çəkin.
3. “Yeni Vyana məktəbi”nin yaradıcısı kim olmuşdur?
4. Elektron musiqisinin yaradıcısı kim olmuşdur?
5. Fransız “Altılıq”ına kimlər daxil idi?
6. Siyasi mövzu ilk dəfə kimin yaradıcılığında yaranır?
7. “Mikrokosmos” fortepiano silsiləsi haqqında danışmaq.